ADNAN OKTAR

HARUN YƏHYA

DARVİNİZM QURANA UYĞUN DEYİL

MÜNDƏRİCAT

- Ön söz
- Əlavə hissə: Kainat yaradılmadan əvvəl zər aləmində bütün peyğəmbərlər və insanlar vardı
- Niyə bəzi müsəlmanlar Təkamül nəzəriyyəsini müdafiə edirlər?
- Müsəlman təkamülçülərin nəzərdən qaçırdıqları əhəmiyyətli həqiqətlər
- Allahın yaratma elmi
- Quran ayələrindən Təkamül nəzəriyyəsinə dəlil gətirməyə çalışanların yanılmaları
- Darvinizm bir təhlükə olaraq görülməzsə nələr olar?
- Nəticə
- Təkamül yalanı

ÖN SÖZ

Təkamül nəzəriyyəsi deyildiyi zaman insanların ağılına fərqli anlayışlar gələ bilər. Bəzi insanlar (ümumiyyətlə materialistlər) təkamül nəzəriyyəsinin elm tərəfindən isbat edilmiş bir həqiqət olduğunu sanarlar. Halbuki həqiqət bunun tam tərsidir, elm yüzlərlə dəlillə təkamül nəzəriyyəsinin etibarsızlığını gözlər önünə sərmişdir. Ancaq yenə də bəhs etdiyimiz insanlar təkamül nəzəriyyəsini şiddətlə müdafiə edər, bu nəzəriyyəyə qarşı çıxan hər fikri şiddətlə rədd edərlər.

İkinci qrup, təkamül nəzəriyyəsinin iddiaları haqqında məlumat sahibi deyil. Bu kəslər haqqında danışdığımız nəzəriyyə ilə çox maraqlanmazlar, çünki darvinist düşüncənin 1,5 əsrdir insanlığa verdiyi zərərin fərqində deyildirlər. Elmi istiqamətdən etibarsızlığına baxmayaraq təkamül nəzəriyyəsinin hərarətlə müdafiə olunması, insanların qarşısına tətbiq etmə olaraq çıxarılması, onların gözündə bir problem deyil. Bu mövzuda olan bitənlərə tamamilə gözlərini bağlamışlar.

Bu kəslər nəzəriyyənin elm qarşısında etibarlılığını itirdiyini bilsələr də, bu mövzunu heç əhəmiyyət vermədikləri kimi, əhəmiyyət verənlərə də bir məna verə bilməzlər. Bu kəslərə görə təkamül nəzəriyyəsinin etibarsızlığının izah edilməsi üçün səy göstərilməsi, bu mövzuda kitablar yazılması, ya da konfranslar verilməsi gərəksizdir. Çünki onlara görə təkamül nəzəriyyəsi onsuz da **"köhnəlmiş"**, ya da **"bitmişdir"**. Halbuki bu kəslər ciddi bir yanılma içindədirlər. Təkamülün köhnə nəzəriyyə olduğu doğrudur, ancaq təkamül nəzəriyyəsinin yalanlarının ifşa edilməsinin gərəksiz olduğunun düşünülməsi səhvdir.

Üçüncü bir qrup isə, materialist təlqin və təbliğatlar nəticəsində təkamül nəzəriyyəsini elmi həqiqət zənn edən və bu nəzəriyyə ilə Allaha iman arasında öz ağıllarına görə **"orta yol"** axtaran bəzi inanclı insanlardır. Bu kəslər, darvinizmin canlılığın mənşəyi haqqındakı ssenarisini eynilə qəbul etməkdə, ancaq bu ssenarinin guya Allahın idarəsində olduğunu müdafiə edərək, təkamül nəzəriyyəsi ilə inanc arasında sanki **"uyğunluq"** təmin etməyə çalışmaqdadırlar. Darvinizmlə İslamiyyət arasında fikri **"uyğunluq"** axtarmaq, müsəlman üçün əsla müzakirə mövzusu olmamalıdır. Ortaya atılma səbəbi, Allahı və yaradılışı inkar etmək olan bir nəzəriyyə ilə **"uyğunlaşmaq"** səmimi olaraq iman edənlər üçün mümkün deyil. Üstəlik, Quran ayələrində də,

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində də təkamülə işarə edən tək bir şərh belə yoxdur.

Halbuki nə bu nəzəriyyəni elmi həqiqət kimi önə sürmək, nə əhəmiyyətsiz kimi göstərmək, nə də bu nəzəriyyəni guya **"dinə uyğun"** hala gətirməyə çalışmaq doğru deyil. Çünki kitab boyunca görüləcəyi kimi, təkamül nəzəriyyəsi ideoloji arxa planı olan, ateizmi sağlamlaştırmaq və təmələndirmək məqsədiylə ortaya atılmış və materialist düşüncəyə sahib kütlələr tərəfindən şiddətlə sahiblənilmiş din əxlaqına uyğun olmayan bir düşüncədir. Materialist fəlsəfə üzərinə inşa edilmişdir və dünya üzərindəki hadisələrin izahı da **"materialistcə"**dir. Çarlz Darvin tərəfindən ortaya atıldığından bu yana insanlığa qarşıdurma, istismar, müharibə və degenerasiyadan başqa bir şey gətirməmişdir. Bu səbəblə mövzunun əhəmiyyətini yaxşı qavramaq və bu batil düşüncəyə qarşı ciddi fikri mübarizə aparmaq lazımdır.

Əlinizdəki kitabda təkamül nəzəriyyəsi çox fərqli istiqamətdən müzakirə olunacaq, təkamül nəzəriyyəsini müdafiə edən bəzi inanclı insanların səhv düşüncələrinə cavab veriləcək. Edilən çalışma bu istiqamətiylə, təkamül nəzəriyyəsiylə yaradılış həqiqəti arasında öz ağıllarına görə bəzi ortaq nöqtələr tapmağa, hətta Qurandan təkamül nəzəriyyəsinə guya dəlil gətirməyə çalışan bəzi müsəlmanlara cavab xüsusiyyətindədir. Şübhəsiz, bundakı məqsədimiz təkamül nəzəriyyəsini doğru sanan müsəlmanları tənqid etmək deyil. Məqsədimiz, təkamül nəzəriyyəsi mövzusundakı yanaşmalarının səhv olduğunu izah edərək, onlara bu mövzuda fikirlə kömək etmək, daha doğru bir dünyagörüşü mənimsəmələrinə vəsilə olmaqdır.

Kitabda üzərində dayanılacaq bir başqa mövzu da heç bir elmi dayağı olmayan darvinizmin, əslində dini hədəf alan bir nəzəriyyə olduğudur. Bu səbəbdən kitabda müsəlmanların bu nəzəriyyəni adi qarşılamalarının, əhəmiyyətsiz qəbul etmələrinin və bu nəzəriyyə ilə fikri mübarizə icra edilməsini gərəksiz görmələrinin qorxularına diqqət çəkiləcək.

Təkamül nəzəriyyəsi kimi ideoloji məna ifadə edən və İslam dininin həqiqətləriylə ziddiyyət təşkil edən bir nəzəriyyəni müdafiə etmək, inanc sahibi bir insanın şiddətlə qaçınması lazım olan vəziyyətdir. Bəlkə belə bir davranışın səbəbi, bu nəzəriyyənin bu günə qədər insanlığa gətirdiyi bəlalardan, din əxlaqına düşmənlik bəsləyən kütlələrin bu nəzəriyyəni sahibləndiyindən, bu nəzəriyyənin yaradılış həqiqətini qəti olaraq rədd etdiyindən xəbərsiz olmaq ola bilər. Bu vəziyyətdəki bir müsəlmanın, haqqında

məlumat sahibi olmadığı bu mövzunun arxasından getməkdən şiddətlə çəkinməsi əsas şərtdir. Çünki bu, Allahın iman edənlərə bir əmridir. Quranda bu şəkildə buyurulur:

Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı sahibinin əməlləri barəsində sorğu-sual olunacaqdır. (İsra surəsi, 36)

Nümunə müsəlman rəftarı isə, bir mövzunu səmimiyyətlə araşdırmaq, öyrənmək və ona görə davranmaqdır:

... Sözsüz ki, bizlərdən müsəlmanlar da var, doğru yoldan sapanlar da. Müsəlman olan şəxslər doğru yol tutanlardır. (Cin surəsi, 14)

Müsəlman təkamülçülərin də yuxarıdakı ayələrdə bildirilən əmr gərəyi, təkamül nəzəriyyəsi üzərində diqqətlə düşünüb, daha sonra əhatəli araşdırma etmələri və vicdanlarının səsini dinləyərək qərar vermələri lazımdır. Əlinizdəki kitab, bu mövzuda yol göstərmək və köməkçi olmaq üçün yazılmışdır.

ƏLAVƏ HİSSƏ:

KAİNAT YARADILMADAN ƏVVƏL ZƏRALƏMİNDƏ BÜTÜN PEYĞƏMBƏRLƏR VƏ İNSANLAR VARDI

Təkamül elm deyil. Paleontologiya, biologiya, genetika, kimya, zoologiya, arxeologiya, astronomiya elmdir və bütün elm sahələri təkamüllü müddət yaşanmadığını göstərməkdədir. Təkamül isə şumerlərdən, antik Misirdən, yunanlılardan bu günə gələn bütpərəst inanc və xurafatdır. İsrarla dəstəkləməyə çalışılmasının səbəbi isə ideologiyadır. Bəzi kəslər, (böyük ehtimalla məlumatsızlıqları səbəbindən) **"təkamülə qarşı olduqlarında elmə qarşı olacaqları"** kimi bir səhvə qapılırlar. Belə düşündükləri üçün əvvəldən məğlubiyyəti qəbul edir, bu səbəbdən də İslamla təkamülü öz ağıllarına görə uyğunlaşdırmağa çalışmaqdadırlar. Bu boş məşğuliyyətdir, çünki Quranda təkamül qəti olaraq yoxdur.

Əlbəttə, Allah diləsəydi canlıları təkamüllə də yarada bilərdi. Ancaq Quranda bu istiqamətdə məlumat yer almamaqda, təkamülçülərin qarşıya qoyduğu kimi növlərin mərhələ-mərhələ meydana gəlməsini dəstəkləyəcək heç bir ayə yoxdur. Əgər belə pilləli yaradılış şəkli olsaydı, bunu, Quran ayələrində ətraflı izahlarla görməmiz mümkün olardı. Ancaq tam tərsinə Quranda canlılığın və kainatın Allahın **"Ol"** əmriylə möcüzəvi şəkildə, bir anda var edildiyi bildirilməkdədir:

Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!" – deyər, o da olar. (Bəqərə surəsi, 117)

Quranda təkamülçülərin iddia etdiyi kimi canlıların bir-birindən törədiyinə dair (işarə olaraq belə) bir ayə yoxdur. İnsan da təkamülün məhsulu deyil. Allah Quranda, hz. Adəm (ə.s)-ı atəşdə bişmiş kimi, şəkillənmiş, quru palçıqdan yaratdığını bildirər:

Biz insanı başqa şəklə düşmüş qara palçıqdan, toxunduqda səxsı kimi səs çıxaran quru gildən yaratdıq. (Hicr surəsi, 26)

Bir zaman Rəbbin mələklərə dedi: "Mən başqa şəklə düşmüş qara palçıqdan, toxunduqda səxsı kimi səs çıxaran quru gildən insan yaradacağam!

(Hicr surəsi, 28)

O, insanı səxsı kimi quru gildən yaratdı.

(Rəhman surəsi, 14)

Ayələrdə insanın, müsəlman təkamülçülərin iddia etdiyi kimi "meymundan" və ya bir başqa canlı növündən deyil, cansız maddə olan palçıqdan, Allahın təqdir etdiyi şəkildə hər hansı təkamüllü müddətdən keçmədən yaradıldığı xəbər verilməkdədir:

Mən ona biçim verib Öz ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!" (Hicr surəsi, 29)

Allah, atəşdə bişmiş cansız palçığı (bir növ farfor heykəli) **"Ol"** əmriylə insana çevirmiş və bu bədənə də ruh üfləmişdir. Burada heç bir **"təkamül müddəti"**indən söz gedə bilmədiyi kimi əksinə, Allahın birbaşa bir anda yaratması vardır.

Quranda təkamülün olduğunu iddia edənlərin yanılmalarını ortaya qoyan bir başqa həqiqət isə, Allahın bütün insanları dünyadan əvvəl Zər aləmində var etdiyi məlumatıdır.

Allah Quranda kainat yaradılmadan əvvəl insanları Zər aləmində var etdiyini və hamısından söz aldığını bildirmişdir:

Bir zaman Rəbbin Adəm oğullarının bellərindən onların törəmələrini çıxarmış və: "Mən sizin Rəbbiniz deyiləmmi?" – deyə onları özlərinin aleyhinə şahid tutmuşdu. Onlar: "Bəli, biz şahid olduq!" – demişdilər. Bu ona görədir ki, siz Qiyamət günü: "Biz bundan xəbərsiz idik!" – deməyəsiniz.

(Əraf surəsi, 172)

Görüldüyü kimi ayədə, kainat hələ var edilmədən əvvəl insanların yaradıldığı, qüsursuz və tam olaraq var olduqları və Allaha söz verdikləri bildirilmişdir. Ayədəki məlumata görə, kainat hələ yoxdur, amma danışan, eşidən, söz verən, bütün üzvləri və fiziki xüsusiyyətləriylə tam insanlar vardır.

Ayə ərəb dilində isə belədir:

وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتُ
بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا أَن تَقُولُواْ يَوْمَ الْقِيَامَةِ إِنَّا كُنَّا عَنْ هَذَا غَافِلِينَ

"Ve iz ehaze rabbuke min benî âdeme min zuhûrihim zurriyyetehum ve eşhedehum alâ enfusihim, e lestu birabbikum, kâlû belâ, şehidnâ, en tekûlû yevmel kıyâmeti innâ kunnâ an hâzâ gâfilîn(gâfilîne)."

(İz: Hanı, xatırla, o halda, elə isə, o vaxt, zaman, …dığında, …..dığı vaxt, çünki, ….dığı üçün, səbəbiylə)

və iz ehaze: və çıxardığı, aldığı zaman

rəbbi-ke: sənin Rəbbin

min məni adəmə: Adəmoğullarından

min zühuru-him: onların bellərindən

zurriyyete-hum: onların nəsillərini, onların soyları, onların nəsilləri

və eşhede-hum: və onları şahid tutdu

alâ enfusi-him: nəfslərinin (özlərinin) üzərinə

e lestu: mən deyiləmmi?

bi rəbbi-qum: sizin Rəbbiniz

kâlû: dedilər

belâ: bəli

şehid-nâ: biz şahid olduq

en tekûlû: deməniz, deməniza qarşı (deməməniz üçün)

yevme el kıyâmeti: qiyamət günü

innâ: şübhəsiz ki biz, həqiqətən biz

kun-nâ: biz olduq, ... idik

an hâzâ: bundan

gâfilîne: qafillər, xəbərsiz olanlar

Ayədə bəhs edilən **"zürriyyət"** sözü bu ayənin xaricində Qurani Kərimdə 18 yerdə daha işlədilmişdir. Bu sözün istifadə edildiyi bütün ayələrdə isə

mənası, İslam alimlərinin ittifaqıyla, **“insan nəsli”**dir. Bu ayədə də, Adəmin nəslindən yəni hz. Adəm (ə.s)-ın soyundan, yəni dünyada yaşamış və yaşayacaq bütün insanlardan bəhs edilməkdədir. Çünki, yalnız hz. Adəmin özündən alınan bir əhddən söz getsəydi, **“o zaman ki, Rəbbin Adəmdən əhd almışdı”** ifadəsi istifadə edilərdi. Ayədə bəhs edilən **“o zaman Rəbbin Adəm oğullarından əhd almışdı”** ifadəsiylə, hz. Adəm (ə.s)-ın nəsli, yəni bütün insanlar nəzərdə tutulmaqdadır.

Ayənin əvvəlində bəhs edilən **“iz-xatırla o zamanı, hanı”** ifadəsi isə, hz. Adəm (ə.s)-ın nəslinə yəni bütün insanlığa olan bu xitabın olduğu zamanını göstərər. **“İz”** sözü keçmişdə olan bir hadisə haqqında istifadə edilən zaman ədatıdır. Mənası da keçmişdə olan bu hadisəni xatırladar. Bütün insanların keçmişdə, hələ kainat yaradılmadan əvvəl, verdikləri sözdür.

Bu məlumatlar işığında, ayədə dünyaya göndərilmədən əvvəl hz. Adəm (ə.s) və soyunun (nəsillərinin) (yəni bütün insanların) öz nəfslərinə şahidlik etmək üçün yaradıldıqları və eyni mühitdə toplandıqları izah edilməkdədir. Yəni bütün insanlıq (insanoğlu) bir anda, bir yerdə, toplu olaraq yaradılmışdır. Hələ dünyaya gəlməmiş olan, gəlmiş keçmiş bütün insanların toplandıqları bu yerin adı isə, Zər aləmidir. Zər aləmində bütün insanlıq nəfs (insanı özü-bədən-varlıq) sahibi olaraq Allahın hüzurunda toplanmışdır.

Burada diqqət yetirilməsi lazım olan çox əhəmiyyətli məqam vardır. Allah, hüzurunda yığdığı bütün insanlara bir sual verilmişdir; **“Mən sizin Rəbbiniz deyiləmmi?”** və bu suala yaşamış və yaşayacaq olan bütün insanlar; **“Bəli (Rəbbimizsən), şahid olduq”** deyə cavab vermişdir. Zər aləmindəki insanlar onlara verilən sualı eşidəcək, qəbul edəcək, mühakimə edəcək və cavab verəcək bütün üzvlərə malikdir. Təkamülçülərin mərhələ-mərhələ qazanılan xüsusiyyətlər və üzvlər iddiası etibarsızdır. Onlara verilən bu suala cavab verən insanlar bütün üzvləriylə nöqsansız və qüsursuz bir şəkildə vardırlar.

Danışmaq üçün qüsursuz işləyən bir dilə və onun bədəndəki bütün infrastrukturuna, danışma hərəkətinin reallaşması üçün səs telinə və uyğun qırtlaq quruluşuna, sualı eşitmək üçün tam işləyən qulaqlara, sualı anlamaq-şərh etmək və cavab verə bilmək üçün isə qüsursuz beyinə və bütün funksiyalarıyla mükəmməl işləyən bədənə ehtiyac vardır. Həm özlərinə, həm də Allahın bütün insanların Rəbbi olduğuna şahidlik edə bilmək üçün isə, qüsursuz görən bir gözə, açıq şüura, mühakiməyə, ağla və anlayışa sahib olmaları lazımdır. Əks halda şahidlik etmələri mümkün deyil. Məhz buna görə

də ayədə orada olan hər kəsin nəfs (insanın özü-bədən-varlıq) sahibi olduqlarına xüsusilə diqqət çəkilmişdir. Bu da insanın mərhələ-mərhələ, təkamüllü müddətlərdən keçərək var olduğu iddiasını tamamilə etibarsız etməkdədir.

Zər aləmində yaradılan insanların ana-ata vəsiləsiylə dünyaya göndərilmədən əvvəl bədən, ağıl və ruh sahibi olaraq qüsursuz yaradıldıqları açıq şəkildə aydın olmaqdadır. Necə ki, ayənin sonundakı; **"(Bu,) Qiyamət günü: "Biz bundan xəbərsizdik" deməməniz üçündür",** ifadəsindən də aydın olduğu üzrə, dünyaya gələn ilk insandan qiyamət gününə qədər yaşayacaq olan bütün insanların əvvəl Zər aləmində yaradıldıqları və yenə qiyamət günü hamısının birdən sahib olduqları qüsursuz xüsusiyyətləriylə eyni anda yenidən yaradılıb dirildiləcəkləri bildirilmişdir.

Bu mövzunu açıqlayan bir başqa ayə isə Maidə surəsindədir:

Allahın sizə göstərdiyi lütfkarlığını və siz: "Eşidirik və itaət edirik!" - dediyiniz zaman sizinlə bağladığı əhdi xatırlayın. Allahdan qorxun! Şübhəsiz ki, O, köksərdə olanları bilir (Maidə surəsi, 7)

"Eşidirik və itaət edirik" dediyinizdə sizi, özü ilə bağladığı sözünü (müqaviləsini) anın" ayəsində bəhs edilən **"sizi"** ifadəsi dil qaydalarına görə **"şəxs əvəzliyidir"**. Bu səbəblə də, həmin anda orada olanların (insan-şəxs) insan olduqlarına heç şübhə yoxdur. Necə ki, eşitmək üçün qulağa ehtiyac olduğu kimi itaət etmək üçün də ruha, ürəyə və ağla ehtiyac vardır. Yəni ayədə, (qulağı ilə) eşidən, eşitdiyini anlayan, ağılı ilə, ürəyi ilə, ruhu ilə və bütün bədəni ilə Allaha itaət etdiyini təsdiq edən qüsursuz bir varlıq olan insandan bəhs edildiyi çox açıqdır. Yenə ayənin, **"sizinlə bağladığı əhdi xatırlayın"** ifadəsində də Allahın insanlardan söz aldığı və bu sözün məsuliyyətinin də yenə orada olanlarda yəni bütün insanlarda olduğu izah edilməkdədir. Yalnız ağıl, şüur və ruh sahibi bir varlığın, yəni insanın söz verməsi və bu sözünün də məsuliyyətini alması mümkün ola bilər. Verdiyi söz ilə bağlayıcılıq meydana gətirmək yaradılan varlıqlar içində yalnız insana xas bir xüsusiyyətdir. Ayənin davamında isə Allah insanların verdiyi bu sözü unutmamalarını və bu mövzunu

danışaraq xatırlamalarını əmr etməkdədir. Necə ki, ayədəki **“anın”** əmri də unutmamaq, xatırlamaq və danışmaq kimi hərəkətləri əksiksiz yerinə yetirən insanların varlığını göstərməkdədir.

Həmçinin Quranda insanların iki dəfə ölüb, dirildikləri xəbər verilər:

Onlar deyəcəklər: “Ey Rəbbimiz! Sən bizi iki dəfə öldürüb, iki dəfə diriltdin. Biz öz günahlarımızı etiraf etdik. Oddan çıxmağa bir yol varmı?”

(Mömin surəsi, 11)

Məhz bu ayədə bildirilən ilk ölüm və dirilmə, Zər aləmində insanlar söz verdikdən sonra bir cür ölmələri, sonra Allahın ana və atanı vəsilə edib can verməsi və dünyaya gəlmələri, yəni dirilmələridir. İkinci ölüm isə dünyadakı bildiyimiz fiziki vəfat olacaq, axirətdə də ikinci dəfə dirilmə reallaşacaq.

Görüldüyü kimi Quranda Zər aləmi haqqında verilən məlumatlar, Quran ilə təkamülü uyğunlaşdırmağa çalışanların bütün iddialarını təməldən çürütməkdədir. Bu kəslər öz ağıllarına görə bəzi ayələrə məntiqdən kənar açıqlamalar gətirərək Quranda təkamüllə yaradılış var olduğu təəssüratı meydana gətirməyə çalışmaqdadırlar. Müxtəlif mərhələlərdən, müddətlərdən bəhs edərək Allahın canlıları təkamüllə yaratdığını qarşıya qoymaqdadırlar. Ancaq bu nafilə səydir. Zər aləmində gəlmiş keçmiş bütün insanların tam insan olaraq var olması, danışması, dinləməsi və söz verməsi isə, onların təkamülə dair ayələrdə tək-tək tapmağa çalışdıqları xəyali dəlillərin hamısını yerlə bir etməkdədir.

1 HİSSƏ:

NİYƏ BƏZİ MÜSƏLMANLAR TƏKAMÜL NƏZƏRİYYƏSİNİ MÜDAFİƏ EDİRLƏR?

Tarixin hər dövründə insanlar kainatın və canlıların mənşəyi üzərində düşünmüş və bu mövzuda müxtəlif fikirlər ortaya atmışlar. Bu fikirləri kainatı materialist dünyagörüşü ilə izah etməyə çalışanlar və Allahın bütün kainatı yoxdan var etdiyini, yəni yaradılış həqiqətini, görənlər olmaq üzrə iki başlıq altında yığmaq mümkündür.

Girişdə təkamül nəzəriyyəsinin materialist fəlsəfə üzərinə inşa edildiyindən danışmışdıq. Materialist dünyagörüşü, kainatı meydana gətirən maddənin, var olan yeganə varlıq olduğunu iddia edər. Bu batil inanca görə maddə sonsuzdan bəri vardır və maddəyə hakim olan bir başqa güc yoxdur. Materialistlər, kainatın təsadüflər nəticəsində özbaşına şəkilləndiyini, canlılığın isə zaman içərisində yenə kor təsadüflər nəticəsi cansız maddələrdən təkamülləşərək meydana gəldiyi yanılmasını qəbul edərlər. Bu səhvə görə, yer üzündəki bütün canlılar təbii təsirlər və təsadüflər nəticəsində ortaya çıxmışlar.

Digər bir ifadə ilə, materialist fəlsəfə canlılığın meydana gəlməsini təkamül nəzəriyyəsi ilə izah etməyə çalışar. Təkamül nəzəriyyəsi ilə materialist fəlsəfə bir-birini tamamlayan iki batil düşüncə sistemidir. Antik Yunanda yaranan bu birlik, 19-cu əsrin primitiv elm anlayışı içində yenidən gündəmə gətirilmiş və təkamül nəzəriyyəsi materializmə guya dəstək verdiyi üçün (elmi olub olmadığına baxılmadan) materialistlər tərəfindən dərhal qəbul olunmuşdur.

Təkamül nəzəriyyəsinin qarşısında isə yaradılış həqiqəti yer alır. Elmi tapıntıların da açıq şəkildə ortaya qoyduğu kimi, maddə sonsuzdan bəri var deyil, başıboş da deyil; Allah maddəni yoxdan yaratmışdır. Canlılar da yenə Allahın yaratmasıyla var olmuşdur. Kainatdakı və canlılardakı böyük tarazlıq və nizam, bu həqiqətin açıq dəlilləridir.

İnsanın ağıl və müşahidə yoluyla qavraya biləcəyi yaradılış gerçəyi, tarixin əvvəlindən bu yana din yolu ilə insanlara öyrədilmişdir. Bütün İlahi dinlər, Allahın bütün kainatı yoxdan, **"Ol"** əmri ilə yaratdığını və kainatdakı qüsursuz işləmənin Allahın üstün yaratma gücünün bir dəlili olduğunu bildirmişlər. Quranın bir çox ayəsində də bu həqiqət bizlərə bildirilmişdir. **Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!" – deyər, o da olar.** (Bəqərə surəsi, 117) ayəsi ilə kainatı yoxdan və möcüzəvi şəkildə yaratdığını bildirməkdədir. Ənam surəsində isə bu şəkildə buyurulmaqdadır:

Göyləri və yeri haqq olaraq xəlq edən Odur. O: "Ol!" – dediyi gün hər şey olar. Onun Sözü haqdır. Sur üfürüləcəyi gün hökm yalnız Ona məxsus olacaqdır. Qeybi və aşkarı Bilən də Odur. O, Müdrikdir, hər şeydən Xəbərdardır.

(Ənam surəsi, 73)

Dövrümüzdə elm, materialist-təkamülçü iddianın etibarsızlığını göstərməkdə və yaradılış həqiqətini təsdiqləməkdədir. Təkamül nəzəriyyəsinin iddiasının əksinə, ətrafımızı əhatə edən hər bir yaradılış dəlili kainatda təsadüfə əsla yer olmadığını bizlərə göstərməkdədir. Göylərin, yer üzünün və bütün canlı varlıqların araşdırılması ilə ortaya çıxan hər detal Allahın böyük güc və qüdrətinin bir dəlili xüsusiyyətindədir.

Materializm ilə Allah inancı arasındakı fikri ayrılıq, din ilə dinsizlik arasındakı ən fundamental fərqdir. Allah Quranda inkar edənlər üçün, **Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır?** (Tur surəsi, 35) buyuraraq, onların yaradılış qarşısındakı batil iddialarına diqqət çəkər. İnkarçılar, tarixin əvvəlindən bəri, kainatın və insanların **"yaradılmamış"** olduqları yalanını qarşıya qoymuş, bu axmaq iddianı öz ağıllarına görə məqbul göstərə bilmək üçün müxtəlif yollar axtarmışlar. 19-cu əsrdə Darvinin nəzəriyyəsi ilə də axtardıqları bu fəlsəfi dəstəyi tapmışlar. Bu mövzuda fikri **"razılaşma"** axtarmaq bir müsəlman üçün müzakirə olunacaq mövzu ola bilməz. Əlbəttə insanlar istədikləri kimi düşünə bilər, istədikləri nəzəriyyəyə

inana bilərlər, amma ortaya atılma səbəbi Allahı və yaradılışı inkar etmək olan bir nəzəriyyə ilə müsəlmanların **"barışması"** mümkün deyil. Bu, tamamilə boş səydir.

Necə ki, belə bir cəhdin müsəlmanlara öz ağıllarına görə zərər vermək mənasını daşıdığını bilən təkamülçülər, dindarları bu ortaq nöqtəyə gəlməyə məcbur etmək üçün çalışmaqdadırlar.

Təkamülü elmi nəzəriyyə zənn edərək öz ağıllarına görə müsəlmanlaşdırmağa çalışanlar səhv etməkdədirlər

Darvinizmlə elmi mübarizə etməkdən qaçan insanlardakı ortaq psixologiya darvinizmə qarşı hiss edilən bir növ əziklik duyğusudur. Təkamül nəzəriyyəsinin elmi tapıntılara əsaslandığı səhvinə qapılan kəslər, çarəsiz olduqlarını düşünürlər. Təkamülçülərin qarşıya qoyduqları iddiaların, doğruluğu isbat edilmiş məlumatlarla dəstəklənildiyini, bu səbəbdən özlərinin bunlara cavab vermələrinin demək olar qeyri-mümkün olduğunu zənn edərlər. Cavab vermələrinin mümkün olmadığını sandıqları üçün də, daha əvvəlcədən **"təslim olmağı"** qəbul edərlər.

Halbuki təkamül nəzəriyyəsinin elmi nəzəriyyə olduğu yanılması, bu mövzuda aparılan sıx təbliğatın bir məhsuludur. Televiziya xəbərlərində, qəzet və jurnal yazılarında həmişə, təkamülün isbat edilmiş, rədd edilməsi mümkün olmayan bir nəzəriyyə olduğu imici verilər. Təkamül nəzəriyyəsini müdafiə etmənin elmi müdafiə etmək olduğu, təkamülü rədd etmənin isə elmə qarşı gəlmək olduğu təəssüratı yaradılar. Ancaq elmi tapıntılar bu təbliğatın tam tərsini göstərməkdədir. Elm, təkamülü dəstəkləməməkdə tam tərsinə çürütməkdədir. Tərəfsiz olaraq elmi müdafiə edən bir insanın təkamülü müdafiə etməsi də əslində mümkün deyil. Təkamül nəzəriyyəsinin bu dərəcə gündəmdə tutulması, elmi nəzəriyyə olması səbəbiylə deyil, materializmin və dinsizliyin dayaq nöqtəsi olması səbəbiylədir. Digər bir deyişlə, təkamül təbliğatı elmi səbəblərlə deyil, ideoloji qayğılarla edilməkdədir.

Bəzi müsəlmanların şüuraltlarında *"Darvinizm ilə mübarizə etmənin qeyri-mümkün olduğunu"* düşünmələrinin təməlində də bu sıx təbliğatın təsiri vardır. Bu təbliğatlar nəticəsi, heç bir elmi dəlili olmadığı halda, təkamülə qarşı çıxmanın elmə qarşı çıxmaq olduğu fikri meydana gələr. Elmə qarşı çıxmamaq üçün də, elmi olduğu sanılan təkamül nəzəriyyəsiylə İslamiyyət arasında **"orta yol"** yaradılmağa çalışılar. Amma əslində bu, darvinizmlə fikri mübarizə etməkdən qaçınmaq üçün bir yol meydana gətirməkdir.

Halbuki darvinizmlə fikirlə, açıq və dəqiq bir şəkildə mübarizə etməkdən çəkinilməsi lazım olan heç bir məqam yoxdur. Elmin təkamülü isbat etdiyini sandıqları üçün, bu mövzu ilə yaxından maraqlandıqlarında özlərinin də bu təlqinlərin təsirində qalıb inanclarının sarsılacağından, dünya görüşlərinin dəyişəcəyindən qorxanların narahatlıqları yersizdir. Elm darvinizmi deyil, Yaradılışı göstərməkdədir. Darvinizmin qarşıya qoyduğu iddiaların hər biri, yüzlərlə elmi dəlillə çürüdülmüşdür. Müsəlmanların etməsi lazım olan, bu dəlilləri də istifadə edərək, darvinizmi fikirlə tam mənasıyla təsirsiz hala gətirməkdir.

Bəzi müsəlmanlar, şövqlə və həyəcanla darvinizmlə elmi mübarizə edəcəklərinə tamamilə spekulyativ üsullarla və ideoloji səbəblərlə edilən təkamül təbliğatlarını gözlərində böyüdüb, bununla bacara biləcəklərini zənn edərək, passiv və təslimiyyətçi bir yol mənimsəməkdədir.

Bu passiv və təslimiyyətçi davranışın ən çirkin nümunələrindən biri, daha əvvəl də ifadə etdiyimiz kimi, darvinizmi guya müsəlmanlaşdırmağa çalışmaqdır. Bu davranışları dəstəkləyə bilmək üçün də Şumer dövründən qalan bütpərəst inancları istifadə edərək, alim olaraq hesab etdikləri kəslərin sözlərini çatdırar və öz ağıllarına görə **"Din bunu izah edir"** mesajı verməyə çalışarlar. Halbuki bu açıq şəkildə, darvinizmlə fikri mübarizə etməkdən qaçınmaq üçün bir bəhanə üsuludur. Passiv, təslimiyyətçi mübarizənin çox çirkin bir istiqamətidir.

Bu kəslər, qorxub fikrən məğlub edə bilməyəcəklərini düşündükləri darvinizmə qarşı bu üsulu istifadə edərək, gizli məğlubanə mübarizə şəklini tətbiq etmiş olarlar. Halbuki Allaha ürəkdən inanan, Onun üstün gücünü təqdir edən bir müsəlman üçün bu mübarizə şəkli son dərəcə hörmətdən salıcıdır. Saleh bir müsəlmanın mübarizəsinin, passiv və məğlubanə olması mümkün deyil. **"Biz də eyni şeyi müdafiə edirik"** məntiqi ilə hərəkət edilsə darvinizmə etiraz etmək də mümkün ola bilməz. Müsəlmanın iman etdiyi həqiqət, hər şeyi Allahın yaratdığıdır. Bu səbəbdən bir müsəlmanın darvinistlər ilə eyni şeyi

müdafiə etməsi mümkün deyil. Müsəlman, darvinizmə qarşı açıq, qalibanə bir fikri mübarizə içində olmalıdır. Allahdan gərəyi kimi qorxan bir müsəlmanın, darvinizm ilə eyni fikri və ideologiyanı müdafiə etməsi mümkün deyil.

Darvinizm təhlükəsinin fərqinə vara bilməmiş, təkamül nəzəriyyəsinin Allah inancına qarşı mübarizəsini anlaya bilməmiş olan bu insanların, səhv üsullar tətbiq etmək yerinə bu mövzuda heç açıqlama etməmələri daha yaxşı olacaq. Fikri mübarizədən qorxu duyub, güc çatdıra bilmədikləri mövzularda səhv və ağılsız metodlara müraciət etmək səhv davranışdır. Darvinizm, ciddi şəkildə qarşı qoyulması və elmi baxımdan tamamilə ortadan qaldırılması, səhvlərinin izah edilməsi lazım olan böyük təhlükədir. Bu böyük təhlükənin fərqinə varmayaraq darvinizmə qarşı edilən fikri mübarizəyə maneə yaratmaq, böyük səhv və Allaha qarşı böyük məsuliyyətdir.

Təkamülçü yaradılış fikri darvinistlər tərəfindən təşviq edilməkdədir

Təkamül nəzəriyyəsini kor-koranə müdafiə edən elm adamları, elm sahəsində yaşanan irəliləmələr qarşısında hər keçən gün daha böyük bir çıxmaza girməkdədirlər. Çünki hər yeni inkişaf nəzəriyyələrinin əleyhinə olmaqda və yaradılış gerçəyini təsdiq etməkdədir. Bu səbəblə də təkamülçü ədəbiyyatda elmi dəlillər deyil, demaqoqluqlar daha çoxdur. Digər tərəfdən ən qabaqcıl təkamülçü elm jurnalları belə təkamül nəzəriyyəsinin çıxılmaz vəziyyətlərini etiraf etmək məcburiyyətində qalmaqdadırlar. Elmi mübahisələr yaradılışı müdafiə edən elm adamlarının qəti zəfərləriylə nəticələnməkdə, təkamülçülərin çarəsizliklərinə bütün dünya şahid olmaqdadır.

Məhz bu nöqtədə bir başqa səhv olan təkamüllü yaradılış yalanı, materialist kütlələrin sanki imdadına çatmaqdadır. Təkamülçülər, inanc sahibi kəslərin dəstəyini ala bilmək və onların təkamül nəzəriyyəsi qarşısında etdikləri fikri mübarizəni zəiflədə bilmək üçün, təkamüllü yaradılış yanılmasını əl altından dəstəkləyərək fərqli bir yol sınamaqdadırlar. Özləri Allaha inanmadıqları, təsadüfü ilahlaşdırdıqları (Allahı tənzih edərik), yaradılış həqiqətinə tamamilə qarşı olduqları halda, nəzəriyyələrinin qəbulunu

sürətləndirəcəyini düşündükləri üçün, bəzi kəslərin Allahın canlıları təkamüllə yaratdığı yalanına qarşı səssiz qalar, hətta çox vaxt bu fikri təşviq edərlər. Ancaq bu yalnız bir taktikadır. Təkamülçülər dinə və yaradılış həqiqətinə şiddətlə qarşıdırlar. Hətta yaradılış həqiqətinin əksəriyyət tərəfindən qəbul edilməsinə maneə törətmək üçün lazım olsa təkamül nəzəriyyəsi ilə yaradılış arasında bir uyğunlaşma varmış kimi göstərilə biləcəyini, bunun yaradılışı müdafiə edənlərin gücünü qıracağını iddia edərlər.

Bu vəziyyətdə Allahın bütün kainatın Yaradıcısı olduğuna iman edib, elmin ortaya qoyduğu həqiqətləri nəzərdən qaçıraraq təkamül nəzəriyyəsinə dəstək vermək, üstəlik Qurandakı açıq izahları görməzlikdən gələrək təkamülün Qurana uyğun olduğunu iddia etmək çox səhv yanaşmadır. Belə bir yanaşmanı mənimsəyən inanclı kəslər, əslində materialist fəlsəfə faydasına ortaya atılmış bir düşüncəyə dəstək verməkdə olduqlarını fərq etməli və bundan imtina etməlidirlər.

Təkamülü rədd etmənin elmi rədd etmək olduğunu düşünmə yanılması

Dövrümüzdə bütün canlıların təkamüllü müddət nəticəsində meydana gəldikləri yanılmasını müdafiə edən müsəlmanların sayı az hesab edilə bilməyəcək qədər çoxdur. Bunun səbəbi isə bu kəslərin məlumat əskiklikləri, səhv dünyagörüşləri və xüsusilə elmi mövzulardakı bəzi yanılmalarıdır. Bunların ən əvvəlində isə təkamül nəzəriyyəsinin elmi və sübut edilmiş bir həqiqət olduğu yanılması gəlir.

Halbuki bu kəslər qəti olaraq bilməlidirlər ki, təkamül nəzəriyyəsi dövrümüzün elmi inkişafları qarşısında bütün dayaqlarını itirmişdir. Gərək molekulyar səviyyədə, gərəksə biologiya və ya paleontologiya sahələrində edilən araşdırmalar canlıların təkamüllü müddət sonunda meydana gəldikləri istiqamətindəki iddiaları tamamilə etibarsız etmişdir. Elmi həqiqətlərə baxmayaraq təkamül nəzəriyyəsinin bu qədər gündəmdə tutulmasının altında yatan səbəb isə, təkamülçülərin etdikləri demaqoqluqlar, səhv örnəkləndirmələr, söz oyunları, istifadə etdikləri tərs məntiq hörgüləri və hətta

bəzən saxtakarlıqlarla xalqı yanıltmağa çalışmalarıdır. Təkamülçülərin, xalq tərəfindən aydın olmayan elmi terminləri qəsdən sıx olaraq istifadə etdikləri danışıq və yazıları analiz edildiyində, əslində nəzəriyyə lehinə heç bir dəlil önə sürə bilmədikləri görülər.

Darvinist nəşrlər diqqətlə araşdırıldığında bunu görmək mümkündür. Heç bir zaman konkret elmi dəlillərə söykənən bir izahat yoxdur. Təkamül nəzəriyyəsinin təməl çıxılmaz vəziyyətləri bir neçə cümlə ilə çatdırıla bilər, bundan başqa təbiət tarixi mövzusunda bir çox əfsanəvi ssenari yazılar. Darvinistlər, **"ilk canlılığın cansız maddələrdən necə meydana gəldiyi, fosil qeydlərindəki böyük boşluqlar, canlılardakı kompleks sistemlər"** kimi təməl mövzuların üzərində heç dayanmazlar. Çünki açıqlayacaqları hər detal məqsədlərinə tərs düşəcək və öz nəzəriyyələrinin çürüklüyünü gözlər önünə sərəcək.

Necə ki, nəzəriyyənin qurucusu olan Çarlz Darvin, canlılardakı kompleks sistemlərdən biri olan gözü düşündüyündə nəzəriyyəsindəki çıxılmaz vəziyyətləri fərq etmiş və **"gözü düşünmək məni nəzəriyyəmdən soyutdu"** şəklində etiraf etmişdir. Darvin kimi dövrümüzün təkamülçü elm adamları da kompleks sistemlərin təkamül nəzəriyyəsini böyük çıxılmaz vəziyyətə soxduğunu bilirlər. Ancaq bunları dilə gətirmək yerinə demaqoqluq etməyi, elmi dəlil yerinə ssenari yazaraq öz ağıllarına görə üstün gəlməyi və müxtəlif aldatmalarla təkamül nəzəriyyəsini elmi imiclə bəzəyərək insanlara söykəməyi seçərlər.

Bu üsulları, təkamülçülərlə yaradılış gerçəyini müdafiə edən kəslərin qarşı-qarşıya gəldikləri mübahisələrdə, təkamülçü yazılarda, ya da sənədli filmlərdə görmək mümkündür. Onsuz da təkamülçülərin də elm, ya da ağıl kimi narahatlıqları yoxdur. Onlar üçün əhəmiyyətli olan cəmiyyəti təkamülün elmi həqiqət olduğuna inandırmaq, bunun üçün də göz boyayıcı **"elmilik"** imici meydana gətirməkdir.

Məhz müsəlman təkamülçülər də təkamül nəzəriyyəsinin bu uydurma elmi görünüşündən təsirlənərlər. Xüsusilə də darvinistlərin istifadə etdikləri **"təkamül nəzəriyyəsinə inanmayan doqmatikdir"**, **"təkamül nəzəriyyəsinə inanmayan elmli deyil"** şəklindəki əsassız şüarlardan narahat olar və elmdən və inandıqları həqiqətlərdən güzəştə gedərlər. Aktuallıqdan uzaq məlumatların, təkamül təbliğat kitabçası halına gələn əsərlərin təsirində qalıb, təkamülün canlılığın meydana gəlməsini açıqlaya bilən tək nəzəriyyə olduğunu sanarlar. Elm dünyasında yaşanan inkişafları, təkamül nəzəriyyəsindəki

ziddiyyətləri və bu nəzəriyyənin iddialarının bütün etibarlılığını itirdiyini bilmədiklərindən, ya da görməməzlikdən gəldiklərindən öz ağıllarına görə din ilə təkamülü uyğunlaşdırmağa çalışarlar.

Həqiqətdə isə təkamül və yaradılış bir-birinin ziddidir. Təkamül nəzəriyyəsinin etibarsızlığının ortaya qoyulması, yaradılış həqiqətini qəbul etməyi zəruri edər.

Bu səbəblədir ki, təkamül nəzəriyyəsi ilə əlaqədar mübahisələr, materialistlər üçün bir növ **"mübarizə sahəsi"** vəziyyətindədir. Mövzu ilə əlaqədar mübahisələri elmi yanaşma ilə qiymətləndirməz, birbaşa ideoloji mübarizə olaraq görərlər. Yaradılışı müdafiə edənləri maneə törədə bilmək üçün hər cür üsula müraciət edərlər.

Təkamül nəzəriyyəsini müdafiə edən müsəlmanların, bu fikri mübarizənin fərqinə varmaları lazımdır. Darvinizm, hər hansı elmi tezis deyil, insanlara Allahı inkar etdirmək üçün hazırlanan və müdafiə olunan bir düşüncə sistemidir. Elmi heç bir dayağı olmamasına baxmayaraq, sırf tərəfdarlarının təbliğatlarına aldanaraq bu nəzəriyyəni mənimsəmək, bir müsəlmanın əsla düşməməsi lazım olan bir yanılmadır.

Elm təkamülün etibarsızlığını ortaya qoymuşdur. Bu həqiqəti göstərən əsərlər, sənədlər, konfranslar, sərgilərlə xalqımız tam mənasıyla şüurlanmış, həqiqəti görmüşdür. Günəş bir dəfə doğulmuşdur. Bəzi kəslər öz ağıllarına görə təbliğatlarla və nağıllarla Günəşin doğulduğunu gizlətmək istəsələr də, bu doğuşu geri çevirmələri mümkün deyil. Xalqımız restoranlarda, əczaxanalarda, ticarət mərkəzlərində fosilləri öz gözləri ilə görüb araşdırmış, təkamülün yaşanmadığına şəxsən şahidlik etmişdir. Bundan sonra darvinistlər istədikləri hekayələri izah etsinlər, istədikləri qədər arasız təbliğat etsinlər, istədikləri qədər təzyiq meydana gətirməyə çalışsınlar, təkamülə dəstək olmaları mümkün deyil. Təkamül çökmüşdür, darvinizm ölmüşdür. Əsrimiz, darvinizmin cənazəsinin qaldırılması dövrüdür. Təkamülçülərə tövsiyəmiz, bihudə səyləri bir tərəfə buraxıb, ağılla və məntiqlə davranıb, elmi məlumatları əhəmiyyətsiz etməyib, darvinizmin yox olduğunu qəbul etmələridir.

Təkamülçülərin çox olmasından təsirlənmələri

Təkamülçülərin, insanları öz tərəflərinə çəkmək üçün istifadə etdikləri təbliğat üsullarının önündə **"nəzəriyyə, elm dünyasının ümumisi tərəfindən qəbul edilməkdədir"** aldatması gəlir. Bir başqa ifadə ilə, təkamülçülər ətraflarındakı insanlara, özlərinin daim çox olduqları və əksəriyyətin də hər zaman haqlı olduğu istiqamətində təlqinlər edirlər. **"Bu qədər insan təkamülü müdafiə etdiyinə, universitetlərdə təkamülə inananlar çoxluq təşkil etdiyinə görə nəzəriyyə doğrudur"** məntiqi ilə, kütlələr üzərində (inanclı insanlar üzərində də) psixoloji təzyiq meydana gətirməyə çalışarlar.

Təkamülçülərin bu təbliğat üsulunun səhvi də bir təkamülçü olan Boğaziçi Universiteti sabiq fəlsəfə professoru mərhum Arda Denkel tərəfindən bu şəkildə dilə gətirilmişdir:

"Təkamül qaydasını, çox saydakı hörmətli adamın, quruluşun təkamülçülüyü mənimsəmiş olmasımı sübut edəcək? Yoxsa məhkəmə qərarlarıyla doğru qılınacaq bu qayda? Doğruluğu təmin edən şey, hörmətli və səlahiyyət sahibi kəslər tərəfindən doğru olduğu qəbul edilməsidir görəsən? Bir tarixi faktı xatırlatmaq istəyərəm. Qalileo Qaliley, dövrünün bütün hörmətli şəxslərinə, hüquqçularına və xüsusilə də elm adamlarına qarşı tək başına qarşı çıxıb doğru olanı söyləyib və müdafiə etmirdi? Engizisyon məhkəmələrinin o biri hərəkətləri də, ortaya buna bənzər görüntülər qoymamışdi? Cəmiyyətdə hörmətli və dominant olan kütlələrin arxasına sığınmaq, nə düzgünlük yaradan, nə də elmlə birbaşa əlaqədar olan bir şeydir."[1]

Arda Denkelin də diqqət çəkdiyi kimi, bir nəzəriyyənin yayılması, onun doğruluğuna dair bir dəlil deyil. Elm tarixi, ilk əvvəl azlıq tərəfindən qəbul edilən, ancaq doğruluğu sonradan hər kəs tərəfindən aydın olan həqiqətlərlə doludur.

Mövzunun bir başqa istiqaməti isə, bu gün təkamül nəzəriyyəsinin sanıldığı kimi **"bütün elm dünyası tərəfindən qəbul edilən bir nəzəriyyə"** olmamasıdır. Son 20-30 il içində, təkamül nəzəriyyəsini rədd edən elm adamlarının sayı sürətlə artmaqdadır. Bunların çoxu kainatdakı və canlılardakı qüsursuzluğu görərək, Darvinizm doqmasından özlərini qurtarmaqdadırlar. Bu elm adamlarının təkamülün etibarsızlığını ortaya qoyan saysız çalışması vardır. Hər biri başda Avropa və Amerika olmaq üzrə, dünyanın müxtəlif ölkələrindəki qabaqcıl universitetlərə mənsub olan bu kəslər, biologiya, biokimya, mikrobiologiya, anatomiya, paleontologiya kimi elm sahələrində mütəxəssis olub, karyeri sahibi alimlərdir. (Ətraflı məlumat üçün baxın: Qərb dünyası Allaha yönəlir, Harun Yəhya, Quran elmə yol göstərər, Harun Yəhya) Bu səbəbdən elm dünyasının əksəriyyətinin təkamülə inandığı şəklində bir ümumiləşdirmə etmək son dərəcə səhv olar.

Qaldı ki, əvvəl də ifadə etdiyimiz kimi, əgər həqiqətən təkamülçülər çox olsalar belə, bunun bir dəyəri olmaz. Əksəriyyətin sahib olduğu anlayışı **"mütləq doğrudur"** deyə qəbul etmək doğru olmaz. Bu həqiqətin təkamül nəzəriyyəsini qəbul edən müsəlmanlar tərəfindən də bilinməsi lazımdır. Quranda bildirildiyi kimi, tarixdəki bir çox inkarçı birlik Allahı və dinini inkar etmək üçün özlərinin əksəriyyətdə olduqlarını söyləyərək, insanları haqq yoldan çevirməyə çalışmışlar.

Allah, bu tərs məntiqə qarşı iman edənləri xəbərdar etməkdə və əksəriyyətə uyğun gəlmənin insanları böyük aldatmaya sürüyə biləcəyini belə bildirməkdədir:

Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar. (Ənam surəsi, 116)

II HİSSƏ:
MÜSƏLMAN TƏKAMÜLÇÜLƏRİN NƏZƏRDƏN QAÇIRDIQLARI ƏHƏMİYYƏTLİ HƏQİQƏTLƏR

Əvvəlki hissədə bəzi Müsəlmanların, təkamülçülərin təlqinləri altında qaldıqlarından və elmi inkişaflardan xəbərdar olmadıqları üçün təkamül nəzəriyyəsini elmi həqiqət sandıqlarından bəhs etdik. Məhz bu məlumat əskikliyi şəxslərin təkamül nəzəriyyəsi ilə əlaqədar çoxlu həqiqəti əhəmiyyətsiz etmələrinə səbəb olar. Təkamül nəzəriyyəsinin bütpərəst anlayış olduğunu, təsadüfləri və təbiət hadisələrini sanki ilah kimi göstərdiyini (Allahı tənzih edərik), nəzəriyyənin qurucusu olan Çarlz Darvinin dinsiz şəxsiyyətini və təkamül nəzəriyyəsinin səbəb olduğu zülmü, qarışıqlığı, müharibələri və digər bəlaları görməməzlikdən gələrlər.

Bu hissədə müsəlman təkamülçülərin nəzərəalmadıqları bu həqiqət üzərində dayanılacaq və bu şəxslər materialist-ateist düşüncəyə dəstək təmin edən bütpərəst anlayışı müdafiə etməkdən bir an əvvəl imtina etməyə dəvət ediləcəklər.

Təkamül düşüncəsi qədim Yunandan gələn bütpərəst inancdır

Təkamül nəzəriyyəsi, bu nəzəriyyəni müdafiə edənlərin iddia etdikləri kimi elmi nəzəriyyə deyil, bütpərəst (paqan) inancdır. İlk olaraq Misir, Babil və Şumer kimi miladdan əvvəl yaşamış cəmiyyətlərin batil dinlərində rast gəlinən təkamül fikri, buradan qədim Yunan cəmiyyətindəki filosoflara keçmişdir. Bütpərəst şumerlərin kitabələrində, yaradılışı inkar edən və canlıların guya

"başıboş zaman nəticəsində pilləli şəkildə meydana gəldiyini" iddia edən ifadələrə rast gəlinər. Şumerlərin batil inancına görə **"canlılıq, cansız su xaosundan özbaşına meydana gəlmişdir."** Misirlilər də öz batil dinlərinin gərəyi olaraq **"ilan, qurbağa, soxulcan və siçanların, su basqınlarıyla daşan Nil çayının palçıqlarından meydana gəldiklərinə"** inanırdılar. Şumerlərin etdiyi kimi misirlilər də bir Yaradıcının varlığını inkar edir və **"canlıların təsadüflər nəticəsində palçıqdan"** meydana gəldiyini düşünürdülər.

Miletli yunan filosoflarından Empedokles, Thales və Anaksimenderesin ən əhəmiyyətli iddiaları da yenə ilk canlıların cansız maddələrdən (hava, atəş, su kimi) özbaşına meydana gəldiyi idi. Bu batil inanca görə ilk canlılar suda birdən-birə meydana gəlmiş, daha sonra sudakı bu canlılardan bəziləri suyu tərk etmiş və quruya uyğunlaşaraq orada yaşamağa başlamışlardı. Miletli filosof Thales də bütün həyatın mənşəyinin **"su"** olduğuna inanırdı. Sudan yola çıxaraq bitkilərin, heyvanların inkişaf etdiyini və ən sonunda da insanın meydana gəldiyini söyləyirdi.[2]

Anaksimenderes **"insan balıqdan çıxmışdır"** deyir və digər filosoflar kimi heyvanların sudan çıxdığı yalanını müdafiə edirdi.[3] Xüsusilə Anaksimenderesin **"Təbiət"** adını daşıyan klassik şeiri təkamül nəzəriyyəsinin izah edildiyi ilk yazılı əsər idi. Anaksimenderes bu şeirində heyvanların günəş işığıyla buxarlaşan bir palçıqdan meydana gəldiyini yazmışdı. Anaksimenderesin səhv düşüncələrinə görə ilk heyvanlar tikanlı və pulcuqlu qabıqlara sahib idi və dənizlərdə yaşayırdılar. Guya bu balığa bənzəyən varlıqlar daha sonra dəyişimə məruz qalmış, quruya keçərək pulcuqlu qabıqlarını tökmüş və insana çevrilmişlərdi.[4] (Ətraflı məlumat üçün baxın: Darvinizm dini, Harun Yəhya) Anaksimenderesin bu məntiqdən kənar nəzəriyyəsi, dövrümüzdəki təkamül nəzəriyyəsinin ilk təməli olaraq düşünülə bilər. Necə ki, Darvinin təkamül nəzəriyyəsiylə Anaksimenderesinki arasında çox böyük bənzərliklər var.

Empedokles isə özündən əvvəlki yanılmaları birləşdirib, təməl elementlər olaraq su, atəş, hava və torpağı mənimsəmişdi. Bu elementlərin bir yerə gələrək bədənləri meydana gətirdiklərini düşünmüşdü. İnsanın bitki həyatından inkişaf etmiş olduğuna və bu müddətin reallaşmasında tək məsul faktorun təsadüf olduğu xəyalinə inanmışdı.[5] Beləcə təkamül nəzəriyyəsinin təməl dayağı olan **"təsadüf"** anlayışı da dilə gətirilmiş olurdu.

Eyni dövrlərdə Heraklitos isə bir başqa həqiqətdən kənar düşüncə qarşıya qoymuş, öz ağlına görə **"kainatın davamlı olaraq dəyişdiyini, bu səbəblə də kainatın başlanğıcındakı əfsanəvi hərəkəti sorğulamanın mənasız**

bir şey olduğunu” ifadə etmiş, kainatın bir başlanğıcı və ya sonu olmadığını, yalnız var olduğunu müdafiə etmişdi.[6] Qısacası, təkamül nəzəriyyəsinin mənşəyindəki materialist inanc, qədim Yunanda da eyni şəkildə vardı.

Özbaşına meydana gəlmə səhvi də başda Aristo olmaq üzrə bir çox yunanlı filosof tərəfindən dəstəklənirdi. Bu batil düşüncəyə görə heyvanlar, xüsusilə də bəzi qurdlar, böcəklər və bəzi bitkilər, döllənmə və ya bənzər çoxalma tərzinə ehtiyac duymadan, təbiətdə öz-özlərinə meydana gəlirdilər. Aristonun təbiət elmləriylə əlaqədar düşüncəsi üzərinə çalışmaları ilə tanınan Marquat da belə demişdi:

“Aristo, başqa heç bir izah forması tapa bilmədiyi bəzi hadisələrin izahı üçün, spontane meydana gəlməsi (cansız maddələrin bir yerə gəlib birdən canlı varlıq meydana gətirmələri) qəbul etdiyi ölçüdə yer üzündə həyatın mənşəyi ilə məşğul olmuşdur.”[7]

Diqqətli baxıldığı zaman keçmiş dövrlərin təkamülçü mütəfəkkirləri ilə dövrümüz təkamülçülərinin fikirləri arasında çox böyük bənzərliklər olduğu görülər. Kainatın başı və sonu olmadığı istiqamətindəki materialist düşüncənin və canlıların təsadüflər nəticəsində meydana gəldiyini iddia edən təkamülçü düşüncənin mənşələrini bütpərəst şumer mədəniyyətində, ya da materialist Yunan mütəfəkkirlərində tapmaq mümkündür. Canlılığın sudan və primitiv palçıq adı verilən bir qarışıqdan təsadüfən meydana gəldiyi və hətta təsadüflərin, canlıların meydana gəlməsinin tək faktoru olduğu aldatması, aralarında əsrlər olan bu iki inancın təməlini meydana gətirməkdədir.

Məhz müsəlman təkamülçülərin dəstək verdikləri təkamül nəzəriyyəsinin mənşəyi bu qədər qədimlərə qədər uzanan batil anlayışdır. Materialist düşüncələrlə ortaya atılmışdır və bütpərəst mənaları ehtiva etməkdədir.

Əslində təkamül yalnız Şumerlərdə, ya da qədim Yunan mütəfəkkirlərində rast gəlinən batil inanış deyil. Qaynağı qədim Yunan olmaqla birlikdə indiki vaxtda Konfutsiçilik, Taoizm kimi bütün batil dinlərin

təməlində təkamül inancının olduğu bilinməkdədir. Bu da təkamül nəzəriyyəsinin, İslam inancıyla tamamilə zidd, batil bir inanış olduğu həqiqətini təsdiqləməkdədir.

Tarixi tapıntılara baxmayaraq təkamülü müdafiə edən və **"Yaradılışçı təkamül nəzəriyyəsi"**nin Quran ayələri ilə dəstəklənildiyi yanılmasını qarşıya qoyan bəzi müsəlman təkamülçülər, təkamül fikrinin qaynağını da öz ağıllarına görə yenə İslam dünyasına aid etməyə çalışmaqdadırlar. Bu iddiaya görə ilk təkamülçü alim müsəlman mütəfəkkirlərdən çıxmışdır və bu mütəfəkkirlərin əsərlərinin xarici dillərə çevrilməsi qərb dünyasında təkamül düşüncəsini meydana gətirmişdir. Halbuki yunanlı mütəfəkkirlərin təkamül nəzəriyyəsinə aid fikirlərindən verilən bu bir neçə nümunə belə təkamül nəzəriyyəsinin qədim paqan cəmiyyətlərindən qalma primitiv inanc olduğunu açıq şəkildə gözlər önünə sərməkdədir.

Həqiqətlər bu qədər açıq və həm elmi, həm də tarixi tapıntılarla sabit ikən, materialist təməllər üzərinə qurulmuş olan təkamülçü düşüncəni müsəlmanlara aid etməyə çalışmaq böyük səhv olar.

Təkamül nəzəriyyəsinin təsadüf iddiası yaradılış həqiqəti ilə ziddiyyət təşkil edər

Təkamül nəzəriyyəsinin yaradılış ilə ziddiyyət təşkil etmədiyini irəli sürənlərin yanıldıqları və nəzərdən qaçırdıqları çox əhəmiyyətli nöqtə vardır: Bu kütlələr, darvinizmin əsas iddiasının, **"canlı növləri bir-birlərindən təkamülləşərək ortaya çıxdı"** tezisi olduğunu düşünürlər. Halbuki təkamülçülərin əsas iddiaları bu deyil. Daha əvvəl də ifadə etdiyimiz kimi, təkamülçülər, **"canlılığın təsadüflər nəticəsində, şüursuz mexanizmlərlə ortaya çıxdığını"** iddia edərlər. Bu elmdən kənar iddialarına görə isə yer üzündəki canlılıq **"bir Yaradıcı olmadan, cansız maddələrdən öz-özünə"** meydana gəlmişdir.

Bəhs etdiyimiz iddia bir Yaradıcının varlığını daha ən başdan rədd etməkdədir və bu səbəblə inanclı insanlar tərəfindən qəti olaraq qəbul edilə bilməz. Ancaq bəzi müsəlmanlar bunun tam olaraq fərqində olmadıqları üçün

“Allah canlıları bir-birlərindən təkamülləşdirərək yaratmış ola bilər” səhvinə qapılmaqda və təkamülü müdafiə etməkdə özlərinə görə narahatçılıq görməməkdədirlər.

Lakin burada çox əhəmiyyətli təhlükəni nəzərdən qaçırmaqdadırlar. Unudulmamalıdır ki, əsla doğru olmamasına baxmayaraq, **“təkamüllə din uyğundur”** kimi göstərilməyə çalışıldığında bəzi inanclı insanlar, əslində qəbul edilməsi tamamilə qeyri-mümkün olan bu fikrə dəstək vermiş, onu təsdiq etmiş olarlar. Təkamülçülər isə, fikirlərini cəmiyyətə daha asan qəbul etdirmələrini təmin etdiyi üçün bu vəziyyətə göz yumarlar.

Mövzuya saleh bir müsəlman olaraq baxıldığında və Quran ayələri istiqamətində düşünüldüyündə, təməlində **“təsadüf”** inancının yatdığı bir nəzəriyyə ilə İslam dininin arasında ortaq bir nöqtə ola bilməyəcəyi açıqdır. Təkamül nəzəriyyəsi, təsadüfləri, zamanı və cansız maddələri ilah olaraq qəbul edib, bu gücsüz, şüursuz varlıq və anlayışlara yaradıcılıq sifətini verməkdədir. (Allahı tənzih edərik.) Bir müsəlman bu cür bütpərəst təməllərə söykənən nəzəriyyəyə əsla sahib çıxmaz. İnanclı insan, tək Yaradıcı olan Allahın hər şeyi yoxdan var etdiyinə iman edər və bu həqiqətə qarşı gələn hər cür fikir və inanc ilə elm və ağıl yoluyla mübarizə edər.

Təkamül nəzəriyyəsi materializmin bir hissəsidir və materializmin azğın iddiasına görə kainatın başı və qısaca bir Yaradıcısı yoxdur. Bu din əxlaqına uyğun olmayan ideologiyaya görə, kainat; qalaktikalar, ulduzlar, planetlər, Günəş, digər göy cisimləri və onların sahib olduqları qüsursuz sistemlər və bütün bunların bir-birləri ilə olan mükəmməl uyğunlaşmaları tamamilə təsadüflərin əsəridir. Eyni şəkildə təkamül nəzəriyyəsinin yanılmalarına görə, canlılığın təməl daşı olan ilk zülal və ilk canlı hüceyrə də bəzi kor təsadüflərin təsiri ilə özbaşına meydana gəlmişdir. Yer üzündəki, dənizlərdəki və göylərdəki canlıların bədənlərindəki mükəmməllik də yenə təsadüflərin əsəridir.

Yaradılışa aid dəlillər, öz bədənləri başda olmaq üzrə, ətraflarını əhatə etmişkən təkamülçülər bu böyük həqiqəti görməməzlikdən gələr və bütün bu mükəmməllikləri başıboş təsadüflərə, şüursuz müddətlərə bağlamağa çalışarlar. Bu səbəbdən daha əvvəl də ifadə etdiyimiz kimi, təkamülçülərin əsas xüsusiyyəti təsadüfləri ilahlaşdırmaları və Allahın varlığını rədd etmələridir. Ancaq bir kimsə Allahın açıq-aşkar varlığını və böyüklüyünü qəbul etməsə də, ya da bunu görməməkdə müqavimət göstərsə də bu heç bir şeyi dəyişdirməz.

Allahın sonsuz elmi və bənzərsiz sənəti, yaratdığı hər şeydə özünü göstərməkdədir.

Necə ki, 21-ci əsrdə əldə edilən elmi tapıntılar da təkamülçülərin **"canlılıq təsadüflərlə və təbii faktorlarla öz-özünə meydana gəldi"** istiqamətindəki əsassız iddialarını qəti olaraq rədd etməkdədir. Canlılıqdakı bu qüsursuzluq, bütün canlıları üstün ağıl və elmlə yaradanın Allah olduğunu göstərər. Ən sadə olaraq bilinən canlıların belə sadələşdirilə bilməz kompleksliyə sahib olmaları, təkamülü müdafiə edənləri qəti olaraq çıxılmaz vəziyyətə salmaqdadır. Necə ki, təkamülçülərin şəxsən özləri də bu həqiqəti tez-tez etiraf etməkdədirlər. Məsələn İngilis riyaziyyatçısı və astronomu Prof. Fred Hoyle, təkamülçü olmasına baxmayaraq, canlılığın təsadüfən meydana gəlməsinin qeyri-mümkün olduğunu belə etiraf edər:

"Hər şeydən əvvəl canlılığın təsadüflər nəticəsində meydana gəlməsi ehtimalı o qədər kiçikdir ki, bu iddianı qəbul etmək məntiqdən kənardır."[8]

Təkamülçü Pierre-Paul Grassé isə, təsadüflərin yaradıcı gücü olduğuna inanmanın xəyalpərəstlik olduğunu belə qəbul edər:

"Darvinizmə görə, tək bir bitki, tək bir heyvan, tam olması lazım olduğu şəkildə yüzlərlə və minlərlə faydalı təsadüflərə məruz qalmalıdır. Yəni möcüzələr sıravi qayda halına gəlməli, inanılmaz dərəcədə aşağı ehtimallara sahib hadisələr asanlıqla reallaşmalıdır. Xəyal qurmağı qadağan edən bir qanun yoxdur, amma elm bu işin içinə daxil edilməməlidir."[9]

Təkamülçülərin, ideologiyaları üçün düşdükləri vəziyyət bu sözlərdə yaxşı diqqətə çarpır. Çünki nəzəriyyələrinin çıxmazda olduğunu və elmdən

kənarlığını gördükləri halda yalnız ideoloji vəsvəsələri səbəbiylə təkamül nəzəriyyəsindən imtina etməməkdədirlər. Fred Hoyle bir başqa açıqlamasında, təkamülçülərin **"təsadüfə"** inanmalarının səbəbini belə açıqlayar:

"Əslində, həyatın ağıl sahibi bir varlıq tərəfindən meydana gətirildiyi o qədər açıqdır ki, insan bu açıq həqiqətin niyə geniş şəkildə qəbul edilmədiyi ilə maraqlanmaqdadır. Bunun (qəbul edilməməsinin) səbəbi, elmi deyil, psixolojidir."[10]

Fred Hoylenin psixoloji dediyi səbəb, daha əvvəl də danışıldığı kimi, təkamülçülərin yaradılışı inkar etməyə şərtlənmiş olmalarıdır. Bütün bunlar, bəzi müsəlmanların, təkamül nəzəriyyəsinin Allahı inkar etmək üçün müdafiə olunan bir fikir olduğunu görmələri üçün yetərli dəlillərdir.

Təbii seleksiya və mutasiyaların təkamülləşdirici gücü yoxdur

Təkamülçü müsəlmanların nəzərdən qaçırdıqları ən əhəmiyyətli həqiqətlərdən biri, daha əvvəl də vurğuladığımız kimi, təkamül nəzəriyyəsinin təməl iddialarının belə elm qarşısında bütün etibarlılığını itirmiş olmasıdır. Üstəlik təkamül nəzəriyyəsinin çıxılmaz vəziyyətləri daha ilk canlılığın meydana gəlməsi mərhələsində ortaya çıxmaqdadır.

Nəzəriyyə, təbiətdəki 1,5 milyona yaxın canlı növünün şüursuz təbiət hadisələri nəticəsində ortaya çıxdıqları iddiasındadır. Təkamülçülərə görə, əvvəl cansız maddənin içində kimyəvi reaksiyalarla canlı hüceyrə meydana gəlmişdir. *(Belə bir çevrilmənin reallaşa bilməyəcəyini göstərən bir çox elmi dəlil olduğunu xatırladaq. Araşdırmaçılar, primitiv yer atmosferində olduğu təyin olunan qazlarla yenə o atmosferdəki şərtləri bir yerə gətirərək apardıqları təcrübələrdə canlılığın ən kiçik təməl daşlarını belə əldə edə bilməmişlər.)*

Canlı bir orqanizmin meydana gəlməsi zəmanəmizin texnologiya və elm səviyyəsi ilə hər cür şüurlu müdaxiləyə baxmayaraq bacarıla bilməzkən, kor təsadüflərin bunu bacardığını iddia etmənin əlbəttə ki, ağıl və məntiqlə uyğun gələn bir yönü yoxdur.

Yenə təkamülçülərin yanılmalarına görə, bu ilk hüceyrə ilə başlayan həyat gedərək daha kompleks hala gəlmiş və fərqliləşmişdir; bakteriyalarla başlayan uydurma **"təkamül müddəti"**, ən sonunda insanı meydana gətirmişdir. Qısacası bu ağıl və məntiqdən kənar iddiaya görə, təbiətdəki bəzi şüursuz mexanizmlərin canlıları davamlı olaraq inkişaf etdirmiş olmaları lazımdır. Məsələn bir bakteriyada təxminən 2000 fərqli zülalın genetik məlumatı olar. İnsanda isə bu rəqəm təxminən 30 mindir yəni şüursuz bir mexanizm, minlərlə yeni zülalın genetik məlumatını zaman ərzində çıxarmış olmalıdır.

Təkamülün iddiası budur. Yaxşı amma təbiətdə canlıların genetik məlumatını inkişaf etdirən bir mexanizm həqiqətən vardır?

Bu gün təkamül nəzəriyyəsi olaraq adlandırdığımız Neo-Darvinist model, bu nöqtədə iki xəyali mexanizm qarşıya qoyar: Təbii seleksiya və mutasiya.

Təbii seleksiya təbii seçmə deməkdir. Buna görə həyat mübarizəsi içində güclü olanlar və təbii şərtlərə uyğunlaşa bilənlər həyatda qalarlar, digərləri isə ələnilərək yox olarlar. Məsələn bir bölgədə hava şərtlərinin dəyişərək istinin gedərək düşməsi, o bölgədə yaşayan heyvan populyasiyaları içində soyuğa dözümsüz olan fərdlərin ayırd edilməsi mənasını verər.

Uzun zamanda yalnız soyuğa dayanıqlı olan fərdlər həyatda qalar və populyasiyanın hamısı bunlardan meydana gələr. Və ya vaşaqların hücum təhdidi altında yaşayan dovşanlardan ətrafa ən yaxşı uyğunlaşanlar və ya ən sürətli qaçanlar həyatda qalar və xüsusiyyətlərini bir sonrakı nəsilə köçürərlər. Amma diqqət yetirilsə burada yeni bir xüsusiyyət ortaya çıxmamaqda, mövcud heyvanlar fərqli bir növə çevrilməməkdə, fərqli bir xüsusiyyət qazanmamaqdadırlar. Bu səbəbdən təbii seleksiya mexanizmi təkamülləşdirici xüsusiyyətə sahib deyil.

Bu vəziyyətdə təkamülçülərin əlində geriyə yalnız mutasiya qalar. Təkamül nəzəriyyəsinin iddiasının qəbul edilə bilməsi üçün, mutasiyaların canlıların genetik məlumatını inkişaf etdirmələri lazımdır.

Mutasiya, canlıların genlərində radiasiya kimi xarici təsirlər, ya da DNT-dəki köçürülmə səhvləri nəticəsində yaranan pozulmalardır. Mutasiyalar əlbəttə ki, dəyişikliyə səbəb ola bilər, ancaq bu dəyişikliklər heç bir zaman müsbət istiqamətdə olmaz, həmişə pozucu xüsusiyyətdədir. Digər bir ifadə ilə mutasiyalar canlıları inkişaf etdirə bilməz, əksinə hər zaman üçün canlılara zərər verərlər. Bu günə qədər hər hansı bir orqanizmə fayda vermiş hər hansı mutasiya təsbit edilməmişdir. Üstəlik, darvinistlərin iddiasına görə, mutasiya, bədənin hər yerində mütənasib və bir-birinə uyğun dəyişikliklər etmək məcburiyyətindədir.

Məsələn təkamülçülərin iddiasına görə təsadüfi mutasiyalarla sağ tərəfdə iddia etdikləri şəkildə qulaq meydana gəldisə, sol tərəfdə də təsadüfi mutasiyaların eyni simmetriyada eyni şəkildə eşidən, eyni xüsusiyyətlərə sahib ikinci bir qulağı meydana gətirməsi lazımdır. Zindan, çəkic, üzəngi sümüklərinin hər birinin eyni şəkildə mükəmməl olaraq və bərabər şəkildə meydana gəlməsi lazımdır. Eyni vəziyyət ürək üçün də etibarlıdır. Darvinistlərin iddiasına görə mütləq mutasiyaların bütün qapaqcıqları, qulaqcıqları bərabər uyğunlaşmada, səhvsiz, tam yerli yerində və eyni anda meydana gətirməsi lazımdır. Bədənin hər bir orqanında bunun bu şəkildə olması şərtdir.

Yoxsa böyük ziddiyyətlərin olması və bir qulağı tərs, bir dişi fərqli, tək gözü alnında, tək gözü burnunda qəribə quruluşların meydana gəlməsi lazımdır. Canlılıqda belə bir qeyri-stabillik yoxdur. Darvinistlərin iddiasına görə mutasiyaların hər şeyi simmetrik və uyğun şəkildə meydana gətirməsi lazımdır. Lakin 99%-i zərərli, 1%-i təsirsiz mutasiyaların faydalı olması; məntiqlə, uyğun və simmetrik orqanları eyni anda meydana gətirə bilmələri qeyri-mümkündür. Qısacası, mutasiyalar düzgün bir quruluşa sanki pulemyotla atəş etmək kimidir. Möhkəm bir quruluşun üzərinə atəş açılması o quruluşu tamamilə ortadan qaldırar. Tək birinin təsirsiz qalması və ya bədəndəki mövcud bir infeksiyanı yandıraraq yaxşılaşdırması bir şeyi dəyişdirməməkdədir. Orqanizm onsuz da özünə isabət edən 99 güllə ilə yerlə bir olmuşdur.

20-ci əsrdə ən çox elmi inkişaf göstərən elm sahələrindən biri genetikadır. Canlılarda müşahidə edilən genetik xəstəliklərin inkişaf edən elm işığında araşdırılması nəticəsində, mutasiyaların təkamül müdafiəçilərinin iddia etdikləri kimi təkamülə qatqı təmin edəcək bioloji dəyişikliklər olmadıqları ortaya çıxmışdır. Xüsusilə genetika elminin irəliləməsi nəticəsində

mutasiyalar nəticəsində meydana gəlmiş olan 4500-ə yaxın genetik xəstəlik təyin olunmuşdur. Daha əvvəldən **"irsi"** olduğu düşünülən bir çox xəstəliyin bu gün bir çox fərqli növ mutasiya nəticəsində meydana gəldiyi bilinməkdədir.

Mutasiyaların irsi baxımdan mənalı ola bilmələri üçün mütləq çoxalma orqanlarında (kişilərdə sperma hüceyrələri, qadınlarda yumurta) reallaşmaları lazımdır. Ancaq bu şəkildə yaranan genetik dəyişiklik bir sonrakı nəsilə çatdırıla bilər. Bir çox genetik xəstəliyin səbəbi də bu hüceyrələrdə meydana gələn bu tip dəyişikliklərdir. Bədənin qaraciyər, beyin kimi digər orqanlarında yaranan mutasiyalar isə bir sonrakı nəsilə ötürülə bilməz. Bu tip genetik dəyişikliklərə **"somatik mutasiyalar"** deyilir və bir çox xərçəng növünün də səbəbi hüceyrə DNT-lərində yaranan bu pozulmalardır.

Mutasiyaların canlılarda edə bildikləri ziyanlara verilə biləcək ən yaxşı nümunələrdən biri xərçəngdir. **"Kanserogen"** olaraq adlandırılan kimyəvi maddələr və ultra bənövşəyi şüaları kimi bir çox faktor, əslində **"mutajen"**, yəni mutasiya meydana gətirici faktorlardır. Son illərdə xüsusilə xərçəng meydana gəlməsində təsirli olan **"onkojen"** və **"şişə maneə törədici"** genlərin kəşf edilməsindən sonra, xərçəng meydana gətirən mutasiyaların mexanizmi aydın olmuşdur. Bəhs edilən bu iki gen də hüceyrələrin çoxalması və bədənin özünü yeniləyə bilməsi üçün lazımlıdırlar. Ancaq bunlardan birinin mutasiyalarla zərər görməsi nəticəsində, hüceyrələr idarəsiz olaraq böyüyərlər və xərçəng meydana gəlməsi başlayar. Bu vəziyyət bir avtomobilin qaz pedalının kilidlənməsi və ya əyləcinin pozulmasına bənzədilə bilər. Hər iki vəziyyətdə də avtomobilin qəza etməsi qaçınılmazdır. Eyni şəkildə idarəsiz bir hüceyrə çoxalması da, əvvəl xərçəngə, sonra ölümə səbəb olar. Bu genlərin mutasiyalar nəticəsində doğuşdan xarab olduğu vəziyyətlərdə, məsələn retinoblastoma adı verilən xəstəlikdə, körpələr çox qısa müddətdə həyatlarını itirməkdədirlər.

Mutasiyaların canlılara verdikləri ziyanlar bu nümunələrlə məhdud deyil. Dövrümüzə qədər müşahidə edilmiş bütün mutasiyalar, çox vaxt zərərli, nadir olaraq da təsirsizdirlər. Buna baxmayaraq təkamülçülər (müsəlman təkamülçülər də), mutasiyaları hələ də etibarlı təkamüllü mexanizm olaraq müdafiə etməyə çalışarlar. Əgər təkamülçülərin iddia etdikləri kimi növlər bir-birlərinə təkamülləşmiş olsaydılar, milyonlarla faydalı mutasiyanın, həm də törəmə hüceyrələrində dalbadal reallaşmış olması lazım idi.

İnkişaf edən elm bu gün milyonlarla zərərli mutasiyanı təyin edib bunların səbəb olduqları xəstəlikləri ortaya qoyarkən, təkamülçü elm adamlarının genetik məlumatı artırıcı heç bir mutasiya nümunəsi verə

bilməmələri, əlbəttə təkamül nəzəriyyəsini çox böyük çıxılmaz vəziyyətə salmaqdadır. 35 cildlik **"of Traite de Zoologie"** ensiklopediyasının redaktoru və fransız Elmlər Akademiyasının (Academie des Sciences) sabiq başçısı olan təkamülçü Pierre Paul-Grassé'nin mutasiyalar haqqında etdiyi açıqlama, bu nöqtədə olduqca açıqlayıcıdır. Grassé, mutasiyaları **"yazılı bir mətnin köçürülməsi əsnasında edilən hərf səhvləri"**nə bənzətmişdir. Və hər hərf səhvi kimi mutasiyalar da məlumat meydana gətirməz, əksinə var olan məlumatı pozarlar. Grassé bu həqiqəti belə açıqlamışdır:

Mutasiyalar, zaman ərzində son dərəcə nizamsız şəkildə meydana gəlirlər. Bir-birlərini tamamlayıcı xüsusiyyətləri yoxdur və bir-birini izləyən nəsillər üzərində müəyyən bir istiqamətə doğru kümülatif (getdikcə artan) təsirləri olmaz. Onsuz da var olan quruluşu dəyişdirərlər, amma bunu tamamilə nizamsız şəkildə edərlər... Bir canlı bədənində çox kiçik belə olsa bir nizamsızlıq meydana gəldiyində isə, bunun nəticəsi ölüm olar. Həyat faktı ilə anarxiya (nizamsızlıq) arasında heç bir ola biləcək uzlaşma yoxdur.[11]

Məhz bu səbəblə, mutasiyalar, yenə Grassé'nin ifadəsiylə **"nə qədər çox sayda olursa olsunlar, hər hansı təkamül meydana gətirməzlər"**. Mutasiyaların bu təsirini zəlzələlərə bənzədə bilərik. Belə ki, zəlzələ bir şəhəri inkişaf etdirməz, daha yaxşı hala gətirməz, hətta ona dağıdar, mutasiyalar da eyni şəkildə həmişə mənfi dəyişikliklərə səbəb olarlar. Bu baxımdan təkamülçülərin mutasiyalara söykənən iddiası da tamamilə etibarsızdır. *(Ətraflı məlumat üçün baxın: Təkamül yalanı, Harun Yəhya)*

Fosil araşdırmaları yaradılış həqiqətini təsdiq etməkdədir

Əvvəlki hissədə də qısaca yekunlaşdırdığımız kimi, elmi inkişaflar təbii seleksiya və mutasiyanın təkamülləşdirici gücü olmadığını isbat etmişdir. Ortada bir təkamül mexanizmi olmadığına görə, keçmişdə təkamül də yaşanmış ola bilməz. Ancaq təkamülçülər bu iddialarından imtina etməz və bütün canlıların yüz milyonlarla illik uzun zaman ərzində addım-addım bir-birlərindən törədiklərini iddia etməyə davam edərlər. Təkamülçülərin yanılmaları məhz bu məntiq içində gizlidir. Əgər iddia etdikləri ssenari doğru olsaydı, bu qədər uzun müddət ərzində saysız **"ara növ"**ün meydana gəlmiş olması, bizim də bu fosil qalıqlarına rast gəlməmiz lazım idi.

Təkamülçülərin iddialarının məntiqsizliyini bütün nümunələrdə görmək mümkündür. Nümunə olaraq balıqların ortaya çıxmasını götürək. Təkamülçülər balıqların, dəniz ulduzları və ya dəniz soxulcanları kimi onurğasız dəniz canlılarından təkamülləşdiyini iddia edərlər. Elə isə, bu iki fərqli canlı qrupu arasında pilləli təkamül təmin edəcək çox sayda **"ara-keçid forması"** yaşamış olmalıdır. Yəni həm balıq xüsusiyyətlərinə sahib olan, həm də onurğasız canlı xüsusiyyətləri daşıyan çox sayda növün daşlaşmış qalığına rast gəlməmiz lazımdır. Nə var ki, dövrümüzdə keçmişdə yaşamış balıqların və dəniz ulduzlarının hər birinə aid on minlərlə fosil tapılmış olmasına baxmayaraq, təkamülçülərin bu iddiasını təsdiqləyən tək bir ara-keçid fosili olmamışdır. Ara-keçid fosillərinin olmaması isə, açıq şəkildə **"təkamül heç bir zaman yaşanmadı"** mənasını verməkdədir.

Təkamülçülər bu gerçəyi bilmələrinə baxmayaraq, demaqoqluq üsulunu və saxta fosilləri istifadə edərək insanları təkamül ssenarisinə inandırmağa çalışarlar. Halbuki Darvin belə öz dövründə fosil qeydlərinin nəzəriyyəsini dəstəkləmədiyinin fərqində idi. Kitabının **"Nəzəriyyənin çətinlikləri"** başlıqlı hissəsində bu gerçəyi belə ifadə edirdi:

Əgər həqiqətən növlər o biri növlərdən yavaş inkişaflarla törəmişsə, niyə saysız ara-keçid formasına rast gəlmirik? Niyə bütün təbiət bir qarışıqlıq halında deyil də, tam olaraq təyin olunmuş və yerli yerindədir? Saysız ara-keçid forması olmalı, lakin nə üçün yer üzünün sayıla bilməyəcək qədər çox layında basdırılmış olaraq tapa bilmirik... Nə üçün hər geoloji quruluş və hər təbəqə belə əlaqələrlə dolu deyil? Geologiya yaxşı dərəcələndirilmiş bir müddət ortaya çıxarmamaqdadır və bəlkə də bu mənim nəzəriyyəmə qarşı irəli sürüləcək ən böyük etiraz olacaq. (Əlavə haşiyə: Charles Darvin, The Origin of Species, 1-ci nəşr, səh. 172)

Darvin sonrakı illərdə fosil qeydlərinin zənginləşəcəyini və itkin olan ara-keçid formalarının da olacağını ümid edirdi. Ancaq bu xəyali heç bir zaman reallaşmadı və dövrümüzdə təkamülçülərin belə bir ümidləri də qalmadı. Çünki özlərinin də etiraf etdiyi kimi, fosil qeydləri son dərəcə zəngindir və bizə həyatın tarixini göstərmək üçün yetərli ölçüdədir. Lund Universitetindən İsveçli təkamülçü botanik Prof. N. Heribert Nilsson fosil qeydləri mövzusunda bunları söyləyər:

"Təkamülü, 40 ildən çox sürən bir səy ilə sübut etmə təşəbbüslərim sonunda müvəffəqiyyətsizliklə nəticələndi... Fosil materialı indi o qədər tamdır ki, yeni siniflər meydana gətirmək mümkün olmuşdur və keçid silsilələri tapılması, material əskikliyi ilə açıqlana bilməz vəziyyətdədir. (Fosil qeydlərindəki) boşluqlar həqiqətdir, əsla tamamlana bilməyəcəkdir".[12]

Glasgow Universitetindən paleontoloq Prof. T. Neville Corc isə fosil qeydlərinin son dərəcə zəngin olmasına baxmayaraq, axtarılan ara-keçid formalarının hələ də tapıla bilmədiyini belə ifadə etmişdir:

"Fosil qeydlərinin (təkamüllü) zəifliyini ortadan qaldıracaq açıqlama etmək artıq mümkün deyil. Çünki əlimizdəki fosil qeydləri son dərəcə zəngindir və yeni kəşflərlə yeni növlərin tapılması qeyri-mümkün görünməkdədir... Hər cür kəşfə baxmayaraq fosil qeydləri hələ (növlər arası) boşluqlardan meydana gəlməyə davam etməkdədir."[13]

Təkamülçülər, fosil qeydlərinin təkamülü yalanlamasının yanında yaradılış həqiqətinə elmi dəlil təmin etdiklərini də etiraf etməkdədirlər. Məsələn təkamülçü paleontoloq Mark Czarnecki belə etiraf edər:

"Nəzəriyyəni (təkamülü) isbat etmənin önündəki ən böyük maneə hər zaman üçün fosil qeydləri olmuşdur... Bu qeydlər heç bir zaman üçün Darvinin fərz etdiyi ara formaların izlərini ortaya qoymamışdır. Növlər birdən meydana gələrlər və yenə birdən yox olarlar. Və bu gözlənilməz vəziyyət, növlərin Tanrı tərəfindən yaradıldığını müdafiə edən yaradılışçı dəlillərə dəstək təmin etmişdir."[14]

Görüldüyü kimi, təkamülçülər ara-keçid formaları mövzusunda da məğlubiyyətə uğramışlar. Darvinizmin ortaya atıldığı 19-cu əsrdən bu yana dünyanın dörd bir tərəfində aparılan qazıntılar və araşdırmalarda 700 milyondan çox fosil əldə edilmiş, ancaq tək bir **"ara-keçid forması"**na rast gəlinə bilməmişdir. Əldə edilən tapıntılar təkamülçüləri xəyal qırıqlığına

uğradacaq şəkildə, canlıların yer üzündə birdən-birə, əskiksiz və qüsursuz şəkildə ortaya çıxdıqlarını göstərmişdir.

Ancaq təkamülçü elm adamları, ara-keçid formalarının heç bir dövrdə var olmadıqlarını çox yaxşı bilmələrinə baxmayaraq nəzəriyyələrini müdafiə etməkdən əsla imtina etməzlər. Bunun üçün əldəki bəzi qalıqları ön fikirli şəkildə şərh etməyə çalışarlar. Dünyada məşhur olan **"Nature"** jurnalının redaktoru Henry Gee, **"In Search of Deep Time"** (Dərin zamanın axtarışında) adlı əsərində təkamülçü elm adamlarının fosil açıqlamalarının **"nə qədər elmi"** olduğunu bu şəkildə təsvir etməkdədir:

"Ata-nəvə əlaqələrinə söykənən insan təkamülü sxemi, tamamilə həqiqətlərin sonrasında yaradılmış bir insan icadıdır və insanların ön mühakimələrinə görə şəkillənmişdir... Bir qrup fosili götürmək və bunların qohumluq zəncirini əks etdirdiklərini söyləmək, test edilə bilər elmi fərziyyə deyil, amma gecə yarısı nağıllarıyla eyni dəyəri daşıyan bir iddiadır, əyləndirici və hətta bəlkə istiqamətləndiricidir, amma elmi deyil."[15]

Bu səbəblə bəzi inanclı insanların, təkamülçülərin elm maskası altında etdikləri bu cür söz oyunlarına və saxtakarlıqlarına aldanmamaları lazımdır. **"Elm adamı olduqlarına görə mütləq doğru söyləyirlər" demək və buna görə təkamülçülərin hər dediklərinə inanmaq şübhəsiz böyük səhv olar.** Çünki təkamülçü elm adamları, ideologiyaları üçün həqiqətləri gizlətməkdən, elmi məlumatları təhrif etməkdən, hətta saxta dəlillər çıxarmaqdan çəkinməməkdədirlər. Darvinizmin tarixi bunun nümunələriylə doludur.

Darvinizmə ən ümumi xətləriylə baxıldığında belə etibarsızlığı, çürük təməllər üzərinə qurulduğu dərhal aydın olmaqdadır. Detallara enildiyində isə vəziyyət çox daha dəqiqləşməkdədir. (Baxın: *Harun Yəhya, Təkamül yalanı, Həyatın həqiqi mənşəyi, Təkamülçülərin etirafları, Təkamülçülərin yanılmaları)*

Təkamülçülərin iddialarının tam tərsinə kainatın hər nöqtəsində, yer üzündəki canlı-cansız bütün varlıqların xüsusiyyətlərində çox böyük nizam və

ağılla qarşılaşılmaqdadır ki, bu da bütün bunların bir Yaradıcısı olduğunun, yəni canlı cansız bütün varlıqları Allahın yoxdan var etdiyinin bir göstəricisidir. Nə var ki, təkamülçü elm adamları bunu qəbul etmək istəmədikləri üçün bu həqiqətə qarşı ümidsizcə müqavimət göstərərlər. Materializmə olan ehtiraslı bağlılıqları səbəbiylə sanki bir ölünü yaşatmağa çalışarlar.

Bütün bunlar bizi bu nəticəyə aparar: Darvinizm insanları ağıldan, elmdən və gerçəklərdən uzaqlaşdırar, onları ağılsızlığa yönəldər. Ağılsızlıq bu vəziyyətə uyğun bir tərifdir, çünki təkamülə inanan insanlar ağılın və elmin göstərdiyi yoldan getməyib, Darvinin yaşadığı 1800-cü illərdən qalma xurafatlara aldanar, sonunda da təsadüflərin ilahlıq edə biləcəyinə inanacaq vəziyyətə gəlirlər. Halbuki yaradılışın dəlilləri bütün kainatı əhatə etmişdir. Bunu anlamaq üçün səmaya, dənizlərə, heyvanlara, bitkilərə və onların sahib olduqları qüsursuz mexanizmlərdən yalnız birinə baxmaq belə kifayətdir. Bütün bunların təsadüflərin əsəri olduğunu söyləmək ağla, məntiqə və elmə zidd olar. Edilməsi lazım olan şey Allahın böyüklüyünü və ucalığını təqdir etmək və Allaha təslim olmaqdır.

İslamda təkamül olduğunu iddia edənlər 700 milyondan çox fosilin təkamülü məhv etdiyini bilmirlər

*Bəzi müsəlmanlar, 1940-50-ci illərin məlumatıyla təkamülün elm tərəfindən dəstəklənilən nəzəriyyə olduğunu zənn edərək, **"müsəlmanlar Darvindən çox əvvəl təkamülü bilirdilər"** kimi aciz və qəribə məntiq hörgüsüylə özlərinə görə İslamla təkamülü uyğunlaşdırmağa çalışmaqdadırlar.* Bu məntiq, ciddi məlumatsızlığın məhsuludur.

Birincisi, təkamül yanılması ilk Darvinlə ortaya çıxmış bir düşüncə deyil. Tarix boyunca bütün materialistlər canlıların daşdan, torpaqdan öz-özünə meydana gəldiyi və canlıların guya bir-birindən törədiyi iddiasında olmuşlar. Təkamül, minlərlə il əvvələ söykən bütpərəst inancıdır. Şumerlər də, qədim misirlilər də təkamülə inanan və təkamülü müdafiə edən cəmiyyətlərdir. Məsələn misirlilər, canlıların Nilin palçıqlı sularından öz-özlərinə çıxdıqlarını

düşünərlərdi. Bu səbəbdən ***"təkamül Darvindən əvvəl də bilinirdi, müsəlmanlar da təkamülü bilirdi"*** demənin bir mənası yoxdur. Müsəlmanlar da, ilk yəhudilər də, ilk xristianlar da, şumerlər də, misirlilər də təkamül deyə azğın düşüncə olduğunu əlbəttə bilirdilər. Amma dövrümüzdə olduğu kimi, o dövrdə də ağıl və vicdan sahibi olanlar təkamülün bir yanılma olduğunu açıq şəkildə görə bilirlər, bəzi insanlar da materialist və ateist zehniyyətə sahib olduqları üçün bu yanılmaya sahib çıxırdılar.

İkincisi, canlıların mərhələ-mərhələ bir-birlərindən törəyərək var olduqları iddiası elmi olaraq heç bir tapıntıyla dəstəklənilməmişdir. Əgər canlılar Darvinin və ya keçmişdə yaşamış təkamülçülərin iddia etdiyi kimi bir-birindən törəmiş olsaydı, bunun fosil qeydlərində açıq şəkildə görülməsi lazım idi. Bugünə qədər aparılan qazıntılarda 700 milyona yaxın fosil əldə edilmişdir. Amma bunların içində bir canlının digərinə çevrildiyini, canlıların guya ortaq ataya sahib olduğunu göstərən bir fosil belə yoxdur. 700 milyon qalığın hamısı istisnasız canlıların sahib olduqları bütün xüsusiyyətləri ilə birdən ortaya çıxdıqlarını, yəni yaradıldıqlarını və yüz milyonlarla il boyunca heç dəyişmədiklərini, yəni təkamül keçirmədiklərini göstərməkdədir. 150 ildir dünyanın dörd bir tərəfi dəlik deşik edilib bir ara-forma qalığı belə tapıla bilməmişsə, təkamülçülərə edilən **"bir ara-forma fosili gətirin 10 trilyon verəcəyik"** çağırışına bir adam belə cavab verə bilməmişsə, Darvin belə ara-fosil tapılmazsa nəzəriyyəsinin yıxılacağını söyləmişsə, yəni ortada konkret bir tapıntı yoxsa, nağıllar izah etmənin **"atalarımız mikrobmuş"**, **"quşların atası tapıldı"**, **"atalarımız xurmaymış"** kimi başlıqlarla ictimaiyyəti yanıltmağın mənası yoxdur.

Atalarımız xurma idi yalanı

Bəzi kütlələr İbni Miskeveyh kimi İslam coğrafiyasında yaşamış olan kəslərin təkamülçü yanılmalarını gündəmə gətirərək, öz ağıllarına görə İslamla təkamülü uyğunlaşdırmağa çalışmaqdadır. Keçmişdə müsəlman cəmiyyətlər içində təkamül yalanını müdafiə etmiş olan kəslərin yaşamış olduqları doğrudur. İbni Miskeveyh də bu şəxslərdən biridir. İnsanların atasının xurma ağacı olduğu iddiasında olan İbni Miskeveyh, Türk milləti haqqında da ağla

sığmaz sayıqlamalarda olan bir kimsədir. Bunu da unutmamaq lazımdır ki, bir yalanı müdafiə edən insanın hansı millətdən, hansı inancdan olduğu mühüm deyil. Bu insanın inancı və ya milləti, bu iddianın yalan olduğu həqiqətini dəyişdirməməkdədir.

Bütün digər canlılar kimi, bitkilər də milyonlarla il boyunca dəyişməmiş, eyni qalmışlar. İlk bitki qalıqları Daş kömür dövrünə, yəni dövrümüzdən təxminən 350 milyon il əvvəlinə aiddir. Və bu dövrə aid bitkilər dövrümüzdəkilərlə eynidir. İbn Miskeveyhin atamız olduğunu iddia etdiyi xurma yarpağının isə, Təbaşir dövrünə (146-65 milyon il) aid fosil nümunələri var. Bu bitki, təxminən 140 milyon il boyunca heç bir dəyişimə məruz qalmamışdır. Zamanla qolları, ayaqları inkişaf etməmiş, insana çevrilməmişdir.

"Atalarımız mikrob idi", "atalarımız soxulcan idi", "atalarımız xurma idi" şəklində zaman-zaman gündəmə gətirilən bu tip iddialar, elmi inkişafların və dəlillərin çox yaxşı fərqində olan insanlarımızı artıq yalnız güldürməkdədir. Tək bir ara-fosil belə olmamasına və canlıların dəyişməmiş olduqları tam 700 milyon fosil ilə sübut edilmiş olmasına baxmayaraq belə iddiaların müxtəlif şəkillərdə gündəmə gətirilməsi darvinistlərin 150 ildir davam etdirdikləri oyunun bir hissəsidir. Amma artıq insanlarımız bu oyuna gəlməməkdədir.

Təkamül fikrinin Darvinin əvvəlindən bəri var olduğu doğrudur. Ancaq Darvinizm, İbn Miskeveyh deyilən şəxsin yaşadığı dövrdən daha qədimlərdən Şumer və Misir dövrlərindən qalma paqan dinidir. Bu iddiaya şiddətlə sahib çıxan tək adam İbn Miskeveyh deyil, irqçi və faşist məntiqə sahib olan Firondur. Darvinizm fikri Firona və Şumerlərə şeytan tərəfindən aşılanmışdır. İbn Miskeveyh isə, bu fikri onlardan oğurlayan adamdır.

Firon dövründən qalma bu azğın inanc, çox qədim təşkilat olan masonluğun təsiri ilə yayılmış və insanlar, alim qılığında kəslər tərəfindən istiqamətləndirilmişlər. Bu kəslər İslamı qəbul etmiş kimi göstərilmiş, **"məşhur İslam alimi"** görünüşündə tanıdılmış və insanları Allah inancından azdırmaq üçün sıx Darvinizm təbliğatı etmişlər. İbn Miskeveyh də, masonların idarəsindəki bu azğın zehniyyətdəki kəslərdən biridir və masondur. Türkləri və zənciləri öz ağlına görə aşağı meymun irqi olaraq görən və nəcib Türk millətinin zadəgan üstünlüyünü öz ağlına görə ayaqlar altına almağa çalışan bu adam, millətimizə nifrətini bu sözlərlə ifadə etməkdədir:

"... Nəhayət nəfsin onun üzərindəki təsiri güclənincə anlama və ayırd etmə gücləri sayəsində verilən təhsili də alar. İnsanlıq mərtəbəsinə olduqca yaxın olan bu mərtəbə behimiyet (heyvan olma vəziyyəti) mərtəbəsidir. Şimal və cənubda yer üzünün ən uzaq məskun bölgəsində və onun ətrafında olan TÜRK və ZƏNCİLƏR belədir. ONLAR İLƏ İZAH ETDİYİMİZ HEYVANLIĞIN SON MƏRTƏBƏSİ ARASINDA BÖYÜK FƏRQ YOXDUR. Onlar faydalarına olan bir çox şeyi ANLAYACAQ VƏZİYYƏTDƏ DEYİLDİRLƏR. Özləri hikmət ortaya qoya bilmədikləri kimi qonşu millətlərdəkini də qəbul etməzlər. Buna görə VƏZİYYƏTLƏRİ ÇOX PİS VƏ HƏYAT SƏVİYYƏLƏRİ AŞAĞIDIR. Qibtə ediləcək bir şeyləri olmadığı kimi HEYVANLARIN İSTİFADƏ EDİLDİYİ İŞ SAHƏLƏRİNDƏ KÖLƏ KİMİ İSTİFADƏ EDİLMƏKDƏN BAŞQA BİR İŞƏ DƏ YARAMAZLAR..."

Bu sözlər, xeyirxah və zadəgan Türk millətinə yönəldilmiş son dərəcə alçaq sözlərdir. Bəzi ilahiyyatçılarımızın tərifləyib, fikirlərinə dəyər verdiklərini söylədikləri bu şəxs, öz ağılı tərəfindən nəcib Türk millətini heyvanlardan fərqsiz görməkdədir. 600 il boyunca 3 qitəyə hakim olmuş qədirbilən Türk millətini, **"heyvanların istifadə edildiyi iş sahələrində istifadə ediləcək kölə"** olaraq xarakterizə edəcək qədər irəli getməkdədir. (Nəcib Türk millətini tənzih edərik.) Türk millətinin zadəganlığı və üstünlüyü ortadadır. Millətimizə alçaq irq, kölə deyən, zənciləri insandan görməyən bu zehniyyət Firon dövrünün paqan inancından qalmadılar. Masonların təsiriylə inkişaf edən bu çirkin məntiq, Darvinizm fikrinin təməlini meydana gətirmişdir. Necə ki, eyni məntiqdəki Darvin də, soylu Türk millətinə öz alçaq ağılı tərəfindən **"aşağı irq"** yaraşdırması etməkdən çəkinməmişdir:

"Təbii seleksiyaya söykənən döyüşün, mədəniyyətin irəliləyişinə sizin zənn etdiyinizdən daha çox fayda təmin etdiyini və təmin etməkdə olduğunu göstərə bilərəm. Düşünün ki, bir neçə əsr əvvəl Avropa, TÜRKLƏR TƏRƏFİNDƏN İŞĞAL EDİLDİYİNDƏ, Avropa millətləri necə risk altında qalmışdı, bu gün Avropanın TÜRKLƏR TƏRƏFİNDƏN İŞĞALI bizə nə qədər gülünc gəlir. Avropa irqləri olaraq bilinən mədəni irqlər, həyat mübarizəsində Türklərə qarşı qəti qalibiyyət əldə etmişlər. Dünyanın çox da uzaq olmayan bir gələcəyinə baxdığımda, çox saydakı AŞAĞI İRQLƏRİN mədəniləşmiş yüksək irqlər tərəfindən ƏLƏNƏCƏYİNİ (YOX EDİLƏCƏYİNİ) görürəm." (Əlavə qeyd: Francis Darvin, The Life and Letters of Charles Darvin, cild 1, 1888. New York: D. Appleton and Company, səh. 285-286)

Darvinin zəncilərə baxışı da, Firon dövrünün tərs məntiqini sərgiləməkdədir

"Bəlkə də əsrlər qədər sürməyəcək yaxın bir gələcəkdə, mədəni insan irqləri, vəhşi irqləri tamamilə yer üzündən siləcəklər və onların yerinə keçəcəklər. Digər tərəfdən insani meymunlar da… şübhəsiz məhv ediləcəklər. Beləcə insan ilə ən yaxın qohumları arasındakı boşluq daha da genişləyəcək. Bu sayədə ortada indiki Avropalı irqlərdən belə daha mədəni olan irqlər və İNDİKİ ZƏNCİLƏRDƏN, AVSTRALİYA YERLİLƏRİNDƏN VƏ QORİLLALARDAN belə daha geridə olan pavian növü meymunlar qalacaq." (Əlavə qeyd: Charles Darvin, The Descent of Man, 2-ci nəşr, Nyu York, A L. Burt Co., 1874, səh. 178)

İnsanlarımızın bəzilərinin **“alim”** deyərək hörmət etdikləri, fikirlərinə dəyər verdikləri kəslər, məhz bu zehniyyətdəki kəslərdir. Hal belə ikən bütün bunları görməməzlikdən gəlmək və **“alimdir, hörmət edilər”** məntiqiylə hərəkət etmək son dərəcə təhlükəlidir. Hər **“alim”** sifətinə sahib adama hörmət ediləcək deyə bir qayda yoxdur. Şeytanın təsirindəki bir çox insan, ortaya atdıqları fikirlərlə tarixə adlarını yazdırmış, amma insanlığa həmişə zülm gətirmişlər. Marks, Lenin, Stalin, bunların hamısı guya alimdir. Terrorist liderlərin də bəzisi alim dərəcəsində məlumata sahibdirlər.

Mason professorlar da alimdir. Əgər alimlərə hörmət ediləcək deyə bir qayda varsa, bu vəziyyətdə bu kəslərə də hörmət edilməsi lazımdır. Ancaq əlbəttə ki, bir insana hörmət edilməsi üçün onun **“alim”** sifətinə sahib olması yetərli deyil. Bir insan, ancaq insan kimi davranırsa, müsəlman kimi yaşayır və müsəlman kimi danışırsa alimdir. İnsanlara qarşı nifrət doludursa, insanların bəzisini meymun olaraq görəcək qədər alçaqdırsa, faşist və irqçi fikrə sahibdirsə, belə bir insana alim deyilə bilməyəcəyi aşkardır.

İnsanlarımız, yaradılışı isbat edən 700 milyon fosilin varlığından xəbərdardırlar. Tək bir ara-fosil belə olmadığını bilməkdədirlər. Nə tək bir insanın, nə də insanın hüceyrəsindəki tək bir zülalın belə təsadüfən meydana gələ bilməyəcəyini anlamışlar. Canlıların, Rəbbimizin **“Ol”** əmri ilə yoxdan yaradıldıqlarını elmi dəlillərlə, açıq dəlillərlə görmüşlər. Allahın varlığını açıq şəkildə inkar edən Darvinizm adındakı bu azğın paqan dini, cəmiyyətimizdə artıq qəti olaraq rədd edilməkdədir. Cəmiyyətimizə israrla təlqin edilməyə çalışılan **“Allah canlıları təkamül ilə yaratdı”** yalanı, Darvinizmin 21-ci əsrdəki məğlubiyyətinin ardından, tərəfdar tapa bilmək üçün masonların çıxardığı yeni yalandır. Qurandakı izahlara tam mənasıyla uyğun gəlməyən, elmi dəlillərlə qəti olaraq yalanlanmış olan, tək bir ara-fosil ilə belə dəstəklənilməmiş olan bu iddianın tələsinə artıq insanlar düşməməkdədir.

Çarlz Darvinin dindar olduğu yalanı

Təkamül nəzəriyyəsini müdafiə edən inanclı insanların böyük hissəsi, Darvinin dinə qarşı insan olmadığını, hətta dindar olduğunu qarşıya qoyarlar.

Şübhəsiz bu çox böyük yalandır. Çünki Darvin, Allaha və dinə qarşı mənfi dünyagörüşünü tam mənasıyla ortaya qoymuş insandır.

Darvin gənclik illərində Allahın varlığına inanmasına qarşı gedərək inancını itirmiş və orta yaşlarından etibarən ateist olaraq yaşamışdır. Buna baxmayaraq başda dindar olan yoldaşı olmaq üzrə, yaxın qohumlarını və inanclı kütləni qarşısına almamaq üçün bu fikirlərini açıqlamaqdan ümumiyyətlə çəkinmişdir. Darvinist tarixçi Gertrude Himmelfarbın **"Darvin and Darwinian Revolution"** (Darvin və Darvinçi inqilab) adlı kitabında **"Darvinin inancsızlığının bütün ölçüsü nə onun çap olunan işlərində, nə də çap olunan avtobioqrafiyasında görülə bilər, bu detallar yalnız onun avtobioqrafiyasının orijinal versiyasında vardır."**[16] deyilməkdədir.

Yenə Himmelfarbın kitabında, Darvinin oğlu Francis Darvinin, **"The Life and Letters of Charles Darvin"** (Çarlz Darvinin həyatı və məktubları) adlı kitabı nəşr edəcəyi sıralarda Darvinin yoldaşı Emmanın buna qarşı çıxaraq, onun ölümündən sonra qalmaqalların meydana gəlməsinə icazə vermək istəmədiyi ifadə edilməkdədir. Emma Darvin, oğlunu, kitabda çox açıq şəkildə yer alan dinsizliklə əlaqədar ifadələri çıxarması mövzusunda ciddi şəkildə xəbərdar etmişdir. Ailəsi, bu ifadələrin Darvini bütün dünyanın gözündə alçaldacağını düşünərək buna qarşı çıxmışdır.[17]

Neodarvinizmin qurucularından bioloq Ernst Mayra görə isə, **"Darvinin 1836-39-cu illərində, Malthusun yazılarını oxumadan əvvəl inancını itirdiyi aşkardır. Yoldaşlarının və arvadının hisslərini incitməmək üçün əsərlərində daha çox Allahın varlığına inanan üslub istifadə etmişdir. Lakin qeyd dəftərlərindəki ifadələrinin çoxu materialist olduğunu göstərməkdədir."**[18]

Darvin, ailəsinin reaksiyasını diqqətə aldığı üçün həyatı boyunca dini mövzulardakı fikirlərini böyük gizlilik içində tutmuşdur. Əslində bu gizliliyin səbəbini şəxsən özü belə açıqlamışdır:

"İllər əvvəl bir yoldaşım əgər İngiltərədə elmi inkişaf etdirmək istəyiramsə, mənə şiddətlə işlərimdə din mövzusuna yer verməməyi tövsiyə etdi və bu məni iki mövzunun ortaq əlaqəsini düşünməməyə itələdi. Əgər gələcəkdə dünyanın nə qədər liberal olacağını təxmin edə bilsəydim, bəlkə də fərqli davranardım."[19]

Son cümləsindən də aydın olduğu kimi Darvin, əgər reaksiya almayacağını belə bilmiş olsaydı, bəlkə də bu qədər təmkinli davranmazdı. Ancaq reaksiyaları çəkməmək üçün həqiqi fikirlərini mümkün olduğu qədər gizləməyi uyğun görmüşdür. Necə ki, Karl Mars, **"Das Kapital"** adlı əsərini Darvinə ithaf etmək istədiyində də Darvin, yenə ailəsini bəhanə göstərmiş, bu cür ateist fikirlər üzərinə inşa edilmiş kitabla arasındakı bağın ailə üzvlərini şiddətlə narahat edəcəyini söyləyərək, Marksın bu təklifini rədd etmişdir.[20] Ancaq Darvinin mənəvi anlayışlara və inanclara olan azğın dünyagörüşünü əmisi oğluna söylədiyi bu sözlərdə görə bilərik:

"Bütün insan duyğularına, heyvanlarda izi görülə biləcək olan bir mikrob olaraq baxıram."[21]

Davamında isə din və Allah inancı haqqında belə bir səhvi ifadə edirdi:

"Uşaqların zehninə aşılanan Allah inancına dair israrlı təlqinlərin, hələ tam olaraq inkişaf etməmiş beyinlərində güclü və hətta bəlkə də irsi təsir meydana gətirmə ehtimalı əhəmiyyətsiz edilməməlidir; çünki necə meymunun, ilana qarşı instinkt olaraq duyduğu kin və qorxunu atması çətindirsə Allah inanclarını da başlarından atmaq o qədər çətin olacaq."[22]

Görüldüyü kimi, Darvin həm uşaqlara Allah inancının öyrədilməsinə qarşı çıxmış, həm də onların zehinlərindən bu inancın atılması lazım olduğunu müdafiə etmişdir. Əlbəttə bu Darvinin ən böyük yanılmalarından biridir. Allaha iman etmək və din əxlaqını gərəyi kimi yaşamaq, həm insanların, həm də cəmiyyətlərin hüzur və xoşbəxtlik tapacaqları, həm dünyada həm də axirətdə qurtuluşa çatacaqları çox böyük gözəllikdir. Darvinin iddia etdiyi kimi,

insanların Allaha imandan və din əxlaqını yaşamaqdan uzaqlaşmaları isə son dərəcə təhlükəlidir. İnsanlıq tarixi bu həqiqəti nümunələriylə doludur.

Darvinin bu din əleyhinə fikirləri dövrümüzün təkamülçülərinə də miras qalmışdır. Necə ki, Darvin uşaqların təhsilində Allah inancını tanımalarına fürsət vermək istəməmişsə, bənzər şəkildə bu günün təkamülçüləri də məktəblərdə yaradılışın izah edilməsinə şiddətlə qarşı çıxmaqdadırlar. Bir çox ölkədə təhsil tədris planlarından **"yaradılış"** mövzusunu çıxarmaq üçün böyük lobbi fəaliyyəti içindədirlər.

Darvinin dinsiz şəxsiyyəti və bunu gizlətmə səyi

Darvinin həyatını araşdırdığımızda gənclik illərində bu dərəcə inancsız olmadığını görərik. Özü o dövrləri ilə əlaqədar bir məktubunda bunları izah edər:

"Daha əvvəllər, mən də (hər nə qədər məndə dini duyğunun yaxşı inkişaf etdiyini düşünməməklə birlikdə) başqaları kimi Tanrının varlığına və ruhun ölümsüzlüyünə inanmışdım."[23]

"Darvin and Darwinian Revolution" (Darvin və Darvinçi inqilab) adlı kitabda Gertrude Himmerfarb onun bu vəziyyətini bir örnəklə təsvir edər:

"... çox insan tərəfindən hiss edilən dərin inanc və duyğular onun Allahın varlığına inanmasını təmin edə bilməzdi. Öz-özünə bir zamanlar belə duyğuları olduğunu etiraf edirdi: Braziliya meşələrinin ehtişamı içindəykən, bir insanda "nəfəs alıb verən bədənin xaricində bir varlıq daha olması lazım olduğu" düşüncəsinə sahib idi. Lakin ondan sonra ən görkəmli mənzərələr belə zehnində bu cür düşüncələri oyandıra bilmədi."[24]

Bu nümunədə də görüldüyü kimi, Darvin həyatının gənclik dövrlərində ətrafına daha vicdanlı baxmaqda və vicdanının səsini dinləyərək, Allahın varlığını fərq etməkdədir. Ancaq sonraları bu açıq-aşkar gerçəkləri görə bilməz hala gəlmişdir. Darvin bir ifadəsində öz inancsızlığını belə izah edər:

"... Beləcə inancsızlıq yavaş-yavaş məni əhatə etdi və nəticədə tamamlandı."[25]

Eyni kitabda Darvinin atasının, evlənmək üzrə olan oğluna, inancı mövzusundakı şübhələrini həyat yoldaşından gizlətməsi istiqamətində təlqində olduğu da yazılmaqdadır. Lakin yenə də həyat yoldaşı Emma onun azalan inancından ilk andan etibarən xəbərdardır. Darvinin **"İnsanın töreməsi"** (Descent of Man) adlı kitabı nəşr olunduğunda, Emma Darvin, kitabın içindəki din əleyhinə fikirlərdən ötəri qızına belə etiraf etmişdi:

"... Allah inancını özündən uzaqlaşdırdığı üçün ondan çox nifrət edəcəyəm."[26]

Darvin başqa sözündə isə din haqqındakı həqiqi düşüncələrini belə ifadə edirdi:

"Dini inanclarım "Növlərin mənşəyi"ni yazdığım zamandan etibarən yavaş-yavaş və bir çox mərhələ nəticəsində olduqca zəiflədi."[27]

Darvin eyni zamanda insanların inanclı olmalarını da öz ağlına görə qəribə qarşılayır və guya primitiv heyvanlardan təkamülləşərək meydana gəldiyinə inandığı insanların inanclarına güvənə bilməyəcəyi kimi tərs məntiq irəli sürürdü:

"Ən aşağı heyvanların sahib olduğu qədər bir beyindən inkişaf etmiş və belə nəticələrə gələn inanc dolu bir insanın ağlına nə qədər güvənilə bilər?"[28]

Əlbəttə, Darvin bu mövzuda da yanılırdı. İndiki vaxtda bütün elmi tapıntıların da açıq şəkildə ortaya qoyduğu kimi, insanın Darvinin iddia etdiyi kimi heyvanlardan təkamülləşdiyi heç bir şəkildə doğru deyil. İnsan, ilk var olduğu gündən bəri insandır. Ağla, zəkaya, anlayışa və mühakimə qabiliyyətinə malikdir. Allaha iman da, ağla və anlayış qabiliyyətinə sahib olan hər kəsin, ətrafında gördüyü dəlillərdən asan şəkildə gələ biləcəyi tək ağıllı və həqiqi nəticədir.

Çarlz Darvinin, Allahın varlığını qəbul etməməsinin təməl səbəbi isə, qüruru idi. Bunu aşağıdakı ifadələrində görmək mümkündür:

"Hər şeyə gücü çatan və hər şeyi bilən Allahın, hər buyruğu verdiyi və hər şeyi bildiyi qəbul edilməlidir. Dürüst bir şəkildə söyləmək lazım olsa, mən bunu qəbul edə bilmirəm."[29]

Öz həyat hekayəsinə əlavə etdiyi qısa əl yazısında isə bunları söyləyirdi:

"Hər hansı böyük günah işlədimsə, bunun üçün peşmanlıq duymuram."[30]

Darvinin bura qədər yer verdiyimiz Allahın varlığını və dini inkar edən ifadələri, əslində klassik inkarçı məntiqidir. İnkar edənlərin vicdani olaraq fərq etdikləri halda qürurları səbəbiylə Allahı inkar etdikləri bir ayədə belə xəbər verilər:

Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu! (Nəml surəsi, 14)

Burada diqqət yetirilməsi lazım olan ən əhəmiyyətli nöqtə budur: Çarlz Darvinin ateizmi, nəzəriyyəsinin şəkillənməsindəki ən böyük faktor olmuşdur. Bütün müşahidə və təsbitlərini, canlılığın yaradılmadığı yanılmasına görə şərh edə bilmək üçün, əldə etdiyi məlumatları təhrif etmişdir. **"Növlərin mənşəyi"** kitabı oxunanda, Darvinin qarşısına çıxan bütün yaradılış dəlillərini (məsələn canlıların kompleks quruluşunu, fosil qeydlərindəki **"birdən meydana çıxma"** faktını, canlılardakı təbii növlərə ayırılmanın sərhədlərini göstərən məlumatları) həmişə bir şəkildə rədd etmək üçün çalışdığı, rədd edə bilmədiklərini də **"bəlkə irəlidə bir gün bu mövzu həll edilər"** yanaşması içində gələcəyə həvalə etdiyi açıq şəkildə görülər. Əgər tərəfsiz bir elm adamı olsa,

belə bir israr sərgiləməzdi. İstifadə etdiyi üslub və üsul, Darvinin ateist olduğunu, üstəlik bunun nəzəriyyəsinin təməlini meydana gətirdiyini göstərməkdədir.

Necə ki, 150 ildir ateistlərin Darvinə sahib çıxmalarının, dinsiz ideologiyaların da Darvinizmə istinad etmələrinin səbəbi, Darvinin inancsızlığına dair qəti qənaətlərinin olmasıdır. Bu vəziyyətdə Darvinin ateizmi konkret həqiqət ikən hələ bəzi müsəlmanların, Darvinin dindar olduğunu, ya da dinə qarşı olmadığını söyləyib, onun nəzəriyyəsini müdafiə etmələri, ona və onun kimi düşünənlərə dəstək vermələri və bu şəkildə ateistlərlə eyni safda yer almaları çox böyük səhv olacaq. Məhz bu səbəblə bu müsəlmanların içində olduqları bu böyük səhvdən xilas olmaları lazımdır.

Darvinizm insanlığı bəladan bəlaya sürümüşdür

Kitabın əvvəlində bəzi müsəlmanların Darvinizmi elmi həqiqət kimi göstərib, bu nəzəriyyənin əsl üzünü görməzlikdən gəldiklərindən bəhs etmişdik. Halbuki 20-ci əsrdə faşizm və kommunizm kimi iki qanlı ideologiyaya guya elmi dəstək təmin edən Darvinizmin həqiqi üzü təxmin ediləndən daha qaranlıqdır.

Bilindiyi kimi, geridə qalan əsr, bu iki ideologiyanın bütün şiddətiylə həyata keçirildiyi, kommunist inqilabların və faşist zərbələrin yaşandığı, bu səbəblə qarşıdurmaların, döyüşlərin, vətəndaş müharibələrinin olduğu, dünyanın iki ayrı qütbə ayrıldığı, dünya tarixinin bəlkə də ən qanlı əsri olmuşdur. Bu qanlı tarixə imzalarını atanlar isə Lenin, Stalin, Mao, Pol Pot, Hitler, Mussolini, Franko kimi zalım diktatorlardır. Yalnız kommunist rejimlərin öz xalqlarına qarşı tətbiq etdikləri zülm nəticəsində 120 milyondan çox insan həyatını itirmişdir. Yaşanan iki böyük Dünya Müharibəsinin nəticəsində təxminən 65 milyon insan öldü. Xüsusilə Hitlerin işğalları ilə başlayan 2-ci Dünya Müharibəsi dünya insanları üçün tam mənasıyla məhv olmuşdur. (Ətraflı məlumat üçün baxın: *Darvinizmin insanlığa gətirdiyi bəlalar, Harun Yəhya; Darvinizmin qanlı ideologiyası:* Faşizm, Harun Yəhya)

20-ci əsrdəki bu böyük siyasi, iqtisadi və əxlaqi məhvin fikri təməlində isə Darvinizmi görmək mümkündür. Əsrə damğasını vuran iki qanlı ideologiya da Darvinizmdən bəslənən, ondan güc tapan sistemlərdir. Bu ideologiyaların öz qaynaqlarına baxıldığında, darvinist təsir açıq şəkildə görülər.

Kommunizm-Faşizm və Darvinizm

Kommunizmin fikir ataları Marks və Engels, Darvinizmi mənimsədiklərini şəxsən öz yazılarında ifadə etməkdədirlər. *Marks, Darvinə olan simpatiyasını ən böyük əsəri* ***"Das Kapital"****ı Darvinə ithaf edərək də göstərmişdi.* Kitabın alman dilində nəşrində əl yazısıyla belə yazmışdı: **"Çarlz Darvinə, əsl pərəstişkarı olan Karl Marksdan".**

Darvinizm, kommunizm üçün o qədər böyük əhəmiyyət daşıyırdı ki, Engels, Darvinin kitabı nəşr olunan kimi Marks belə yazmışdı: **"Hal-hazırda kitabını oxumaqda olduğum Darvin, tək sözlə möhtəşəmdir."**[31]

Rus kommunizminin qabaqcılı **Georgi Valentinoviç Plexanov** isə **"Marksizm, Darvinizmin ictimai elmlərə tətbiq olunmasıdır."** demişdir.[32]

Hitlerin ən əhəmiyyətli fikri dayağı, irqçi Alman tarixçi Heinrich von Treitschke də, **"Xalqlar ancaq Darvinin həyat döyüşünə bənzər şiddətli rəqabətlə inkişaf edə bilərlər"**[33] səhvini ifadə edərkən nasional sosializmin mənşəyindəki şiddət ünsürünün təməlinin haradan gəldiyinə işarə etmişdir. Necə ki, Nazı Almaniyasının memarı Hitlerin özü də Darvinistdir. Darvinin ön plana çıxardığı **"həyat mübarizəsi"** aldatmacasından ilhamlanaraq, kitabının adını **"Mübarizəm"** qoymuşdur. Hitler 1933-cü ildəki Nürnberq yığıncağında **"yüksək irqin aşağı irqləri idarə etdiyini, bunun təbiətdə görülən bir haqq olduğunu və tək məntiqli həqiqət olduğu"** iddiasını irəli sürər.[34] Bu tərs məntiq onun Darvindən nə dərəcə təsirləndiyinin göstəricisidir.

İtalyan faşizminin **"Ducə"**si (öndəri) Mussolini də Darvinizmi dünya görüşü olaraq mənimsəmiş, müsəlman Həbəşistanı işğal etməsini darvinist məntiqlərlə qanuniləşdirməyə çalışmışdır. Dövrün bir başqa faşist diktatoru olan Franko da həm fikirlərində, həm də tətbiqlərində darvinist ideologiyanı əks etdirmişdir. (Baxın: *Harun Yəhya, Darvinizmin qanlı ideologiyası: Faşizm)*

Darvin öz tərs məntiq hörgüsünə görə həyatın guya mübarizə olduğunu, bu mübarizədə ancaq güclü olanların qazana biləcəklərini, zəif olanların isə itirməyə məhkum olduqlarını söyləyərək zorakılığın, şiddətin, döyüşlərin, müharibələrin, qırğınların yolunu açmışdır. Gərək öz cəmiyyətlərinə, gərəksə işğal etdikləri digər ölkələrin xalqlarına zülm edən diktatorlar, Darvinizmdən ilham almışlar və darvinist təlimləri özlərinə örtük etmişlər. Onların azğın inanclarına görə təbiətin qanuna görə zəiflər əzilməyə, yox olmağa məhkumdur; guya heyvandan təkamülləşdiyinə inandıqları insanlara dəyər vermənin isə gərəyi yoxdur.

Məhz bu səbəblə Darvinizm insanlıq üçün çox böyük təhlükədir. Bəlkə Darvinizmə sıravi nəzəriyyə göz ilə baxırlar, bu nəzəriyyədən zərər ümid etməyə bilərlər. Lakin yaxın keçmişdə yüz milyonlarla insan bu ideologiyanın zülmünə uğramışdır.

Darvinist düşüncəni müdafiə etmək, Kommunizmin yayılmasını asanlaşdırar

Kommunizm, gərək söykəndiyi materialist fəlsəfə, gərəksə irəli sürdüyü tarix analizi səbəbiylə din əxlaqına düşmən ideologiyadır. Necə ki, Allahın varlığının inkar edilməsi bu fəlsəfənin başlanğıc nöqtəsidir. Kommunizm dini öz azğın fikirlərinə görə **"rəhbər siniflərin vasitəsi"** olaraq təsvir edər və hədəflədiyi kommunist cəmiyyət üçün dinin yox edilməsini şərt qoşar.

Bu səbəblə də bütün kommunist rejimlər dinə düşmən olmuşdur. Dini dəyərlərə hücum etmiş, ibadətxanaları ortadan qaldırmışlar və xalqa ibadəti qadağan gətirmişlər. Sovet Rusiya, Qırmızı Çin, Kamboca, Bolqarıstan, Albaniya kimi ölkələrdəki kommunist rejimlər, kütlə qırğınları edə biləcək qədər din düşməni siyasət izləmişlər.

Marksist ideologiyanın din düşmənliyində Darvinizmin çox böyük təsiri vardır. Darvin, Marksizmin ateizminə guya elmi təməl qazandırmışdır. Bu səbəblədir ki, Marks və Engels Darvinə böyük minnətdarlıq duymuşlar. Engelsin Darvinə istiqamətli tərifləri diqqət çəkicidir:

Darvin, bütün orqanik varlıqların, bitkilərin, heyvanların və insanın özünün, milyonlarla ildir olan təkamül müddətinin məhsulları olduğunu sübut edərək metafizik təbiət fikrinə ən ağır zərbəni endirdi.[35]

Engels, Darvinin nəzəriyyəsiylə təkamül müddətini açıqladığını qarşıya qoyarkən böyük səhvin içində idi. Çünki Darvinin nəzəriyyəsi heç bir elmi dəlilə söykənmir, bəzi ön mühakimələr və fərziyyələrə söykənən fərdi düşüncələri dilə gətirirdi. Necə ki, inkişaf edən elm, Darvinin qarşıya qoyduğu bu görüşlərin heç birinin həqiqət payı olmadığını tək-tək ortaya qoydu. Keçən zaman ərzində, əldə edilən hər məlumat və tapıntı, materialistlərin ümid etdiyi kimi təkamül nəzəriyyəsini deyil, yaradılış həqiqətini bir daha isbat etdi.

Marks və Engelsin ortaya qoyduğu dialektika materialist fəlsəfənin özündə qarşıdurma vardı, buna görə kainat ziddiyyətlər arasındakı daimi qarşıdurma qaydasıyla işləyirdi. Bu eynilə Darvinin təbiətdə var olduğunu iddia etdiyi həyat döyüşü kimi idi. Darvinizm, bütün insanlıq tarixini qarşıdurma sahəsi olaraq görən və yeni qarşıdurmalar üçün zəmin hazırlayan kommunist ideologiyanın ən böyük dayağı oldu.

Təkamülçü P. J. Darlington vəhşiliyin təkamül nəzəriyyəsinə inanmanın təbii nəticəsi olduğunu belə ifadə edər:

"Birinci nöqtə eqoizm və vəhşilik içimizdəki təbii şeydir, ən uzaq atamızdan bizə miras qalmışdır... O zaman vəhşilik insanlar üçün normaldır; təkamülün bir məhsuludur."[36]

Təkamülçülərin bu iddiası, eynilə digər iddiaları kimi, doğru deyil. İnsan ağlı, vicdanı və mühakiməsiylə nəyin yaxşı nəyin pis olduğunu ayıra bilər. Eqoizm, nankorluq, qəzəb, kin, düşmənçilik kimi pis duyğuları bildiyi kimi, bu pisliklərdən necə çəkinə biləcəyini də bilər.

Marksistlər, ideologiyalarını cəmiyyətə qəbul etdirə bilmələrinin yolunun Darvinizmi mənimsədə bilməkdən keçdiyini düşünürlər. Xüsusilə də Darvinin yalanlarından **"Şiddət və qarşıdurma dəyişməz təbiət qanunudur"** prinsipinə çox əhəmiyyət verərlər. Məhz bu səbəbdən ötəri dünyada kommunizmi ideologiya olaraq mənimsəyən bütün terror təşkilatları, təhsil düşərgələrində militanlara aylarla kommunizm, dialektika Materializm və Darvinizm təhsili verməkdədir. Darvinin nəzəriyyəsi kommunizmin təsirindəki bu insanlara əslində bir heyvan olduqları və heyvanlar necə həyat üçün mübarizə edirlərsə onların da bu cür davranması lazım olduğu yalanını təlqin edər. Bundan ötəri bir çox gənc insan, asanlıqla cinayət işləyə bilən, uşaqlara və hətta körpələrə mərhəmətsizcə güllə sıxmaqdan çəkinməyən canilər halına gəlməkdədir.

Kommunist ideologiya bu şəkildə 20-ci əsr boyunca bir çox ölkədə partizan mübarizələrinə, qanlı terror hərəkatlarına və vətəndaş müharibələrinə səbəb olmuşdur. Məhz Darvinizmə qarşı fikri mübarizə bu baxımdan da əhəmiyyətlidir; əgər Darvinizmin etibarsızlığı ortaya çıxar və Darvinizm çökərsə onu təməl alan Marksist fəlsəfələr də onlara həyat sahəsi tapa bilməyəcəklər. Darvinizmin din əleyhinə kommunist ideologiya üzərində bu cur əhəmiyyətli təsiri varkən, ona veriləcək hər cür dəstəyin kommunizmə verilmiş bir dəstək mənasını verəcəyi açıqdır.

Xüsusilə də bəzi müsəlmanların etdiyi kimi Darvinizmi məqbul göstərməyə çalışmaq, onun guya dinlə uyğun gəldiyini, əslində Allahın canlıları təkamüllə yaratdığını (heç bir doğruluğu olmadığı halda) iddia etmək, kommunizmi də qanuni hala gətirmək deməkdir. Eyni şəkildə kommunistlər də din və Darvinizmin bir-birləriylə uyğun gəlmədiyini çox yaxşı bilərlər. Lakin Darvinizmi və kommunizmi daha geniş kütlələrə yaya bilmək məqsədiylə bu vəziyyətə səs çıxartmazlar. Əhəmiyyətli olan ilk addım olaraq Darvinizmə bir qapı aça bilməkdir. Sonrakı mərhələdə kommunizmin yayılması daha asan olacaq. Bir çox darvinistin təkamüllü yaradılışa inanan inanclı seqmentlərə tamaşaçı qalmasının altında yatan ana səbəb budur.

Halbuki kommunistlərin təkamül inancları, ideologiyalarına olan kor-koranə bağlılıqlarından qaynaqlanmaqdadır. Məsələn təkamülçü kimya professoru və DNT mütəxəssisi Robert Shapiro, təkamül nəzəriyyəsinin təməl iddiası olan, **"cansız maddələrin öz-özlərini təşkil edərək DNT və ya RNA-ni meydana gətirdikləri"** iddiasının heç bir elmi məlumata söykəndiyini açıqlayar və belə deyər:

Bizi sadə kimyəvi maddələrin var olduğu bir qarışıqdan, ilk təsirli replikator (DNT və ya RNA-yə) daşıyacaq təkamüllü qanuna ehtiyac vardır. Bu qanun "kimyəvi təkamül", ya da "maddənin özünü təşkil etməsi" olaraq adlandırılar, amma heç bir zaman ətraflı şəkildə təsvir edilməmiş, ya da varlığı göstərilə bilməmişdir. Belə bir prinsipin varlığına, dialektika materializmə olan bağlılıq uğuruna inanılar.[37]

Shapironun açıq şəkildə ifadə etdiyi kimi, təkamül nəzəriyyəsinin israrla müdafiə olunmasının ardında, materialist fəlsəfəyə olan doqmatik bağlılıq yatmaqdadır. Bu isə bizlərə, təkamül nəzəriyyəsinə veriləcək hər hansı dəstəyin, birbaşa materialist fəlsəfəni dəstəkləmək mənasını verəcəyini göstərər. Bir cəmiyyətdə materialist fəlsəfənin yayılması isə, qaçınılmaz olaraq kommunist ideologiyaya zəmin hazırlayar. Bu əlaqə, kommunist ideologiyanın Darvinizmdən bəsləndiyini açıq şəkildə ortaya qoymaqdadır.

Təkamül nəzəriyyəsinə dəstək verən müsəlmanların, bu həqiqət üzərində də düşünmələri lazımdır. 19-cu əsrdən bu yana hər zaman dinin ən şiddətli düşmənləri olan kommunistlərlə ortaq fikri, həm də **"kommunizmin guya elmi təməli"** olan bir fikri müdafiə etmək, əlbəttə bir müsəlmanın bu vəziyyətə düşməməsi gərəkən qəflətdir. Kommunizmin həqiqətdə ölmədiyini, bu gün dünyanın bir çox ölkəsində örtülü şəkildə yenidən təşkilatlandığını və dünyanı təhdid etmək üçün uyğun mühit gözlədiyini düşünsək, bu mövzunun əhəmiyyəti daha da açıq ortaya çıxar. (Ətraflı məlumat üçün baxın: *Kommunizm pusquda, Harun Yəhya)*

Darvin, Türk millətini özünə görə "aşağı irq" olaraq görməkdədir

Darvinin nəzəriyyəsini bizim tərəfimizdən əhəmiyyətli hala gətirən bir başqa həqiqət isə, bu nəzəriyyənin Türk milləti haqqında bəzi böhtanlar ehtiva etməsidir.

Darvinizmin Türk millətinə olan düşmənliyi, 19-cu əsr İngilis imperializmi ilə yaxından əlaqəlidir. O dövrdə İngiltərə Osmanlı İmperatorluğunu parçalama planları edərkən siyasi manevrlərin yanında **"psixoloji müharibə"** üsullarına da müraciət etmişdi. Bir çox şərhçinin ortaq qənaəti ilə **"İngilis imperializminin guya elmi spikeri"** olan Darvin, bu psixoloji müharibədə əhəmiyyətli rol boynuna götürdü. Nəcib Türk millətini özünə görə **"aşağı irq"** olaraq göstərərkən, eyni zamanda onu hədəf halına gətirdi. Darvin tarixə istiqamət vermiş, şanlı keçmişə sahib olan müsəlman Türk milləti üçün bunları söyləyirdi:

"Təbii seleksiyaya söykənən döyüşün, mədəniyyətin irəliləməsinə sizin zənn etdiyinizdən daha çox fayda təmin etdiyini və təmin etməkdə olduğunu isbat edə bilərəm. Düşünün ki, bir neçə əsr əvvəl Avropa Türklər tərəfindən işğal edildiyində Avropa millətləri nə qədər böyük risk altında qalmışdı, amma artıq bu gün Avropanın Türklər tərəfindən işğalı bizə nə qədər gülünc gəlir. Avropa irqləri olaraq bilinən mədəni irqlər, həyat mübarizəsində Türk barbarlığına qalib gəlmişlər. Dünyanın çox da uzaq olmayan bir gələcəyinə baxdığımda bu cür aşağı irqlərin çoxunun mədəniləşmiş yüksək irqlər tərəfindən ələnəcəyini (yox ediləcəyini) görürəm."[38]

Əlbəttə ki, Darvinin millətimiz haqqında sərf etdiyi bu həyasızca sözlərinin qəbulu mümkün deyil. Nə var ki, bu çirkin təbliğatın təsirində qalan millətlər, ya da şəxslər millətimizə qarşı təcavüzkar hərəkətlər etmişlər. Bu vəziyyət keçmişdə olduğu kimi dövrümüzdə də davam etməkdədir. Bəzi qərb ölkələrində hakim olan Türk düşmənliyinin təməlində Darvinin türkləri guya aşağı irq olaraq görən fikri yatmaqdadır. Necə ki, çox yaxın tarixlərdə belə bunun bir çox nümunəsi yaşanmışdır.

Almaniyada neo-nazilərin dəfələrlə təşkil etdikləri xain hücumlarda bir çox vətəndaşımız həyatını itirmiş, bir çoxu da yaralanmışdır. Bu neo-Nazi qrupları, Darvinin təkamül nəzəriyyəsini təməl fəlsəfələri olaraq görməkdə və Darvinin türklər haqqındakı sayıqlamalarını da qaynaq olaraq istifadə etməkdədirlər. Bu faşist təşkilatların internet saytlarında Darvinin yuxarıdakı sözünü tez-tez rast gəlmək mümkündür. Bu vəziyyətdə bu nəzəriyyəyə (üstəlik elm tərəfindən də rədd edildiyi halda) elmi həqiqət gözü ilə baxmaq, onun dinlə uyğunlaşa biləcəyini düşünmək, Quranda bu istiqamətdə heç bir dəlil olmadığı halda Allahın təkamüllə yaratmış ola biləcəyini iddia etmək millətimizə edilmiş böyük pislik olacaq. Belə bir anlayış yuxarıda saydığımız növdə irqçi hücumların da sürətlə artmasına da bir yol olacaq.

Həmçinin Darvinizm yalnız irqçi hücumlara zəmin hazırlamaqla kifayətlənmir, hər cür bölücü, dağıdıcı fəaliyyətə də imkan tanımaqdadır. **"Həyatın mübarizə olduğu"** yalanı, eyni ölkənin insanlarının qardaş kimi sülh içində yaşamaq yerinə polarizasiya, bir-birlərinə şiddət və kobud qüvvət tətbiqlərini, döyüşmələrini, ölmələrini və öldürmələrini qanuni hala gətirən bir arqument olmuşdur.

Halbuki özünü və hər şeyi Allahın yaratdığını, Allahın insana Öz ruhundan üflədiyini, dünyanın barış və qardaşlıq yeri olduğunu, bütün insanların bərabər olduğunu bilən, dünyada etdiyi hər şeyin axirətdə qarşılığını görəcəyini idrak edən bir insanın şiddətə yönəlməsi, insanların canına qəsd etməsi mümkün ola bilməz. Bunu ancaq təsadüfən meydana gəldiyini, heç kimə qarşı məsul olmadığını, öləndə də hesab verməyəcəyini düşünən, dünyanın savaş meydanı olduğuna inanan insanlar edə bilərlər.

Bu səbəblə inanclı insanların Darvinizmə gözü bağlı dəstək vermək yerinə əvvəl vicdanlarıyla düşünmələri, elmin belə qəbul etmədiyi bu nəzəriyyəni müdafiə etmənin nələrə yol açacağını anlamaları lazımdır. Darvinizmin gərək dünya insanlarına, gərəksə zadəgan Türk millətinə verdiyi zərərlər ortadadır. Bununla birlikdə insanları sürüyə biləcəyi bəlalar, çətinliklər və qarışıqlıqlar da uzun illər boyunca təcrübə edilmişdir. Bu hissə boyunca izah edildiyi kimi, insanları xurafatlara, ağılsızlıqlara, məntiqsizliklərə sürüməsi və onları səmimiyyətsiz bir quruluşa itələməsi də Darvinizmin təhlükə olaraq görülməsi üçün kifayətdir.

III HİSSƏ: ALLAHIN YARATMA ELMİ

Kitabın əvvəlindən bu yana **"Allahın canlıları təkamüllə yaratdığı"** iddiasıyla ortaya çıxanların içində olduqları böyük yanılmanı araşdırdıq. Bu kəslər digər təkamülçülər kimi birbaşa **"canlılar təsadüfən meydana gəlmişdir"** deməz, ancaq Allahın təkamüllə yaratdığı yanılmasını müdafiə edərək, Darvinizmə bəzi nöqtələrdə (istəyərək, ya da istəməyərək) dəstək verərlər. Onların bu səhv dünyagörüşlərinə görə Allah canlı növlərini yaradarkən mutasiya və təbii seleksiya kimi təkamül mexanizmlərini istifadə etmişdir və bu heç bir dayağı olmayan bir iddiadır.

Ancaq əvvəlki hissələrdə ifadə etdiyimiz kimi, nə təbii seleksiyanın, nə də mutasiyanın yeni bir canlı növü meydana gətirmədiyi, yəni təkamülləşdirici bir gücü olmadığı elmi inkişaflarla ortaya çıxmışdır. Təkamüllü yaradılış yanılmasını müdafiə edənlərin iddiasına görə isə (bu heç bir şəkildə doğru deyil) Allah canlıların genetik strukturlarında mutasiyalar yoluyla bəzi dəyişmələr meydana gətirməkdə və beləcə onlara faydalı orqanlar qazandırmaqdadır. Ya da yenə bu həqiqətdən kənar iddiaya görə Allah əvvəl primitiv canlılar yaratmaqda, sonra onları kompleks canlılar halına gətirmək, onları mükəmməlləşdirmək üçün təbii seleksiyanı istifadə etməkdədir. Təbii seleksiya mexanizmiylə bir canlıya orqan əlavə etməkdə, ya da əvvəldən yaratdığı bir orqanı rudiment edərək, çıxarmaqda, bir növü bir başqa növə çevirməkdədir (Allahı tənzih edərik). Halbuki bu iddialar həm elmi olaraq etibarsızdır, həm də Qurana uyğun deyil.

Təkamül nəzəriyyəsini dəstəkləmək istəsə, elmi inkişaflardan xəbərsiz olan bir insan belə yanlış nəticələr əldə edə bilər. Ancaq bu iddia elmi həqiqətlərə tamamilə ziddir. Üstəlik irəliləyən hissələrdə də toxunulacağı kimi, Quranda bu şəkildə bir yaratma hərəkətindən bəhs edilməməkdədir.

Bir nöqtəni ifadə etmək lazımdır: Əlbəttə ki, Allah diləsəydi canlıları təkamüllə də yarada bilərdi. Ancaq Quranda bu istiqamətdə bir məlumat yoxdur, təkamülçülərin qarşıya qoyduğu kimi növlərin mərhələ-mərhələ meydana gəlməsini dəstəkləyəcək tək bir ayə belə yoxdur. Elm də bu iddiaların etibarsızlığını ortaya qoymaqdadır. Vəziyyət bu qədər açıq şəkildə ortadaykən,

təkamül nəzəriyyəsini müdafiə etmənin müsəlmanlar baxımından açıqlana bilər bir istiqaməti yoxdur. Tək səbəb isə ilk hissədə də vurğuladığımız kimi məlumat əksikliyi, təkamülçülər qarşısında duyulan psixoloji əzikliklər və təkamülçülərin əksəriyyət olduqları üçün haqlı olduqlarını zənn etmə bənzəri yanılmalardır.

Allah bütün kainatı yoxdan var edəndir

Allah dilədiyini, dilədiyi şəkildə və zamanda, nümunəsiz olaraq yaradan, yoxdan var edəndir. Hər cür əskiklikdən uzaq olan, heç bir şeyə ehtiyac duymayandır. Bu səbəbdən Allahın yaratması üçün də heç bir səbəbə, vasitəyə, mərhələyə ehtiyac yoxdur. Dünyada hər şeyin müəyyən səbəblərə, təbiət qanunlarına bağlı olması kimsəni yanıltmamalıdır. Allah, bütün bu səbəblərin yaradıcısı olaraq bunlardan tamamilə münəzzəhdir.

Göylərin və yerin Rəbbi olan Allah, dilədiyi təqdirdə bu səbəbləri də ortadan qaldıra bilər. Məsələn Allah diləsə insanları ağciyərə ehtiyac duymadan, havadan oksigen tənəffüs etmələrinə gərək olmadan həyatda qalacaqları şəkildə də yarada bilər. Bu səbəbdən Allahın bir ağciyəri zaman ərzində təkamülləşdirərək mükəmməl hala gətirməyə, ya da bir başqa mexanizm meydana gətirməyə ehtiyacı yoxdur. Buna görə insanın Allahın böyüklüyünü, gücünü düşünərkən də öz hisslərinin və ağılının sərhədləriylə düşünməsi çox böyük səhv olar. Biz onsuz da Allahın dilədiyi ölçüdə bilə bilər, dilədiyi qədərindən xəbərdar ola bilərik.

Bunu da ifadə etmək lazımdır: Allah diləsə yaratmada müəyyən mərhələlər istifadə edə bilər. Məsələn bitkini toxumdan çıxarar və ya insanı tək bir sperma ilə yumurta hüceyrəsinin birləşməsindən, mərhələ-mərhələ yaradar. Lakin bu mərhələlərin (irəlidə də geniş araşdıracağımız kimi) təkamül iddiası ilə heç bir əlaqəsi yoxdur. Heç bir mərhələdə təsadüfə, başıboşluğa yer yoxdur ki, təkamül nəzəriyyəsinin təməl iddiası təsadüfi, şüursuz təsadüflərlə, öz-özünə meydana gələn hadisələrdir. Bir bitkinin inkişafının hər mərhələsi və ya bir hüceyrənin **"ən yaxşı şəkildə"** yaradılan bir insana çevrilməsi Allahın sonsuz qüdrəti ilə yaradılan mükəmməl sistemlər vasitəsilə həyata keçirilir.

Allah yerləri, göyləri və ikisi arasındakı hər şeyi, bütün canlıları yalnız diləmiş və yaratmışdır. Bu, Allah üçün son dərəcə asandır. Quranda da bu həqiqətə işarə edilmiş və Allahın yaradılışı haqqında bunlar bildirilmişdir:

Göyləri və yeri haqq olaraq xəlq edən Odur. O: "Ol!" – dediyi gün hər şey olar. Onun Sözü haqdır... (Ənam surəsi, 73)

Biz bir şeyi yaratmaq istədikdə, ona ancaq: "Ol!" – deyirik, o da olur. (Nəhl surəsi, 40)

Dirildən də, Öldürən də Odur. O, bir şeyin olmasını istədikdə ona ancaq: "Ol" – deyir, o da olur. (Mömin surəsi, 68)

Allah üçün **"yaratmaq"** son dərəcə asandır. Bunun üçün ayələrdə bildirildiyi üzrə, yalnız **"Ol"** əmrini verməsi, yəni diləməsi kifayətdir. Quranda Allahın kainatı və canlıları mükəmməl şəkildə yaratdığı bir çox ayədə bildirilməkdədir. Bu vəziyyətdə inanclı şəxslərin bu açıq həqiqətə qarşı məcburi izahlar gətirmələri, **"Allah canlıları təkamüllə yaratmışdır"**, **"yaradarkən mutasiyaları, təbii seleksiyaları, meymundan insana keçid mərhələlərini istifadə etmişdir"** şəklində əsassız iddialar etmələri böyük yanılmadır. Quranda bu istiqamətdə heç bir izah olmadığı, elmi dəlillər də bunu rədd etdiyi halda məcburi izahlarla, bəlkə də təkamülçülər tərəfindən qəbul olunmaq ümidiylə bunu etmələri çox səhv olar.

Allah kainatdakı bütün qanunları Özü qurar və onları istədiyi şəklə salar. Allah dilədiyini dilədiyi anda reallaşdırandır. Allah göydə və yerdə olan hər şeyi qucaqlayıb əhatə edən, hər şeyə qüdrəti ilə hakim olandır. Bəzi insanlar isə Allahın gücünü qavraya bilmir, Onu öz məhdud ağıllarıyla

qiymətləndirməkdədirlər. Allah Quranda bu insanların varlığını belə xəbər vermişdir:

Onlar: "Allah insana heç bir şey nazil etməmişdir" – deməklə Allahı layiqincə qiymətləndirmədilər... (Ənam surəsi, 91)

Onlar Allahı lazımınca qiymətləndirmədilər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir! (Həcc surəsi, 74)

Onlar deyəcəklər: "Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allaha həmd olsun! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!"

(Zumər surəsi, 67)

Təkamüllü yaradılışı müdafiə edənlərin əksinə, Allah əvvəl meymunu yaradıb, sonra onları qüsurlu və əksik orqanlı keçid formalarından təkamülləşdirərək insanı formalandırmamışdır. Allah insanları ən gözəl surətdə yoxdan yaratmışdır. Bu həqiqət Quranda belə bildirilər:

Biz insanı ən gözəl surətdə yaratdıq! (Tin surəsi, 4)

O, göyləri və yeri ədalətlə yaratdı, sizə surət verib onları gözəl şəklə saldı. Dönüş də Onadır.

(Təğabun surəsi, 3)

Yuxarıdakı ayələr insanı mükəmməl şəkildə, yəni indiki halıyla bir anda yaradanın Allah olduğunun dəlillərindəndir. Halbuki təkamülçülərin iddia etdikləri ara-keçid formaları ayədəki ifadənin tam tərsinə çirkin bir quruluş sərgiləməkdədirlər. İnanclı insanların təkamül nəzəriyyəsinə ehtimal vermədən əvvəl bu həqiqəti də nəzərdən keçirmələri lazımdır. Allah bütün canlıları təkamülə gərək olmadan birdən-birə və mükəmməl bir şəkildə yaratmışdır. Quranda bu açıq həqiqət belə bildirilməkdədir:

O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şənina tərifər deyir. O, Qüdrətlidir, Müdrikdir. (Həşr surəsi, 24)

Allah üçün yaratmanın nə dərəcə asan olduğu Quranda belə bildirilmişdir:

Göyləri və yeri yaradan onların eynisini yenidən xəlq etmək qüdrətinə malik olmazmı?! Şübhəsiz ki, O, Yaradandır, Biləndir. (Yasin surəsi, 81)

Sizi yaratmaq və diriltmək ancaq bir adamı yaratmaq və diriltmək kimidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir. (Loğman surəsi, 28)

ALLAHIN FƏRQLİ YARATMA ŞƏKİLLƏRİ

Təkamüllü yaradılış yanılmasına inanan kütlələrin nəzərdən qaçırdıqları bir başqa əhəmiyyətli mövzu da Allahın fərqli yaratma şəkilləridir. Allah insandan və heyvandan çox fərqli yaradılışa sahib canlıları da var etmişdir. Mələklər və cinlər bu canlıların əvvəlində gəlməkdədir. İrəliləyən səhifələrdə, Allahın Quranda bildirdiyi yaradılış şəkillərindən bəzisinə yer verilməkdədir.

İki, üç, dörd qanadlı mələklər

Mələklər Allahın əmrindən çıxmayan varlıqlardır. Ayələrdə mələklərin yaradılışı bu şəkildə bildirilər:

Göyləri və yeri Yaradan, mələkləri iki, üç və dörd qanadlı elçilər edən Allaha həmd olsun! O, xəlq etdiklərindən istədiyini artırır. Həqiqətən, Allah hər şeyə qadirdir. (Fatır surəsi, 1)

Ayədə keçən ifadədən də aydın olduğu üzrə, mələklər görünüş etibarilə insanlardan çox fərqlidirlər. Necə ki, Allah yuxarıdakı ayədə **"xəlq etdiklərindən istədiyini artırır"** ifadəsiylə də fərqli yaradılış şəkilləri olduğunu xəbər vermişdir.

Mələklərin Allahın əmrində və Allaha qarşı itaətli varlıqlar olduqları isə ayələrdə belə bildirilər:

Göylərdə və yerdə olanların hamısı, heyvanlar da, mələklər də təkəbbür göstərmədən Allaha səcdə edirlər. Onlar özlərinin fövqündə olan Rəbbindən qorxur və onlara əmr olunanları yerinə yetirirlər. (Nəhl surəsi, 49-50)

Nə İsa Məsih Allahın qulu olmağı özünə ar bilər, nə də Allaha yaxın olan mələklər. Allah Ona ibadət etməyi özlərinə ar bilənlərin və təkəbbürlük göstərənlərin hamısını Öz hüzuruna toplayacaqdır. (Nisa surəsi, 172)

Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun! Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə heç vaxt asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır. (Təhrim surəsi, 6)

Mələklərlə əlaqədar bilinməsi lazım olan bir başqa əhəmiyyətli həqiqət isə insandan əvvəl mələklərin yaradılmış olmasıdır. Necə ki, Allah ilk insan olan hz. Adəmi yaradacağı zaman bunu mələklərə bildirmiş və onlara hz. Adəmə səcdə etmələrini əmr etmişdir.

Eyni zamanda Allah hz. Adəmə mələklərdən fərqli elm vermiş və ona əşyanın adlarını öyrətmişdir. Mələklər isə bu elmi bilməməkdədirlər. Bütün bu həqiqətlər Quranda belə bildirilməkdədir:

Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir canişin bərqərar edəcəyəm!" – dedikdə, onlar: "Biz Səni həmd-səna ilə tərifləyiyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada fəsad törədib qan salacaq bir kəsmi yerləşdirəcəksən?" – söylədilər. O dedi: "Şübhəsiz ki, Mən sizin bilmədiklərinizi biliram!" Allah Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları mələklərə göstərib dedi: "Doğru danışanlarsınızsa, bunların adlarını Mənə deyin!" Onlar dedilər: "Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən!" Allah dedi: "Ey Adəm, bunların adlarını onlara bildir!" O, bunların adlarını onlara bildirdikdə Allah dedi: "Mən sizə demədim ki, göylərdə və yerdə olan qeybi, aşkara çıxartdığınızı və gizli saxladığınızı biliram?" Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!" – dedikdə, İblisdən başqa hamısı səcdə etdi. O imtina edib təkəbbür göstərdi və kafir oldu.

(Bəqərə surəsi, 30-34)

Atəşdən yaradılan cinlər

Mələklər kimi cinlər də insanlardan fərqli yaradılışa sahibdirlər. Allah insanın palçıqdan, cinlərin isə atəşdən yaradıldığını aşağıdakı ayələrdə belə xəbər verər:

Biz insanı başqa şəklə düşmüş qara palçıqdan, toxunduqda saxsı kimi səs çıxaran quru gildən yaratdıq. Cinləri isə daha önca qızmar alovdan yaratmışdıq. (Hicr surəsi, 26-27)

O, insanı saxsı kimi quru gildən yaratdı, cinləri də təmiz oddan yaratdı. (Rəhman surəsi, 14-15)

Allah Quranda insanların və cinlərin yaradılış məqsədlərini də bildirməkdədir. Mövzuyla əlaqədar ayə belədir:

Mən, cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım. (Zariyat surəsi, 56)

Açıq şəkildə görüldüyü kimi, insanlar və cinlər fərqli varlıqlardır. Yaradılış məqsədləri isə eynidir; yalnız Allaha ibadət etmək. Allah həm mələklərin, həm də cinlərin insanlardan fərqli yaradılış xüsusiyyətlərinə sahib olduqlarını Quranın bir çox ayəsində bildirilmişdir. Məsələn ayələrdə cinlərin əşya nəql edə bilmə xüsusiyyətləri xəbər verilməkdədir:

Süleyman dedi: "Ey ayanlar! Onlar müti olaraq yanıma gəlməmiş hansınız onun taxtını mənə gətirə bilər?" Cinlərdən çox qüvvətli birisi dedi: "Sən məclisdən qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə çox qüvvətliyəm, etibarlıyam!"

(Nəml surəsi, 38-39)

Quranda xəbər verilən bir başqa məqam isə eyni mələklərdə olduğu kimi cinlərin də insandan əvvəl yaradılmış olmalarıdır. Çünki Allah hz. Adəmi yaratdığı zaman mələklərə və İblisə ona səcdə etmələrini əmr etmişdir. Ardından da İblisin cinlərdən olduğunu belə açıqlanar:

Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!" – demişdik. İblisdən başqa hamısı səcdə etdi. İblis cinlərdən idi. O, Rəbbinin əmrinə boyun əymədi. Onlar sizin düşmənniz olduğu halda, siz Məni qoyub onu və onun nəslini özünüzə dostmu tutursunuz? Zalımlar üçün bu necə də yaraşmaz mübadiladir! (Kəhf surəsi, 50)

Allah üçün yaratmaq çox asandır, heç bir səbəbə ehtiyac duymadan yoxdan var edəndir. Cinləri və mələkləri necə fərqli şəkillərdə və yoxdan var etdisə, insanı da təkamülə gərək olmadan, ayrı varlıq olaraq yoxdan var etmişdir. Eyni vəziyyət heyvanlar və bitkilər kimi digər canlılar üçün də etibarlıdır. Allah bu canlıların heç birini təkamülləşdirmədən, yəni növləri başqa növlərə çevirmədən bir anda yoxdan var etmişdir. Hər biri Allahın qüdrəti və hakimiyyətiylə meydana gətirdiyi qüsursuz sistemlərin bir nəticəsidir.

Mələklər və cinlər bizdən fərqli bir ölçüdə yaşamaqdadır və o ölçünün fizika qaydaları bizim bağlı olduğumuz fizika qaydalarından fərqlidir. Bu fərqlilik, təkamüldən başqa variant olmadığı tabusunda israr edənlərə də əhəmiyyətli bir cavabdır. Çünki bu şəxslər, Allahı və gücünü məhdud düşünə bildikləri üçün, bir anda var olmağı yəni yaradılmağı çətin görməkdədir. Onların dar qəlbli düşüncələrinə görə insan və dünyadakı digər canlılar ancaq mərhələ-mərhələ müddətlərdən keçərək bugünkü halına gələ bilmişdir. Halbuki, Allah mələkləri və cinləri necə bir anda bir başqa ölçüdə tam fərqli fizika qaydalarıyla var edirsə, insanı, pişikləri, dovşanları, çiyələkləri, bananları, çobanyastığıları bir anda bu dünyaya xas fizika qaydalarıyla var etmişdir. Elm də bu bir anda var olmanın, yəni yaradılışın müzakirəsiz olduğunu ortaya qoymuşdur.

Allah Quranda yaratma qüdrətinin nümunələri olaraq mələklər və cinlərin yanında hz. İsanın palçıqdan düzəltdiyi quşun canlanması və hz. Musanın əsasının canlı ilana çevrilməsini də nümunə vermişdir. Allah dilədiyi təqdirdə bir palçıq parçası canlı uçan bir quşa, bir taxta parçası ətrafındakıları uda bilən həzm sistemi olan bir ilana çevrilməkdədir. Bu məlumatlar, *"Müddətlə yaratmaq Allahın Sünnetullahıdır, Allah təkamüllə yaratmışdır"* deyənlərin iddiasını bir dəfə daha etibarsız edər. Allah dilədiyini, dilədiyi anda, dilədiyi şəkildə yaratma gücünə malikdir. "**Ol**" əmriylə hər şeyi var edəndir.

Həzrəti İsanın palçıqdan hazırladığı quşun canlanması

İsa peyğəmbər, ayədə bildirildiyi kimi "**...O, bu dünyada və axirətdə şan-şöhrətli və Allaha yaxınlaşdırılmışlardan olacaqdır.**" (Ali İmran surəsi, 45) Allah hz. İsaya dünya həyatında müxtəlif möcüzələr lütf etmişdir. Atasız olaraq dünyaya gəlmiş, beşikdə ikən danışmış və xəstələri möcüzəvi şəkildə yaxşılaşdırmışdır.

Həmçinin hz. İsa palçıqdan quş formasında bir şey düzəldib, onun içinə üfürdüyündə quş Allahın diləməsiylə həyat tapmış, canlanmışdır. Bu həqiqət Quranda belə bildirilməkdədir:

Allah onu İsrail oğullarına bir elçi edəcəkdir. O deyəcəkdir: "Mən sizə Rəbbinizdən elçi olduğumu təsdiqləyən bir əlamət gətirdim. Mən sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, o da Allahın izni ilə quş olar...

(Ali İmran surəsi, 49)

Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və ananə olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə yazmağı, hikməti, Tövratı və İncili öyrətmişdim. Sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu... (Maidə surəsi, 110)

Bu quş, heç bir səbəbə bağlı olmadan, Allahın diləməsi və möcüzəsiylə, canlanmışdı. Cansız bir maddədən can sahibi olan quş, Uca Allahın nümunəsiz, səbəbsiz, üstün yaradılışının nümunələrindən biridir. Hz. İsa da, Allahın lütf etdiyi bu möcüzəylə, təkamülçü düşüncənin məntiqsizliyini və etibarsızlığını gözlər önünə sərməkdədir. Bu, Allahın bir möcüzəsi və təkamülə inanan bəzi müsəlmanların nəzərdən qaçırdıqları əhəmiyyətli bir həqiqətdir.

Buna çox bənzər bir başqa nümunə isə hz. İbrahimlə əlaqədar bir hadisənin xəbər verildiyi bir ayədə keçməkdədir. Aşağıdakı ayədə də Allahın cansız varlıqlara möcüzəvi şəkildə can verdiyi bildirilməkdədir. Allah yaratmaq üçün heç bir səbəbə ehtiyac duymayandır.

Bir zaman İbrahim: "Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!" – dedi. Rəbbi ona: "Məgər sən inanmırsan?" – dedi. İbrahim dedi: "Əlbəttə inanıram! Amma istəyirəm ki, qəlbim rahat olsun". Allah buyurdu: "Quşlardan dördünü tut və onları özünə tərəf çəkib tikə-tikə et. Sonra hər dağın başına onlardan bir parçə qoy, sonra da onları çağır, tez sənin yanına gələcəklər. Bil ki, Allah Qüdrətlidir, Müdrikdir!" (Bəqərə surəsi, 260)

Həzrəti Musanın əsasının ilan olması

Allah hz. Musaya da hz. İsa kimi möcüzələr vermişdir. Bilindiyi kimi hz. Musa, Allahın icazəsiylə dənizi yarıb qövmünü Fironun ordusundan qurtarmışdır. Həmçinin yenə hz. Musanın əsası da Allahın icazəsiylə bir ilan halına gəlmişdir. Bu həqiqət Quranda belə bildirilməkdədir:

Sağ əlindəki nədir, ey Musa?" Musa dedi: "Bu mənim əsamdır. Ona söykənir və onunla qoyunlarıma yarpaq silkələyirəm. Bu, mənim üçün başqa işlərə də yarıyır". Allah buyurdu: "At onu yerə, ey Musa!" Musa onu yerə atdı və o, dərhal ilan olub sürətlə sürünməyə başladı. Allah buyurdu: "Götür onu, qorxma! Biz onu əvvəlki halına qaytaracağıq. (Taha surəsi 17-21)

Hz. Musanın əsasının nümunəsi də hz. İsanın palçığı quşa çevirməsi nümunəsində olduğu kimi, Allahın səbəbsiz bir şəkildə canlı meydana gətirə bildiyinin ən böyük dəlillərindən biridir. Hz. Musa əlindəki əsasını yerə atdığı anda, Allahın lütfüylə, cansız bir odun parçası, sürətlə hərəkət edən, digər insanların ortaya atdıqlarını udan, yəni həzm sistemi də olan tamamilə canlı varlığa çevrilməkdədir. Beləcə Allah insanlara canlılığın necə yoxdan var edildiyinin bir nümunəsini göstərməkdədir. Cansız bir maddə, yalnız Allahın diləməsiylə, yəni "Ol" əmriylə can tapmaqdadır. Allahın Hz. Musaya lütf etdiyi bu möcüzə, qədim misirlilərin batil təkamül inanışlarını bir dəfəyə yerlə bir etmiş, hz. Musaya qarşı olan insanlar belə dərhal həmin an həqiqəti qavrayıb, batil inanışlarını buraxıb, Allaha iman etmişlər.

Allah üçün yaratmaq çox asandır, O, heç bir səbəbə ehtiyac duymadan yoxdan var edəndir. Cinləri və mələkləri necə fərqli şəkillərdə və yoxdan var etdisə, insanı da təkamülə gərək olmadan, ayrı varlıq olaraq yoxdan var

etmişdir. Eyni vəziyyət heyvanlar və bitkilər kimi digər canlılar üçün də etibarlıdır. Allah bu canlıların heç birini təkamülləşdirmədən, yəni növləri başqa növlərə çevirmədən bir anda yoxdan var etmişdir.

Bunun üçün ayələrdə bildirildiyi üzrə, yalnız "Ol" əmrini verməsi, yəni diləməsi kifayətdir:

Göyləri və yeri haqq olaraq xəlq edən Odur. O: "Ol!" – dediyi gün hər şey olar. Onun Sözü haqdır... (Ənam surəsi, 73)

Biz bir şeyi yaratmaq istədikdə, ona ancaq: "Ol!" – deyirik, o da olur. (Nəhl surəsi, 40)

Dirildən də, Öldürən də Odur. O, bir şeyin olmasını istədikdə ona ancaq: "Ol" – deyir, o da olur. (Mömin surəsi, 68)

Bu vəziyyətdə inanclı insanların bu açıq həqiqətə qarşı məcburi izahlar gətirmələri, "**Allah canlıları təkamüllə yaratmışdır**", "**yaradarkən mutasiyaları, təbii seleksiyaları, meymundan insana keçid mərhələlərini istifadə etmişdir**" şəklində əsassız iddialarda olmaları böyük səhvdir.

Hz. Zəkəriyyanın sonsuz həyat yoldaşından uşağının olması

Quranda nümunə verilən möcüzəvi yaradılış şəkillərindən biri də hz. Zəkəriyyanın həyat yoldaşı sonsuz ikən bir uşaq ilə müjdələnilməsidir. Ayələrdə bu şəkildə buyurulmaqdadır:

Ona belə vəhy olundu: "Ey Zəkəriyyə! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı ondan önca kimsəyə qoymamışıq!" O dedi: "Ey Rəbbim! Zövcəm sonsuz bir qadın ikən, özüm də qocalığın son həddində olduğum halda necə mənim övladım ola bilər?" Mələk dedi: Bu, beladir...

(Məryəm surəsi, 7-8)

...Lakin Rəbbin buyurdu: "Bu Mənim üçün asandır. Axı əvvəlcə sənin özünü də sən heç bir şey deyilkən xəlq etmişdim!" (Məryəm surəsi, 9)

Cənnət və Cəhənnəmdə də təkamüllə yaradılış yoxdur

Uca Allah, insanları ölümlərindən sonra, axirət həyatlarına uyğun olaraq yenidən və fərqli şəkildə yaradacağını bildirmişdir. İnsanlar dünyada təkamül olmadan yaradıldıqları kimi, axirət həyatları üçün də hər hansı təkamül

müddəti yaşanmadan, Allahın "Ol" əmriylə, bir anda dirildiləcəklər. Eyni şəkildə Uca Rəbbimiz, insanlar kimi, cənnət və cəhənnəmdəki bütün varlıqları da təkamül ilə yaratmamışdır. Ayələrdə bildirilən cəhənnəm gözətçiləri, zəbanilər və cənnətdəki hurilər də Uca Rəbbimizin heç bir səbəb olmadan yoxdan var etdiyi varlıqlardır. Quranda bəhs edilən, insanın ölümdən sonra yenidən yaradılışı və axirətdəki varlıqlarla əlaqədar ayələrdən bəziləri bu şəkildədir:

Onlar işlətdikləri pis əməllərin cəzasına çatdılar. Bunlardan zalım olanlara da qazandıqları günahların cəzası yetişəcək və onlar qaçıb canlarını qurtara bilməyəcəklər. Məgər onlar bilmirlərmi ki, Allah istədiyinin ruzisini bol edir, istədiyinə də onu azaldır? Həqiqətən, bunda iman gətirən qövm üçün ibrətlər vardır. Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!" (Zumər surəsi, 51-53)

Həqiqətən biz onları yeni biçimdə yaradacağıq (Vaqiə surəsi, 35)

Qalu Bəla həqiqəti və yaradılış

Quranda bildirilən və İslam alimlərinin "Qalu Bəla" olaraq təyin etdikləri hadisə də təkamüllü yaradılış müdafiəçilərinin yalanlarını ortaya qoymaqdadır. Uca Rəbbimiz, Əraf surəsinin 172-ci ayəsində bu şəkildə buyurmaqdadır:

Bir zaman Rəbbin Adəm oğullarının bellərindən onların törəmələrini çıxarmış və: "Mən sizin Rəbbiniz deyiləmmi?" – deyə onları özlərinin əleyhinə şahid tutmuşdu. Onlar: "Bəli, biz şahid olduq!" – demişdilər. Bu ona görədir ki, siz Qiyamət günü: "Biz bundan xəbərsiz idik!" – deməyəsiniz. (Əraf surəsi, 172)

Görüldüyü kimi, insanın yaradılışı mövzusu bütün ayələrdə olduğu kimi, bu ayədə də təkamüllə olan yaradılışdan bəhs edilməməkdədir.

QURANDA DİRİLMƏ NÜMUNƏLƏRİ

Yaratma da, diriltmə də tamamilə Allahın əlindədir və Allahın, eyni yaratmada olduğu kimi diriltmədə də bir səbəbə ehtiyacı yoxdur. Bunun Quranda bir çox nümunəsi vardır.

Quranda bildirildiyi kimi, insan ölüb torpağa qarışdıqdan sonra axirət günündə yeni bir yaradılışla dirildiləcək. Ayələrdə bu şəkildə bildirilər:

Bu, ayələrimizi inkar etdiklərinə və: "Məgər biz sür-sümük və ovuntu olduğumuz halda yeni bir məxluq olaraq dirildiləcəyik?" – dediklərinə görə onların cəzasıdır. Məgər onlar görmürlər ki, göyləri və yeri yaradan Allah onlar kimisini də yaratmağa qadirdir? Allah onlar üçün elə bir əcəl müəyyən etmişdir ki, ona heç bir şəkk-şübhə yoxdur. Zalımlar isə küfrdən başqa bir şey qəbul etmədilər. (İsra surəsi, 98-99)

Ayələrdə də görüldüyü kimi, inkar edənlər, insanların ölüb, torpaq olduqdan sonra yenidən yaradılacaqlarına inanmamaqdadırlar. Bu nümunə təkamül nəzəriyyəsinin içində olduğu vəziyyəti də yekunlaşdırmaqdadır. Çünki qiyamət günündə insanların bədənlərini yoxdan var edəcək olan Rəbbimiz, ilk insan olan hz. Adəmi də yoxdan var etmişdir. Bu ayələr Qurana inanan, ancaq təkamül düşüncəsini müdafiə etmədə israrlı davranan insanlar üçün də çox böyük əhəmiyyət daşımaqdadır.

Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz. (Ənam surəsi, 94) ayəsi ilə də insanın axirət günündə yenidən yaradılışına işarə etməkdədir. Ayədə insanların axirətdəki yaradılışlarının **"ilk yaradılışları"** kimi olduğu

açıqlanmaqdadır. Ölüb torpaq halına gələn insan, axirətdə yenidən bir yaradılışla yoxdan yaradılacaq və insan halında olacaq. Bu səbəbdən insanın ilk yaradılışı da buna bənzəyir və mərhələ-mərhələ deyil, bir anda, möcüzəvi şəkildə reallaşmışdır.

Quranda yenidən dirilmə ilə əlaqədar daha bir çox nümunə var. Məsələn hz. Musanın qövmünə Allah belə bir hadisə yaşatmışdır. Allah bu qövmü öldürüb, sonra da diriltmişdir. Bu hadisə Quranda belə izah edilər:

O zaman siz: "Ey Musa! Biz Allahı açıq-aşkar görməyincə sənə iman gətirməyəcəyik!" - dediniz və gözünüz görə-görə sizi ildırım vurdu.Ölümünüzdən sonra Biz sizi diriltdik ki, bəlkə şükür edəsiniz. (Bəqərə surəsi, 55-56)

Qurandakı hekayələrdən birində isə bir başqa ölüb-dirilmə nümunəsi bildirilməkdədir. Hz. Musanın qövmünün başına gəldiyi bildirilən bu hekayədə, Allah bu insanlara öldürdükləri cəsədə daha əvvəldən kəsdikləri inəyin bir parçasıyla vurmalarını əmr etmişdir. Allah, bunu ayədə də ifadə edildiyi kimi, bu insanlara ölüləri diriltdiyini göstərmək və onların imanlarını sağlamlaştırmaq üçün etmişdir. Bu açıq-aşkar bir möcüzədir. Ancaq ayənin davamında da görüləcəyi kimi, bu möcüzənin ardından bu insanalrın ürəkləri yenə qatılaşmışdır. Bu hadisə Bəqərə surəsində belə izah edilər:

O zaman siz bir nəfəri öldürmüşdünüz və onun qatili barəsində mübahisə edirdiniz. Allah isə sizin gizlətdiklərinizi aşkara çıxarar. Biz dedik: "İnəyin bir parçasını ona (ölüyə) vurun!" Allah ölüləri bu cür dirildir və Öz ayələrini sizə göstərir ki, bəlkə anlayasınız. Sonra bunun ardınca sizin qəlbləriniz sərtləşib daş kimi, hətta ondan da sərt oldu. Həqiqətən, daşlardan elə var ki, içərisindən çaylar qaynayıb çıxar. Onlardan elə də var ki, yarılar, içərisindən su çıxar. Elə də var ki, Allahın qorxusundan yuvarlanıb yerə düşər. Allah sizin nə etdiklərinizdən xəbərsiz deyildir.

(Bəqərə surəsi, 72-74)

Digər bir nümunəni də Allah belə bildirmişdir:

Allah Öz ayələrini sizə belə bəyan edir ki, bəlkə başa düşəsiniz. Minlərlə adam olduqları halda ölüm qorxusundan yurdlarından çıxanları görmədinmi? Allah onlara: "Ölün!" – dedi. Sonra isə onları diriltdi. Doğrudan da, Allah insanlara qarşı lütfkardır, lakin insanların çoxu buna şükür etmir.

(Bəqərə surəsi, 242-243)

Bu mövzuda Quranda verilən bir başqa nümunə isə öldükdən sonra dirilməyə inanmayan bir adamın vəziyyətidir. Ayələrdə bildirildiyi üzrə Allah bu adamı yüz il ölü buraxmış və sonra da diriltmişdir. Ancaq aradan yüz il

keçməsinə baxmayaraq bu adam özünün bir gün, ya da bir gündən az qaldığını düşünmüşdür. Gerçəyin özünə xəbər verilməsi qarşısında bu adam iman etmişdir. Quranda bu hadisə belə bildirilər:

Və ya damları uçulub xarabalığa çevrilmiş bir kəndin yanından keçən kimsənin hekayətini bilmirsənmi? O demişdi: "Allah bu kəndi ölümündən sonra necə dirildəcək?" Allah onu öldürüb yüz il saxladı, sonra da dirildib dedi: "Nə qədər qaldın?" O dedi: "Bir gün yaxud bir gündən də az qaldım!" Allah dedi: "Əksinə, sən yüz il qaldın. Öz yeməyinə və içdiyin suya bax, hələ də xarab olmayıb. Uzunqulağına da bax! Biz səni insanlar üçün bir dəlil etdik. Sümüklərə bax, gör Biz onları necə bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük". Ona həqiqət bəlli olduqda: "Mən artıq bilirəm ki, Allah hər şeyə qadirdir!" – dedi. (Bəqərə surəsi, 259)

Bu mövzuda Quranda verilən nümunələrdən biri də Kəhf Əhlidir. Bu hekayəni digərlərindən ayıran fərq, Kəhf Əhlinin öldürülməməsi, yalnız bir insanın normal ömründən daha uzun sürən yuxuya getmələridir.

İnanclı gənclərdən ibarət olan Kəhf Əhli (mağara sahibləri), içində yaşadıqları qövm Allaha şirk qoşaraq, Allahdan başqa ilahlar əldə etdiyi üçün qövmlərindən uzaqlaşıb, bir mağaraya sığınmışlar. Ancaq Allah Kəhf Əhlinə üç əsrdən çox sürən yuxu vermiş və beləcə onları möcüzəvi şəkildə mağarada yatırtmışdır. Bu hadisə Quranda belə bildirilər:

Beləliklə mağarada illər ili onların qulaqlarına vurduq (dərin bir yuxu verdik). (Kəhf surəsi, 11)

Onlar mağarada üç yüz il, üstəlik doqquz il də qaldılar. De: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybi ancaq Ona məxsusdur. O, necə gözəl görür, necə də yaxşı eşidir! Onların Ondan başqa heç bir himayədarı yoxdur. O, Öz mülkünə heç kəsi şərik etməz!"

(Kəhf surəsi, 25-26)

Ancaq bir zaman sonra Allah Kəhf Əhlini yuxularından oyandırmışdır. Bu hadisə də ayələrdə belə xəbər verilməkdədir:

Sonra iki dəstədən hansının onların mağarada qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq. Biz onların əhvalatını sənə olmuş bir həqiqət kimi söyləyirik. Onlar Rəbbinə iman gətirmiş gənclər idi. Biz də onların hidayətini artırdıq. (Kəhf surəsi, 12-13)

Lakin onlar bu qədər uzun müddət yatdıqlarının fərqində deyildirlər. Hətta bir gün, ya da bir günün bir neçə saatlıq hissəsi qədər qaldıqlarını düşünməkdədirlər. Halbuki üç yüz ildən çox müddət yatmışlar. Mövzuyla əlaqədar ayə belədir:

Beləcə onları oyatdıq ki, nə baş verdiyini bir-birindən soruşub öyrənsinlər. Onlardan biri: "Burada nə qədər qaldınız?" – dedi. Bəziləri: "Bir gün yaxud günün bir hissəsi qədər qaldıq" – dedilər. Digərləri də dedilər: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir. Birinizi bu gümüş pulunuzla şəhərə göndərin. Qoy baxsın ən təmiz yemək hansıdırsa, ondan sizə azuqə gətirsin. Amma ehtiyatlı olsun və sizin barənizdə heç kəsi duyuq salmasın! (Kəhf surəsi, 19)

Quranda verilən bu kimi nümunələr Allahın yaratma və öldürmə mövzusunda heç bir səbəbə ehtiyacı olmadığını açıq şəkildə göstərməkdədir.

TƏKAMÜLÇÜLƏRİ ÇIXILMAZ VƏZİYYƏTƏ SALAN HƏQİQƏT: BALARISININ DAVRANIŞLARI

Allah Quranda bal arısına vəhy etdiyini və ona nə etməsi lazım olduğunu bildirdiyini söyləməkdədir. Bu həqiqət Nəhl surəsində belə bəhs edilməkdədir:

Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör. Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır.

(Nəhl surəsi, 68-69)

Bilindiyi kimi bal arıları çiçək nektarını yığıb, bədənlərində ifraz etdiklər bəzi ifrazatlarla birləşdirib bal istehsal edərlər. Balı saxlamaq və balalarını böyütmək üçün də son dərəcə düzgün, eyni bucaqlara sahib, digərləri ilə birə-bir eyni altıbucaqlı bal mumu hücrələr düzəldər və bununla pətəklər tikərlər. Həmçinin şandan qida qaynağı axtarmaq üçün ayrılan və hər səfərində şana müvəffəqiyyətlə geri dönən arılar istiqamətlərini də Allahın bədənlərində yaratdığı xüsusi sistemlər ilə tapmaqdadırlar. Allahın ayədə **"Rəbbinin sənə asanlaşdırdığı yollarda uç-get"** hökmü ilə xəbər verdiyi arıların bu xüsusiyyətində düşünən insanlar üçün əlbəttə hikmətlər vardır.

Bir böcəyin altıbucaqlının bucaqlarından xəbərdar olması, bal mumunun düsturunu kəşf edərək, bunu bədənində çıxarmasını təmin edəcək sistemlər hazırlaması, daha sonra bu kimi məlumatları DNT-sinə öz-özünə

yerləşdirməsi və bu sayədə digər arılara da eyni xüsusiyyətlərin olmasını təmin etməsi əlbəttə qeyri-mümkündür.

Çox açıqdır ki, bütün bunları arılara üstün güc və ağıl sahibi olan Allah öyrətməkdə, yəni ayədə xəbər verildiyi kimi vəhy etməkdədir. Hər şeydən xəbərdar olan Allah bal arısına nələr etməsi lazım olduğunu bildirməkdə, bal arısı da tam vəhydə özünə bildirildiyi kimi hərəkət etməkdədir. Bal arısının şüurlu davranışları çox açıq şəkildə yaradılışı sübut etməkdədir.

Heyvanlardakı bu kimi xüsusiyyətlərin araşdırılması, canlılardakı yüksək şüuru və qüsursuz yaradılışı bizə tanıdar. Bu kimi məlumatlar sayəsində Uca Rəbbimizin gücünün bənzərsizliyini bir daha anlayırıq. Allah dilədiyi canlını dilədiyi xüsusiyyətlərdə yaratmağa güc çatdırandır. Allah sərhədsiz güc sahibi olandır, hər şeyin Malikidir. Təkamülçülər isə canlılardakı bu kimi fövqəladə xüsusiyyətlərin guya təsadüflərlə meydana gəldiyinə inanarlar. Bu məntiqsiz iddiaya görə, təsadüflər arılara bucaq hesablamağı öyrətmiş, bu xüsusiyyət digər arılara da yenə təsadüflər yoluyla köçürülmüşdür. Təsadüflər arıların bədənlərində bal çıxaracaq, ya da bal mumu edəcək sistemləri var etmişdir. Bu kimi xəyal məhsulu ssenarilərin həm ağıldan, həm də elmdən uzaq olduğunu anlamaq üçün bir an düşünmək kifayətdir.

Bal arılarını yaradan və şüur verən Allahdır. Məhz bu kimi yaradılış möcüzələri təkamülçüləri çox böyük çıxılmaz vəziyyətə salmaqdadır.

HZ. SÜLEYMANIN QARIŞQANIN DİLİNDƏN ANLAMASI

Əvvəlki hissədə də toxunulduğu kimi, təkamülçülərin yanılmasına görə canlılar kor təsadüflərin, təsadüfi meydana gəlmələrin əsəridirlər. Ancaq bu xəyali təkamülçü iddianı sübut edən tək bir dəlil yoxdur. Buna baxmayaraq təkamülçülərin iddialarını etibarsız edən çox sayda dəlil mövcuddur.

Buna nümunə olaraq, Quranda bildirilən hz. Süleyman ilə bir dişi qarışqa arasında baş verən hadisəni verə bilərik. Ayələrdə xəbər verildiyinə görə hz. Süleyman peyğəmbər dişi qarışqanın özü haqqında söylədiklərini eşitməkdə və anlamaqdadır. Quranda bu hadisə belə bildirilər:

Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və onun qoşunu özləri də hiss etmədən sizi tapdayıb məhv etməsinlər". Süleyman qarışqanın bu sözünə gülümsədi və dedi: "Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə ata etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!" (Nəml surəsi, 18-19)

Görüldüyü kimi, ayədə bir qarışqanın digər qarışqalara xitab etdiyi xəbər verilməkdədir. Şüursuz təsadüflərlə ortaya çıxdığı iddia edilən bir heyvanın öz cəmiyyətinə xitab etməsini təmin edəcək xüsusi xəbərləşmə sisteminə sahib olması, üstəlik onları ağla və məntiqə dəvət etmək kimi şüurlu davranışlar etməsi əlbəttə mümkün ola bilməz. Ancaq Allahın yaratmasıyla varlıq tapan bir canlı, Allah dilədiyi təqdirdə yenə Onun dilədiyi qədər şüurla hərəkət edə

bilər və belə bir varlıqla ünsiyyət qurmaq da (Allahın icazəsiylə) mümkün ola bilər.

Təkamül nəzəriyyəsinin həqiqətdən kənar iddiasına görə böyük bir şüursuzluq içində olmaları lazım olan canlılar, bu iki nümunədə də görüldüyü kimi, əslində böyük ağıl sərgiləməkdədirlər. Bu vəziyyətdəki fövqəladəliyi darvinistlərin anlamasını (səmimi olaraq düşünən və vicdanlı hərəkət edənləri tənzih edərik) gözləyə bilmərik bəlkə. Lakin Allahın varlığına və gücünə iman etdiyini söyləyən bir adamın ayələrdəki bu məlumatlar üzərində mütləq düşünməsi lazımdır. Çünki bu yaradılış həqiqətləri təkamülçülərin təsadüf iddialarını açıq şəkildə etibarsız etməkdədir. Bu vəziyyət isə təkamülün müdafiə olunacaq heç bir yanının olmadığını bir dəfə daha göstərməkdədir.

Yaradılış bir möcüzədir

Bəzi müsəlmanların təkamül fikrinə etibar etməsinin mənşəyində, Allahın dilədiyi anda, dilədiyini yaratma və yox etmə gücünü göz ardı etmələrinin əhəmiyyətli rolu vardır. Bəhs etdiyimiz müsəlmanlar, təbiət qanunlarının sabit və dəyişməz olduğunu və heç bir hadisənin təbiət qanunları xaricində reallaşmayacağını fərz edən **"naturalist"** doqmanın təsiri altında düşünməkdədirlər. Halbuki bu çox böyük səhvdir. Çünki **"təbiət qanunları"** dediyimiz anlayışlar, Allahın maddəni müəyyən bir nizam içində yaratmasından və qorumasından qaynaqlanmaqdadır. Bunlar maddənin şəxsən özündən qaynaqlanan xüsusiyyətlər deyil. Bu səbəbdən bu qanunları Allah təyin etdiyi kimi, dilədiyi zaman da bunları dəyişdirməyə güc çatdırandır.

Rəbbimiz dilədiyi zaman qullarına möcüzələr göstərər. Məsələn Kəhf Əhlinin 300 ildən çox müddət canlı qalması, təbiət qanunlarının xaricində qalan bir möcüzədir. Allahın əvvəl öldürüb sonra da diriltdiyi insanlar da bir möcüzədir. Hər hadisə (möcüzələr də bizim təbiət qanunu olaraq adlandırdıqlarımız da) Allahın yaratmasıyla reallaşmaqdadır. Burada başa düşülməsi lazım olan məqam, Allahın Öz yaratmış olduğu qanunlardan münəzzəh olduğudur. Allah diləsə, təbiət qanunlarının hamısına zidd olaraq hərəkətlər meydana gətirər. Bu, Allah üçün çox asandır.

Təkamül nəzəriyyəsinə aldanmış olan bəzi müsəlmanlar, darvinistlərin fikri təməlini meydana gətirən naturalist doqmadan təsirlənmiş olduqları üçün, canlıların və insanın mənşəyini də yalnız təbiət qanunlarına görə izah etməyə çalışmaqdadırlar. Allahın bu təbiət qanunları ilə məhdudlaşdırılmış yaradılışla canlıları var etdiyini düşünməkdə (Allahı tənzih edərik), bu səbəbdən mutasiya, təbii seleksiya, növlərə ayrılma kimi anlayışları istifadə edərək bir növün digərinə çevrilməsi yoluyla yaradılış olduğunu zənn etməkdədirlər. Halbuki bir müsəlmanın belə bir **"naturalist"** məntiqə qapılması böyük səhv olar, çünki Quranın bir çox ayəsində bildirilmiş olan möcüzələr, bu məntiqin səhv olduğunu açıq şəkildə göstərməkdədir.

Necə ki, Quranda canlıların və insanın yaradılışı mövzusundakı ayələrə baxdığımızda, bu yaradılışların başıboş təbiət qanunları içində deyil, möcüzəvi şəkildə olduğunu açıq şəkildə görərik. Allah canlıların yaradılışını belə açıqlamaqdadır:

Allah hər bir canlını sudan yaratmışdır. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstündə gəzir, bəzisi də dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Nur surəsi, 45)

Ayədə quruda yaşayan təməl canlı qrupları (sürünənlər, quşlar və məməlilər) bildirilməkdə və bunları Allahın sudan yaratdığı xəbər verilməkdədir. Diqqət yetirilsə, bu canlı qrupları təkamül nəzəriyyəsinin nəzərdə tutduğu kimi **"bir-birlərindən"** deyil, **"sudan"** yaradılmışlar. Yəni ortaq materialı Allahın şəkilləndirməsiylə ayrı-ayrı var edilmişlər.

Bu ortaq materialın su olduğu həqiqəti, bu gün elmi məlumatlarla da açıq şəkildə ortadadır. Su, dünyadakı hər canlının bədəninin ən fundamental ünsürüdür. Məməlilərdə bədənin təxminən 70%-i sudur. Hər canlı, bədənindəki su sayəsində hüceyrə içi, hüceyrələr arası və toxumaların daşınmasını təmin edər. Su olmadan canlılığın ola bilməyəcəyi hər kəs tərəfindən qəbul edilən bir həqiqətdir.

İşin maraqlı tərəfi, bəzi müsəlmanların yuxarıdakı ayəni səhv izah edərək təkamül nəzəriyyəsinə uyğun bir məna verməyə çalışırlar. Halbuki **"sudan yaradılma"** gerçəyinin, təkamül nəzəriyyəsiylə heç bir əlaqəsi olmadığı çox açıqdır. Təkamül nəzəriyyəsinin, **"hər canlının sudan çıxıb təkamülləşdiyi"** kimi iddiası yoxdur ki, belə bir əlaqə yaradılsan. Əksinə nəzəriyyə, canlı növlərinin bir-birlərindən törədiklərini irəli sürməkdədir ki, bu iddia hər fərqli canlı qrupunun sudan yaradılmış (yəni ayrı-ayrı yaradılmış) olduğu gerçəyiylə tamamilə ziddiyyətli aldatmadır.

İnsanın palçıqdan yaradılışı

Allah Quranda insanın yaradılışının da möcüzəvi şəkildə olduğunu xəbər verər. İlk insan, Allahın palçığı şəkilləndirib insan bədəni halına gətirməsi və ardından bu bədənə ruh üfləməsi ilə yaradılmışdır:

Bir zaman sənin Rəbbin mələklərə belə demişdi: "Mən palçıqdan bir insan yaradacağam. Mən ona surət verib Öz ruhumdan üfürdüyüm zaman ona səcdə edin!" (Sad surəsi, 71-72)

Kafirlərdən soruş ki, onları yaratmaq çətindir, yoxsa Bizim başqa yaratdıqlarımızı? Biz ki onları yapışqan kimi palçıqdan yaratdıq. (Saffat surəsi, 11)

Diqqət yetirilsə ayələrdə insanın (bəzi müsəlmanların iddia etdiyi kimi) **"meymundan"** və ya bir başqa canlı növündən deyil, cansız maddə olan palçıqdan yaradıldığı xüsusilə ifadə edilməkdədir. Allah cansız palçığı möcüzəvi şəkildə insana çevirmiş və bu bədənə ruh üfləmişdir. Bunda heç bir

“təbii təkamül müddəti” yoxdur, Allahın birbaşa möcüzəvi yaradılışı vardır. Necə ki, Allahın aşağıdakı ayədə bildirdiyi **“iki əlimlə yaratdığım”** şəklindəki təşbehli ifadə də, insanın birbaşa Allahın qüdrətiylə yaradıldığını göstərər:

Biz bunu ona bağışladıq. Həqiqətən, o Bizə yaxın olanlardandır və onun üçün gözəl qayıdış yeri hazırlanmışdır. (Sad surəsi, 75)

Qısacası Quranda insanın və canlıların yaradılışı haqqında heç bir **“təkamül”** izahı yoxdur, əksinə bütün canlıların və insanın Uca Allahın möcüzəsi olaraq su və torpaq kimi cansız maddələrdən yaradıldığı bildirilməkdədir. Buna qarşı İslam tarixində, qədim Yunan fəlsəfəsindən təsirlənərək, bu fəlsəfədəki materialist və təkamülçü elementləri mənimsəyən və sonra da bunu öz ağılları tərəfindən Qurana uyğun hala gətirməyə çalışanlar olmuşdur.

Böyük İslam alimi, böyük mücəddid İmam Qəzali, öz dövründə ortaya çıxan bu axınlara **“Fəlsəfənin səfaləti”**ndə və digər əsərlərində cavab vermişdir. Ancaq təkamül nəzəriyyəsinin 19-cu və 20-ci əsrdə dünyada yayılmasıyla birlikdə, İslam dünyasında da yenidən **“təkamülçü yaradılış”** yanılmaları ortaya çıxmışdır. Bir sonrakı hissədə, bu tezisləri müdafiə edən müsəlmanların yanıldıqları və dəlil olaraq istifadə etməyə çalışdıqları Quran ayələrini izah etmədəki səhvləri açıqlanacaq.

IV HİSSƏ:

QURAN AYƏLƏRİNDƏN TƏKAMÜL NƏZƏRİYYƏSİNƏ DƏLİL GƏTİRMƏYƏ ÇALIŞANLARIN YANILMALARI

İnanc sahibi, Allaha və Allahın endirdiyi İslam dininə inandığını söyləyən bir kimsə üçün dini mövzudakı təməl yol göstərici, Quran və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsidir. Allah Quranda gərək canlılığın gərəksə kainatın yaradılışı haqqında bir çox ayə endirmişdir. Lakin bu ayələrdə təkamüllə yaradılış olduğuna dair heç bir məlumat, ya da işarə yoxdur. Digər bir ifadəylə canlıların bir-birlərindən törədiyini, aralarında təkamüllü əlaqə olduğunu dəstəkləyəcək bir ayə olmadığı açıq şəkildə görülməkdədir. Hətta tam tərsinə Quranda (əvvəlki hissələrdə də yer verdiyimiz kimi) canlılığın və kainatın Allahın **"Ol"** əmriylə möcüzəvi şəkildə var edildiyi bildirilməkdədir. Elmi tapıntıların təkamül iddialarını yalanladığı göz qarşısında saxlanıldığında, Quranın elmlə hər zaman paralel olduğu bir daha görülmüş olacaq.

Ancaq hər şey bu qədər açıq olmasına baxmayaraq Darvinizmi müdafiə edən bəzi müsəlmanlar, mənaları çox dəqiq olan ayələri səhv təfsir etməkdə, ayələrə həqiqi və açıq mənalarından başqa mənalar yükləməkdədirlər. Təkamülü müdafiə edə bilmək və özlərinə görə Qurandan dəlilləndirə bilmək üçün bəzi ayələri mənalarını təhrif edərək, zənn və təxminlə mənfəətlərinə görə, öz istəkləri istiqamətində izah etməkdədirlər. Bu isə son dərəcə təhlükəli vəziyyətdir. Allah bu kimi kəslərin vəziyyətini Quranda belə bildirmişdir:

Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə Kitabı oxuyarkən dillərini əyib bükürlər. Halbuki bu, Kitabdan deyildir. Onlar: "Bu, Allah tərəfindəndir!" – deyirlər. Halbuki o, Allah tərəfindən deyildir. Onlar bilə-bilə Allaha qarşı yalan danışırlar. (Ali İmran surəsi, 78)

Açıq şəkildə görüldüyü kimi, ayələri bilərək, əslindən fərqli şərh etmək, ayələrin mənalarını azdırmaq Quranda Allaha qarşı yalan danışmaq olaraq xarakterizə edilmişdir. Heç bir müsəlman Allaha qarşı belə bir cinayət törətmək istəməz, bundan çox böyük qorxu duyar. Bu halda Quranda bu cür ciddiliklə üzərində durulan bir mövzuda, xüsusilə də Quranı bilən kəslərin tərəfli, ya da zənn və təxminə söykənən izahlar etmələri şübhəsiz vicdana sığmayacaq bir davranış olar. Əlbəttə ki, guya dinlə təkamülün uyğun gəldiyini iddia edən hər kəs üçün belə bir ümumiləşdirmə etmək doğru deyil, çünki bu kəslərin bəziləri söylədikləri sözün mənasını düşünmədən, ya da təkamül nəzəriyyəsinin arxasındakı təhlükələrin fərqində olmadan belə bir yanılmaya düşməkdədirlər.

Ancaq yenə də Allah adına danışaraq, öz ağıllarına görə ayələri dəlil göstərərək insanları Quran haqqında səhv istiqamətləndirəcək iddialar etmənin məsuliyyəti altına girməkdən hər kəs qaçınmalıdır. Bu vəziyyətdə olan kəslərin, mövzunun ciddiliyi üzərində bir daha düşünmələri və Allaha qarşı hesabını verə bilməyəcəkləri bir təfsir, ya da şərhə girməmələri lazımdır. Unutmamaq lazımdır ki, bu kəslər yalnız özləri səhv etməklə qalmaz, eyni zamanda şərhlərini oxuyan kəslərin də səhvə düşmələrinə səbəb olarlar. Bu da ciddi bir öhdəçilikdir.

Əgər istəsəydik, onları yerlərindəcə elə eybəcər hala salardıq ki, nə irəli gedə, nə də geri qayıda bilərdilər. (Yasin surəsi, 67)

Siz artıq içərinizdən şənbə günü həddi aşanları tanıyırsınız. Biz də onlara: "Mənfur meymunlar olun!" – dedik. (Bəqərə surəsi, 65)

Özlərinə qoyulan qadağanı pozduqları zaman Biz onlara: "Mənfur meymunlar olun!" – dedik.

(Əraf surəsi, 166)

De: "Allah yanında cəza etibarilə bundan daha pisini sizə xəbər verimmi? Bu, Allahın lənətlədiyi, ona qəzəbləndiyi, özlərini də meymunlara və donuzlara döndərdiyi şəxslər və tağuta ibadət edənlərdir. Onlar, axirətdə yeri daha pis olan və doğru yoldan daha çox azanlardır!"

(Maidə surəsi, 60)

Musa əsasını yerə atdı və o, dərhal açıq-aşkar bir ilan oldu. (Əraf surəsi, 107)

Əgər bir insan, **"təkamül nəzəriyyəsi lehinə, təhrif etmə və məcbur etməklə də olsa Qurandan bəzi dəlillər gətirməliyəm"** kimi anlayış içində deyilsə, yuxarıdakı ayələri mutasiyaya dəlil olaraq şərh etməsi qəti olaraq mümkün deyil.

İlk üç ayədə Allahın möcüzəvi şəkildə canlıların bədənlərini dəyişdirməsindən danışılmaqdadır. Dördüncü ayədə isə haqqında danışılan obyekt (əsa) canlı belə deyil, bu səbəbdən mutasiyaya uğraması kimi bir fikir önə sürülə bilməz. Həqiqətdə bu müsəlmanların bu kimi ayələrdən öz ağıllarına görə təkamül nəzəriyyəsinə dəlil çıxarmağa çalışmaları, **"yaradılışçı təkamül"** yanılmasının nə qədər çürük, məntiqdən kənar və Quran əxlaqına uyğun olmayan fikir olduğunun isbatıdır.

11-Cİ YANILMA

Qurana görə meymunlarla insanlar arasında soy yaxınlığı olduğu yanılması

Bu mövzuda bəziləri tərəfindən səhv şərh olunan ayələrdən biri də, Allahın keçmişdə bir qrup yəhudini meymun etməsiylə əlaqədardır. Ayələr belədir:

Siz artıq içərinizdən şənbə günü həddi aşanları tanıyırsınız. Biz də onlara: "Mənfur meymunlar olun!" – dedik. Biz bunu onlarla bir dövrdə olanlar və onlardan sonra gələnlər üçün ibrət, müttəqilər üçün isə öyüd-nəsihət etdik. (Bəqərə surəsi, 65-66)

Bu ayələrdən təkamül nəzəriyyəsinə paralel bir məna çıxarılamayacağı aşkardır. Bunun bir neçə ayrı səbəbi vardır:

1) Ayədə nəzərdə tutulan cəza, böyük ehtimalla mənəvi mənadadır. Yəni bəhs etdiyimiz yəhudilərin fiziki mənada deyil, xarakter cəhətdən meymuna bənzədilmiş olması ehtimal olunur. (Doğrusunu Allah bilər.)

2) Əgər nəzərdə tutulan cəza fiziki mənada reallaşmış olsa belə, bu təbiət qanunlarının xaricində reallaşan bir möcüzə olar. Burada Allahın diləməsiylə, bir anda möcüzəvi çevrilmə, yəni şüurlu bir yaradılışdan bəhs edilir. Təkamül nəzəriyyəsi isə, növlərin milyonlarla illik zaman dilimlərində təsadüflərlə yavaş və pilləli olaraq bir-birlərinə çevrildikləri kimi ağıl və elmdən kənar tezis qarşıya qoyar.

Bu səbəbdən Quranda bildirilən bu hadisəylə təkamülün müdafiə etdiyi ssenarinin bir-biriylə heç bir əlaqəsi yoxdur. Necə ki, bu ayənin davamındakı ayədə **"Bunu, həm çağdaşlarına, həm sonra gələcək olanlara "ibrət verici bir**

cəza", təqva sahibləri üçün də bir öyüd etdik." şəklində buyurulmaqdadır. Bu ayədə bu kəslərin alçalmış meymunlar halına gətirilmələrindən sonra gələcək olanlara **"ibrət qılınmaları"** məqsədiylə bir möcüzə olaraq reallaşdırıldığına işarə edilməkdədir. (Doğrusunu Allah bilər.)

3) Ayədə nəzərdə tutulan cəza, tarixdə tək bir dəfə və məhdud sayda insan üçün reallaşmışdır. Halbuki təkamül nəzəriyyəsi bütün insanların meymunlar ilə qohum olduqları kimi məntiq və elmdən kənar ssenari qarşıya qoyar.

4) Ayədə, insanların meymuna çevrilməsindən danışır. Halbuki təkamül nəzəriyyəsinin iddiası tərs istiqamətdədir.

5) Quranda, Maidə surəsinin 60-cı ayəsində də Allahın qəzəbləndiyi azğın birliyin meymunlara və donuzlara çevrildiyi xəbər verilər. Ayə belədir:

De: "Allah yanında cəza etibarilə bundan daha pisini sizə xəbər verimmi? Bu, Allahın lənətlədiyi, ona qəzəbləndiyi, özlərini də meymunlara və donuzlara döndərdiyi şəxslər və tağuta ibadət edənlərdir. Onlar, axirətdə yeri daha pis olan və doğru yoldan daha çox azanlardır!"

(Maidə surəsi, 60)

Bu vəziyyətdə, başdan bəri araşdırdığımız səhv məntiq hörgüsüylə hərəkət edildiyində, ayədə insanın tək meymunla deyil, donuzla da arasında təkamüllü əlaqəyə işarə olduğu kimi həqiqətdən kənar nəticəyə gəlinməsi lazımdır. Halbuki təkamülçülərin belə donuzla insan arasında belə bir əlaqə olduğuna dair iddiaları yoxdur.

Bura qədər də aydın olduğu kimi, Quranın bəzi ayələrində təkamül nəzəriyyəsinə dair bəzi işarələr olduğu iddiası, həm Quranın tamamilə həm də təkamül nəzəriyyəsinin öz tezisləriylə birə-bir ziddiyyət təşkil edən böyük yanılmadır.

V HİSSƏ:
DARVİNİZM TƏHLÜKƏ OLARAQ GÖRÜLMƏDİYİNDƏ NƏLƏR OLAR?

Kitabın əvvəlki hissələrində təkamül nəzəriyyəsinə dəstək verən bəzi inanclı insanların, nəzəriyyəni müdafiə edərkən içinə düşdükləri yanılmalara toxunduq. Ancaq burada üzərində dayanılması lazım olan bir başqa mövzu da, təkamül nəzəriyyəsinə inanmadıqları halda, bu nəzəriyyənin meydana gətirdiyi təhlükələri fərq edə bilməyən seqmentlərin içinə düşdükləri laqeydlikdir.

İnanclı insanların, yaradılış gerçəyinə tamamilə qarşı olan bir nəzəriyyəni təhlükəsiz və zərərsiz görmələri, onun inkişafına tamaşaçı olmaları, təkamül nəzəriyyəsinin cəmiyyətdə gedərək yayılmasına və qaçınılmaz olaraq ateizmi gücləndirməsinə bilavasitə dəstək olacaq. Bu səbəblə dindarların, təkamül nəzəriyyəsinin altında yatan fəlsəfəni yaxşı anlamaları lazımdır. Təkamül nəzəriyyəsi, materialist fəlsəfənin guya **"elmi"** görünən bir üslubla ifadə edilməsindən ibarətdir. Materialist fəlsəfə isə **"dinsizliyin dini"**dir.

Bu vəziyyət, hər müsəlmanın çiyinlərinə dinsiziliyin dini ilə fikri mübarizə vəzifəsini yükləməkdədir.

"Darvinizm təhlükə ifadə etmir" deyənlər yanılırlar

İnanclı insanların bir hissəsi təkamül nəzəriyyəsinin keçmişdə qaldığını, bu gün artıq qəbul edilmədiyini, bu səbəbdən müsəlmanlar baxımından o qədər əhəmiyyət veriləcək bir təhlükənin olmadığını sanarlar. Bundan ötəri də bu nəzəriyyənin saxtakarlıqlarını, elmdən kənar iddialarını ortaya qoymağı

özlərinə görə son dərəcə əhəmiyyətsiz görər, Darvinizmin bir təhlükə ifadə etmədiyini iddia edərlər.

Halbuki bu kəslərin düşündüklərinin əksinə, indiki vaxtda təkamül nəzəriyyəsi elm qarşısında bütün dayaqlarını itirdiyi halda, yalnız ideologiya istiqaməti səbəbiylə çox geniş seqment tərəfindən müdafiə olunmaqdadır. Bir çox ölkədə, universitetlərdə, mediada və təhsil təşkilatlarında darvinistlər son dərəcə təsirlidir. Həqiqətdə Darvinizm, dünya səviyyəsində mütəşəkkil hərəkətdir.

Təkamülçülər elm dünyasında sanki təzyiq sistemi qurmuşlar. Gərək elmi nəşrlərdə, gərək mediada həmişə tək tərəfli şərhlər edilməkdə və təkamül nəzəriyyəsi sanki qəti həqiqət kimi təqdim edilməkdədir. Xüsusilə də geniş kütlə üzərində təsirli olan media, tapılan hər sümük parçasını təkamülün yeni dəlili kimi əks etdirməkdədir. Dünyanın bir çox ölkəsində məktəblərdə və universitetlərdə darvinist alimlər dəstəklənilməkdə, Allah inancına sahib elm adamlarının isə akademik karyerləri baltalanılmağa çalışılmaqdadır.

Darvinizmi rədd etdikləri üçün çoxunun kitabları, məqalələri elmi nəşrlərdə yer almamaqda, bir tərəfdən də heç bir düzgünlük ifadə etmədiyi halda **"doqmatizmlə"** və ya **"mürtəceliklə"** günahlandırılmaqdadırlar. Əgər qərb ölkələrində bir elm adamı, akademik karyer qurmaq istəyirsə, darvinçi boş sözlərə göz yummaq, hətta bunları istər istəməz müdafiə etmək məcburiyyətindədir. Əks halda akademik karyerində yüksəlməsi çox çətindir.

Təkamül nəzəriyyəsini tənqid edən elm adamlarından biri olan amerikalı professor Philip Johson, təkamül nəzəriyyəsinin inanca qarşı necə bir növ silah olaraq istifadə edildiyini belə izah etməkdədir:

"Müasir elmin liderləri, özlərini dini fundamentalistlərə (yəni bir Yaradıcının var olduğunu və bu dünyadakı hadisələrdə rol oynadığını qəbul edənlərə) qarşı tətbiq edilən bir döyüşün qabaqcılları olaraq görməkdələr... Darvinizm isə, fundamentalizmə qarşı girişilən bu döyüşdə yeri doldurulamaz bir ideologiya rol oynamaqdadır. Məhz bu səbəblə, bu gün elm sahələri, Darvinizmi test etməyi deyil, nə olursa olsun qorumağı özlərinə məqsəd hesab etmişlər. Elmi araşdırmaların qaydaları da, bu ideologiyanı təsdiqləyəcək şəkildə təyin olunmaqdadır"[71]

Təkamülçülər, bu **"fikri diktatorluq"** içində bəzi universitetləri darvinist təhsil yuvaları halına gətirməkdə və buralarda materialist fəlsəfəni elm zənn edən insanlar yetişdirməkdədirlər. İnanclı insanların isə təhsil haqlarının əllərindən alınması lazım olduğu düşünülməkdədir. Bunun ən diqqətə çarpan nümunələrindən biri ölkəmizdəki təkamülçülərdən prof. dr. Əli Dəmirsoyun **"Qoz qabığı"** adlı təkamül mövzulu müzakirə proqramında sərgilədiyi aqressiv rəftar olmuşdur. Hörmətli Dəmirsoy, ***"Əgər bir elm adamı hər hansı bir şəkildə Tanrıya inansa universitetdə olmaması lazımdır. Allaha inananı universitetdən ataram"*** bənzəri ifadələr istifadə edərək, ön mühakiməli təkamülçü dünyagörüşünü bütün açıqlığıyla ortaya qoymuşdur.

Bəlkə də inanclı insanlar bu həqiqətləri bilmədikləri üçün hadisələri səhv bir optimizm içində qiymətləndirməkdə və bu səbəblə də Darvinizmi özlərinə görə təhlükəli görməkdədirlər. Halbuki materialistlər (bunların içində marksistlərin əhəmiyyətli ağırlığı vardır) Darvinizmdən götürdükləri uydurma elmi dəstək ilə, dinə qarşı ciddi mübarizə icra etməkdədirlər. Məhz bu səbəblə **"Darvinizm təhlükə ifadə etmir"** deyən müsəlmanların təcili olaraq bu qəflətdən sıyrılmaları zəruridir. Bütün dünyada təkamül nəzəriyyəsi vasitəsilə dinə qarşı ciddi fikri hücum icra edilərkən, bu nəzəriyyənin təhlükəli olmadığını söyləmək və Darvinizmi zərərsiz görmək son dərəcə səhv davranış olacaq.

Fikri mübarizədə olmamaq, Darvinizmi daha da gücləndirər

Darvinizmin bir təhlükə meydana gətirmədiyini, ya da bitdiyini düşünənlər, bu fikirlərini ətraflarında yayanlar, bu nəzəriyyənin inkişafına bilərək, ya da bilməyərək köməkçi olarlar. Çünki bu şəkildə məlumat verdiklərində cəmiyyətdə belə bir təhlükə olmadığı fikri meydana gələr. Buna bağlı olaraq darvinist təbliğata, saxtakarlıq və təlqinlərə qarşı fikri və elmi həssaslıq inkişaf etməz, tədbir alınmaz.

Buna qarşı təkamül nəzəriyyəsini müdafiə edən insanlar isə köhnəlmiş məlumatlarla da olsa öz ağıllarına görə hazırlıq etməyə davam edər, hər fürsətdə nəzəriyyələrini hərarətlə müdafiə edərlər. Müxtəlif saxtakarlıqlar və təhrif etmələrlə də olsa fikirlərini dəstək olmağa çalışarlar. İnanclı insanlar təkamül nəzəriyyəsinin bir təhlükə meydana gətirmədiyinə inandırıldıqları üçün də, bu mövzuda bir şey oxumaz, öyrənməz və beləcə qarşılarına çıxacaq təkamülçülərə cavab verə biləcək məlumat və məntiqlərdən də məhrum qalarlar.

Halbuki təkamül nəzəriyyəsinin etibarsızlığını öyrənmək və qavramaq asandır. Nəzəriyyə, müasir elm qarşısında tamamilə etibarlılığını itirmiş 19-cu əsr tezisindən ibarətdir. Bununla birlikdə elm dünyasındakı hər yeni inkişaf yaradılış həqiqətini təsdiq etməkdədir. Lakin bu həqiqətlər araşdırılıb, öyrənilmədiyində inanclı insanlar təkamülçülər qarşısında cavab verə bilməyəcək vəziyyətə gəlirlər. Məlumat sahibi olmadıqları üçün səhv məntiq, səhv məlumat, örnəkləndirmə və nəticələrlə çarəsiz qalarlar. Halbuki darvinist düşüncənin etibarsızlığını izah etmək üçün yazılmış çox kitab, aparılmış bir çox araşdırma vardır. Amma bunlardan faydalanmaq üçün əvvəl mövcud təhlükənin fərqinə varmaq və fikri mübarizənin lazımlılığına inanmaq lazımdır.

Darvinizmin bir təhlükə olmadığını düşünərək təkamüllü yaradılış yanılmasını müdafiə edənlər, inanclı kəslərin darvinistlər qarşısında səssiz qalmalarından da bir mənada məsuldurlar. Çünki bu kəslər əslində təsadüfləri guya yaradıcı güc olaraq görmədikləri və Allaha iman etdikləri halda, lazımlı məlumatdan məhrum olmaları səbəbiylə təkamülçülərin iddialarına qarşı etibarlı və tutarlı izah gətirə bilməzlər. Məhz bu səbəblə də onların fikirləriylə öz inancları arasında öz ağıllarına görə orta yol tapmağa çalışarlar. Bunun

nəticəsində də **“Allah canlıları təkamüllə yaratmışdır”**, **“təkamüllə din ziddiyyət təşkil etməz”** kimi səhv məntiqlər qarşıya qoymağa başlayarlar.

Halbuki bu, kitabın əvvəlindən bəri izah etdiyimiz kimi, Allaha iman edən bir kimsə üçün qəbul edilə bilməyəcək bir vəziyyətdir. Təkamülçülər elm adına danışdığını iddia edər, amma əslində elm adına yalan danışarlar. Bu səbəbdən kənardan guya **“elmi”** görünən bu yalana inanmamaq, əsas olaraq təkamül nəzəriyyəsinin xidmət etdiyi ideologiyalara baxmaq lazımdır. Təkamül nəzəriyyəsinin altında yatan ateist fəlsəfəni və dinsiz quruluşu fərq edə bilməyib, bu xurafatı doğru qəbul etmək, ona təslim olmaq Darvinizmin insanlığa gətirdiyi hər cür zərərə ortaq olmaq deməkdir. Bu cür kəslərin fərqində olmadan cəmiyyətə verdikləri zərər çox böyükdür.

Məhz bu səbəblə təkamül yalanına inanan bəzi müsəlmanların, müdafiə etdikləri fikri bir daha düşünməlidirlər. Səhv və batil olduğunu bilə-bilə qarşı tərəfə dərhal təslim olmaq, haqq dini darvinistlərin batil dininə uyğunlaşdırmağa çalışmaq olmaz. Unutmamaq lazımdır ki, bütün müsəlmanlar üçün, dinə qarşı olan, Allahın varlığını inkar edən hər fikri, fikri mübarizə ilə çürütmək, haqqı istifadə edərək batili yox etmək əhəmiyyətli məsuliyyətdir. Bu məsuliyyətdən daşınaraq, inkar düşüncəsi ilə guya ortaq bir nöqtədə **“razılaşmaq”**, qarşı tərəfə güzəştə getmək, ya da onların fikirlərinə təslim olmaq çox böyük səhv olar.

Məsələn kommunizmin yayıldığı bir cəmiyyətdə müsəlmanın vəzifəsi **“kommunizmi İslamlaşdırmağa çalışmaq”** deyil. Bu, din lehində heç bir nəticə verməyəcək, əksinə kommunizmə fayda verəcək çıxılmaz yoldur. Müsəlmanın vəzifəsi, kommunizmi bütün fəlsəfə olaraq çürütmək, fikirlə yıxmaq və buna qarşı İslamın həqiqətini ortaya qoymaqdır. Eyni şəkildə Darvinizmə qarşı da müsəlmanın vəzifəsi **“Darvinizmi İslamlaşdırmağa çalışmaq”** deyil, bu böyük yalanı fikirlə çürütmək, yıxmaq və buna qarşı yaradılış həqiqətini ortaya qoymaqdır. Bu səbəblə bütün müsəlmanların bu şüurla hərəkət etmələri dünya üzərindəki ateist fəlsəfələrin hamısına birdən dayaq təşkil edən Darvinizmə arxa çıxmamaları lazımdır.

Darvinizm ictimai təhlükədir

Ön mühakimələrdən uzaq, səmimi və azad düşünən heç kim, şüursuz atomların təsadüflər nəticəsində bir yerə gəlib, mütəşəkkil olub, düşünən, ağladan, hiss edən, görən, eşidən, mədəniyyətlər quran, fikirlər yürüdən, sənət əsərləri meydana gətirən, sevinən, kədərlənən, sonra özünü meydana gətirən atomları elektron mikroskopu altında araşdıran elm adamlarını meydana gətirdiyinə inanmaz. Lakin Darvinin nəzəriyyəsi insanlara bu ağıldan kənar inancı məcburən qəbul etdirir. İstifadə etdikləri elmi terminologiyaya baxmayaraq, nəticədə darvinistlərin inandığı məntiqin özü budur.

Bu əyri məntiqə inanan bir insan, ağılla analiz etmə və mühakimə qabiliyyətini itirməyə başlayar. Dünyanın ən qeyri-mümkün ssenarisini çox məqbul kimi görüb qəbul etdikdən sonra, qarşısına çıxan bütün imani dəlilləri görə bilməz hala gələr. Düşünmə qabiliyyətini itirmiş, çox açıq həqiqətləri, qəbul etdiyi təlqinlər və edilən təbliğatlar səbəbiylə görə bilməyən, sırf əksəriyyət qəbul edir deyə səhv fikri kor-koranə qəbul edən bu insanı hər istiqamətə çəkmək mümkündür. Bu mərhələyə gəldikdən sonra bu kəslər artıq vicdanlarını və ağıllarını istifadə edə bilməz hala gəlmiş olarlar. Bu insanın əlinə silah vermək, onu dağlara çıxarmaq, ya da **"Darvin bu insanın aşağı irq olduğunu söyləyir, onun üçün onu öldürə bilərsən"** deyə yalanlara razı salmaq çox asanlaşar.

Bu məntiq içində yetişən insanların cəmiyyətlərə, yalnız zərər gətirəcəyini də bilmək lazımdır. Bu günün gəncləri, gələcəyin yetkinləri, idarəçiləri, dövlət adamları, pedaqoqları olaraq qarşımıza çıxacaqlar. Bu səbəblə əgər irəlidə bu gün olduğu kimi müasir, elm səviyyəsi yüksək, xurafatlardan uzaq və inkişaf etmiş bir mədəniyyət ümid edilirsə, zəmanəmizin gənclərinə ona görə bir təhsil təqdim edilməlidir. Bu da əvvəlcə gənclərin darvinist xurafatlardan, saxtakarlıqlardan qurtarılmalarıyla, onlara təsadüf əsəri heyvanlardan təkamülləşdikləri nağıllarını deyil də, Allahın onları, canlılar arasında ruha və ən üst şüura sahib varlıqlar olaraq yaratdığını izah etməklə mümkündür. Çünki əsas olan budur.

Əgər gənclər şərəfli, yüksək şüur və ruh sahibi varlıqlar olaraq yaradıldıqlarını bilsələr, buna yaraşar şəkildə davranacaqlar. Amma heç bir düzgünlük payı olmadığı halda təsadüfən meydana gəldikləri, heyvanlardan təkamülləşdikləri, meymunla ortaq ataya sahib olduqları kimi xurafatlara

inandırılsalar, o zaman da həyatı guya **"savaş"** olaraq görəcək, bu savaşda üstün gəlmək üçün öz ağlına görə hər yolu mübah sayacaqlar. Beləcə tolerantlıq, şəfqət, sevgi, hörmət, qardaşlıq kimi insani xüsusiyyətlərdən uzaq, məsuliyyətsiz, eqoist və hər cür zalımlığı edə biləcək bir nəsil ortaya çıxmış olacaq. Onsuz da heyvandan təkamülləşdiyi nağılına inandırıldıqları üçün də özlərini və digər insanları dəyərsiz görəcək və şərəfli, əxlaqlı həyat sürməyi mənasız görərək, eqoistcə hər cür pisliyi və əxlaqsızlığı sərgiləyə biləcəklər.

O halda edilməsi lazım olan, təhsil müəssisələrində, kitablarda, mətbuat və nəşr orqanlarında, ictimai platformalarda, qısacası hər yerdə təkamül xurafatları ilə dünya gəncliyinin beyinlərinin yuyunmasına icazə verməmək və onları Quranın və elmin nəzərdə tutduğu ağılla, dərin düşünməyə yönəltməkdir.

Necə ki, dünyada bir çox millət Darvinizmin gənclərə verdiyi təxribatı geri dönüşü olmayan bir şəkildə yaşamaqdadır. İngiltərədəki xuliqanlar, Almaniyadakı neo-nazilər, Amerikada dazlaklar və daha saysız ölkədə gənclərin böyük əksəriyyəti, bu gün bütün insani xüsusiyyətlərini itirmiş şəkildə, ətraflarına vəhşilik saçan qatillər, canilər olaraq Darvinizm təhlükəsinin canlı göstəriciləri olmuşlar. Hal-hazırda bu ölkələrin, idarədən çıxmış gənclərinə qarşı acizliyə düşmüş olmasının səbəbi, vaxtında bu gənclərin darvinist təhsildən keçmiş olmalarıdır. Bu günə qədər Türk milləti bu tip oyunlara heç bir zaman gəlməmiş, darvinist və Darvinizmdən güc alan kommunist, faşist güclərin tələlərinə heç düşməmişdir. Bu gün də eyni şəkildə, gəncliyi hədəf alanların, onları bu cür xurafatlarla yanıltmağa çalışanların oyunlarına gəlməyəcək.

Kitab boyunca da vurğuladığımız kimi təkamül nəzəriyyəsi və təkamülçülər böyük çıxılmaz vəziyyət içindədirlər. Çünki elm, Darvinizmi açıq şəkildə yalanlamaqdadır. Bunun fərqində olan təkamülçülər isə böyük çaxnaşma içində çırpınmaqda, çıxdıqları müzakirə proqramlarında, açıq iclaslarda, ya da cavabsız qaldıqları hər cür mühitdə dərhal yaradılış gerçəyini müdafiə edənlərə hücum etməkdə, bu şəkildə sözlə üstün gəlməyə çalışmaqdadırlar.

Hörmətli Adnan Oktarın "Kırşehir Ahu TV" reportajı, 15 iyul 2008-ci il

APARICI: Və bu qədər çətinliklərdə də kitab yazdınız və bir çox kitablarınızda da həmişə təkamül nəzəriyyəsinə əhəmiyyət verdiniz. Nə səbəblə əvvəlcə təkamül nəzəriyyəsinə əhəmiyyət verdiniz, yəni bunun nə əhəmiyyəti var? Nə qədər əhəmiyyətlidir təkamül nəzəriyyəsi?

ADNAN OKTAR: Müsəlmanların beyninə kürəkdən bir pəncə atıldı. Kürəklərindən, yəni başlarının arxa tərəfindən bir pəncə atıldı. Yalnız önlərini görürlər. **"Bu hadisələrin arxasında nə var? Bu qədər fitnənin, fücurun arxasında nə var?"** Məhz buna baxmırlar. **"Bir insan dini hökmlərə niyə hücum edər, İslama niyə hücum edər?"** Bunu araşdırmırlar. **"Dinsizliyindən, imansızlığından"** deyib keçirlər. Amma bu adam niyə bu hala gəldi?

Baxdığımızda tək bir şey qarşımıza çıxır, Darvinizm. Darvinizm bütünə inanır. Adamın batil dini ayaqda dayandığı müddətcə o dinə sadiq qalar. Əvvəl o dinin etibarsızlığının isbat edilməsi lazım. Bizim etdiyimiz də bu böyük fitnənin, bu böyük yalanın bir oyun olduğunu insanlara izah etmək. Darvinizmin hiyləgər gücünü, hiyləgər təsirini bəzi müsəlmanlar heç təxmin edə bilmədi indiyə qədər. İslam aləmində fərq edilə bilmədi. Məsələn heç bir İslam alimi Darvinizmə qarşı mənim etdiyim tərzdə, bizlərin etdiyi tərzdə mübarizə vermədi. Bir neçə sətir bəlkə keçmişdir, bəziləri heç danışmamışdır. Bu mövzuda heç bir şərh etməmişdir. Bu da Allaha şükür, mən bir nemət olaraq görürəm. Allahın məni və yoldaşlarımı vəzifələndirməsini bu mövzuda nemət olaraq görürəm.

Müsəlmanların qanını həmişə axıdan sistem var. Müsəlmanların çoxu bunu görmür. O gücsüz quruluşun haradan gəldiyini araşdıracağına, o sistemlə mübarizə edirlər. Halbuki sistemlə mübarizə etmənin ən gözəl yolu, onun dinini ortadan qaldırmaqdır. Yəni necə qarşımızdakı güc bizim dinimizi ortadan qaldırmağa çalışırsa müsəlmanın da onun dinini ortadan qaldırmağa çalışması lazım.

Darvinizm ateist, materialist bir din, bütpərəst din, şumerlər dövründən bəri gələn dindir. Çox qədimdir. Darvinizm, yeni ortaya çıxmış din deyil. Misir tarixinə baxdığımızda da, fironlar dövründə də eyni ideologiyanın, eyni batil inancın olduğunu görürük. Şumerlərdə, Akatlarda hamısında vardır. Bütün

əfsanələrdə vardır bu. Köhnə fəlsəfə bu, azmış dindir. Bu gizli dini ifşa etmək, ortaya çıxartmaq çox əhəmiyyətlidir. Gizli olan hər şeyin mütləq açığa çıxardılması lazımdır, müsəlmanlığın əleyhinə olanların. Müsəlman çox açıq olur. Hətta saqqallı, cübbəli olur lazım olsa yaxud bir şəkildə müəyyən edir. Namaz qılır, müəyyən edir. Darvinizmi də təsvir etmək, gizli heç bir şey buraxmamaq çox həyatidir.

NƏTİCƏ

Təkamülçülərin **"din ilə elmi qarışdırmayaq, inanc ayrı, təkamül həqiqəti ayrı"** şəklindəki məntiqləri də yenə müsəlmanların birliklərini pozmaq və etdikləri mübarizəni öz ağılları tərəfindən zəiflətmək məqsədlidir. Bu tərs məntiqi qarşıya qoyanların əsas vermək istədikləri xəyali hekayələrlə dolu mesaj; **"Bir həqiqət dünya vardır və bu elmlə aydın olar və elm bizə yaradılış deyə bir şey olmadığını göstərər, amma istəyən öz fərdi fikri içində dilədiyinə inanar"** yalanıdır. Bu böyük bir hiyləgərlikdir. Allahın kainatı və canlıları yaratmış olduğu **"açıq-aşkar bir həqiqətdir"**; həqiqətin də özüdür. Kainatı əhatə edən hər detal Allahın yaradılışının bir dəlilidir. Əsas təkamül heç bir dəlilə söykənməyən batil inancdır və ancaq insanların **"xüsusi inancı"** olaraq qiymətləndirilə bilər. Müsəlmanlar, **"həqiqəti"** materialist fəlsəfənin suverenliyinə verən, buna qarşılıq yaradılış həqiqətinə yalnız **"fərdi inanc"** olaraq göstərməyə çalışan bu hiyləli təlqinə qarşı şüurlu olmalıdırlar.

Bu təlqini məğlub etmək isə asandır. Haqqın qarşısında batil olanın heç bir etibarlılığı olmayacağı bir Quran ayəsində bu şəkildə bildirilər:

Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)

Bəzi müsəlmanların təkamülü guya dinə uyğunlaşdırma səylərinin altında isə, **"batil"** qarşısında duyduqları narahatlıq, əziklik, məlumatsızlıq və qərarsızlıq yatmaqdadır. Halbuki bu son dərəcə yersiz bir həqirlikdir. Çünki təkamülçülərin özlərini müdafiə edə bilmək üçün nə elmi dayaqları, nə də dəlilləri vardır. Onlar bu nəzəriyyəyə olan doqmatik bağlılıqları səbəbiylə demaqoqluq etməkdə, psixoloji təzyiqlə qarşılarındakıları susdurmağa çalışmaqdadırlar. Həqiqətdə isə çarəsiz vəziyyətdədirlər.

Bəhs etdiyimiz müsəlmanların bunu fərq etməmələrinin səbəbi, mövzu haqqındakı elmi inkişaflardan xəbərsiz olmalarıdır. Elmi inkişafları izləməyən, təkamül nəzəriyyəsinin etibarsızlığını izah edən nəşrləri oxumayan bir insan təkamül nəzəriyyəsini elmi həqiqət zənn etmə yanılmasına düşə bilər. Ancaq məlumatsızlıq, bu mövzudakı əsərləri oxumaqla asanlıqla aradan qaldırıla biləcək bir nöqsandır. Təkamül nəzəriyyəsi mövzusunda ətraflı məlumat sahibi olan bir müsəlman üçün, təkamülçülərin iddiaları qarşısında qərarsız və ya susqun qalma kimi bir vəziyyət qəti olaraq olmayacaq. Bununla yanaşı, Allahın bənzərsiz yaradılışını və bütün kainatı əhatə edən qüsursuz sənətini dərin düşünmək, Qurana qüvvətlə sarılmaq və Quran ayələrində bildirilən həqiqətləri qavramaq bu mənfi təsirlərdən xilas olmanın ən asan yoludur.

Bəlkə bir çox səmimi müsəlman bu günə qədər kitab boyunca saydığımız səbəblərdən ötəri təkamül nəzəriyyəsini qəbul etmiş, hətta müdafiə etmiş ola bilər. Ancaq İslam əxlaqının gərəyi, insanın səhvini fərq etdiyi anda, dərhal doğru yola yönəlməsidir. Çünki darvinist düşüncənin meydana gətirdiyi zərərlər bilinmədən əvvəl bu nəzəriyyəyə dəstək olmaqla, nəzəriyyənin əsrlərdir meydana gətirdiyi zərərlərini öyrəndikdən sonra dəstək olmaq bir deyil. Bir insan Darvinizmin bu təhlükəli ölçülərini bilmədən və elmi etibarsızlığını öyrənmədən əvvəl məlumatsız şəkildə bu nəzəriyyəyə dəstək vermiş ola bilər, lakin gözəl və ərdəmli olan rəftar bütün bunları öyrəndikdən sonra həmin insanın dərhal hərəkətə keçməsi və bu zərərli ideologiyaya qarşı fikri mübarizəyə dəstək olmasıdır. Allah bir ayəsində müsəlmanlara belə buyurmaqdadır:

Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər.

(Ənfal surəsi, 73)

ƏLAVƏ BÖLMƏ: TƏKAMÜLYALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının

gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982*, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan

qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər**

baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”, – demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya

xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını

göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- Australopithecus
- Homo habilis
- Homo erectus
- Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında

təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli

Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.

100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi

görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəzilərdir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm^3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən,

gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)

... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!

(Əraf surəsi, 179)

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər.

(Hicr surəsi, 14-15)

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.

(Əraf surəsi, 116)

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın

ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)

ƏDƏBİYYAT

1) Arda Denkel, Cumhuriyet Bilim Teknik Eki, 27 fevral 1999, səh. 15

2) David Skjaerlund, Philosophical Origins of Evolution, http://www.forerunner.com/forerunner/x0742-philosopcial-origin.html

3) Mehmet Bayraktar, "İslamda Evrimci Yaratılış Teorisi", Kitabiyat Basımevi, Ankara 2001, 2-ci nəşr, səh. 15

4) http://buglady.clc.uc.edu/biology/bio106/earlymod.htm

5) David Skjaerlund, Philosophical Origins of Evolution, http://www.forerunner.com/forerunner/x0742-philosopcial- origin.html

6) http://buglady.clc.uc.edu/biology /bio106/earlymod.htm

7) Mehmet Bayraktar, "İslamda Evrimci Yaratılış Teorisi, səh. 13

8) Fred Hoyle-Chandra Wickramasinghe, Evolution From Space, London: J.M. Dent and Company, 1981, səh. 141

9) Pierre-Paul Grassé, Evolution of Living Organisms, Academic Press, New York, 1977 səh. 103

10) Fred Hoyle, Chandra Wickramasinghe, Evolution from Space, səh. 130

11) Pierre-Paul Grassé, Evolution of Living Organisms, səh. 97

12) Prof. N. Heribert Nilsson, Lund University, Sweden Famous botanist and evolutionist, As quoted in: The Earth Before Man, səh. 51, http://www.netcentro.co.uk/steveb/penkhull/create3.htm

13) T. Neville George, "Fossils in Evolutionary Perspective", Science Progress, cild 48, yanvar 1960, səh. 1- 3

14) Mark Czarnecki, "The Revival of the Creationist Crusade", MacLean's, 19 yanvar 1981, səh. 56

15) Henry Gee, "In Search of Deep Time", New York, The Free Press, 1999, səh. 116-117

16) Gertrude Himmerfarb, Darwin and the Darwinian Revolution, Elephant Paperbacks, Chicago, 1962, səh. 384

17) Gertrude Himmerfarb, Darwin and the Darwinian Revolution, səh. 383

18) Mayr, Ernst, "Darwin and Natural Selection," American Scientist, cild 65 (may/iyun, 1977) səh. 323

19) Gertrude Himmerfarb, Darwin and the Darwinian Revolution, səh. 383

20) Gertrude Himmerfarb, Darwin and the Darwinian Revolution, səh. 383

21) Gertrude Himmerfarb, Darwin and the Darwinian Revolution, səh. 384

22) Gertrude Himmerfarb, Darwin and the Darwinian Revolution, səh. 385

23) Francis Darwin, Charles Darwin'in Yaşamı ve Mektupları, Düşün Yayıncılık, İstanbul 1996, səh. 80

24) Gertrude Himmerfarb, Darwin and the Darwinian Revolution, səh. 384

25) Gertrude Himmerfarb, Darwin and the Darwinian Revolution, səh. 381

26) Gertrude Himmerfarb, Darwin and the Darwinian Revolution, səh. 382

27) Francis Darwin, "The Life and Letters of Charles Darwin", D. Appleton and Co., 1896, Chapter 1.VIII., Religion).

28) Francis Darwin, Charles Darwin'in Yaşamı ve Mektupları, səh. 275

29) Francis Darwin, Charles Darwin'in Yaşamı ve Mektupları, səh. 275

30) Francis Darwin, Charles Darwin'in Yaşamı ve Mektupları, səh. 373

31) Conway Zirkle, Evolution, Marxian Biology and the Social Scene, Philadelphia; the University of Pennsylvania Press, 1959, səh. 527

32) Robert M. Young, DARWINIAN EVOLUTION AND HUMAN HISTORY, Radio talk given in an Open University course on Darwin to Einstein: Historical Studies on Science and Belief, 1980

33) Alaeddin Şenel, Irk ve Irkçılık Düşüncesi, Ankara: Bilim ve Sanat Yayınları, 1993, səh. 62

34) Carl Cohen, Communism, Fascism and Democracy, New York: Random House Publishing, 1967, səh. 408-409

35) Marx-Engels, Seçme Yapıtlar 3, Sol Yayınları, səh. 156

36) P.J.Darlington, Evolution for Naturalists, səh. 243

37) Robert Shapiro, Origins: A Sceptics Guide to the Creation of Life on Earth, Summit Books, New York, 1986. səh. 207

38) Francis Darwin, The Life and Letters of Charles Darwin, Vol. I, 1888, New York D. Appleton and Company, səh. 285-286

39) Müfredat,Ragıp el-İsfehani,Çıra Yayınları, 3-cü nəşr, səh. 646

40) Tefsir-i Kebir,Fahreddin Razi,Huzur Yayınevi, cild 22, səh. 151

41) İmam Taberi, Taberi Tefsiri, Tercüme Mehmet Keskin, Ümit Yayıncılık, 6-cü cild, səh. 2631

42) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, Bilmen Yayınevi, İstanbul, 8-ci cild, səh. 3851

41) Elmalılı Hamdi Yazır, http://www.kuranikerim.com/telmalili/insan-dehr.htm

42) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, 8-ci cild, səh. 3915

43) Müfredat,Ragıp el-İsfehani,Çıra Yayınları, 3-cü nəşr, səh.389

İmam Taberi, Taberi Tefsiri, 6-ci cild, səh. 2684

44) Müfredat,Ragıp el-İsfehani,Çıra Yayınları, 3-ci nəşr, səh. 321

45) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, 8-ci cild, səh. 3915

46) İmam Taberi, Taberi Tefsiri, 6-ci cild, səh. 2684

47) Elmalılı Hamdi Yazır, http://www.kuranikerim.com/telmalili/insan-dehr.htm

48)- İmam Taberi, Taberi Tefsiri, 6-ci cild, səh. 2684

49) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, 8-ci cild, səh. 3915

50) İmam Taberi, Taberi Tefsiri, 3-cü cild, səh.1268

51) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, 4-cü cild, səh. 1958

52) Elmalılı Hamdi Yazır, http://www.kuranikerim.com/telmalili/infitar.htm

53) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, 6-ci cild, səh. 2763

54) İmam Taberi, Taberi Tefsiri, 4-cü cild, səh.1796

55) Elmalılı Hamdi Yazır, http://www.kuranikerim.com/telmalili/infitar.htm

56) Elmalılı Hamdi Yazır, http://www.kuranikerim.com/telmalili/infitar.htm

57) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, 8-ci cild, səh. 3983

58) İmam Taberi, Taberi Tefsiri, 6-cı cild, səh. 2748

59) İmam Taberi, Taberi Tefsiri, 4-cü cild, səh. 1796

60) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, səh. 2764

61) Müfredat, Ragıp el-İsfehani, Çıra Yayınları, 3-cü nəşr, səh. 60

62) Elmalılı Hamdi Yazır, http://www.kuranikerim.com/telmalili/nuh.htm

63) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, 8-ci cild, səh. 3851

64) İmam Taberi, Taberi Tefsiri, 6-cı cild, səh. 2632

65) Tefsir-i Kebir,Fahreddin Razi,Huzur Yayınları, 22-ci cild, səh. 153-154

66) İmam Taberi, Taberi Tefsiri, 4-cü cild, səh. 1701

67) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, 5-ci cild, səh. 2622

68)- Elmalılı Hamdi Yazır, http://www.kuranikerim.com/telmalili/kasas.htm

69) İmam Taberi, Taberi Tefsiri, 4-cü cild, səh. 1877

70) Ömer Nasuhi Bilmen, Kuran'ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, 6-cı cild, səh. 2882

71) Philip E. Johnson. Darwin On Trial, Intervarsity Press, Downers Grove, Illinois, 2nd ed, 1993, səh. 155

ŞƏKİL ALTI YAZILAR

səh. 10

TERROR

İRQÇİLİK

NİFRƏT

DÖYÜŞ

SEVGİSİZLİK

DARVİNİZM

Darvinizmin ideoloji quruluşunun hakim olduğu yerlərdə qaçınılmaz olaraq qarşıdurma hakim olar. Çünki bu təhlükəli ideologiya, mərhəmət, sevgi, acı, şəfqət, vəfa, hörmət kimi hissləri guya təkamül müddətini gerilədən və dolayısilə ortadan qalxması lazım olan maneələr olaraq görər.

səh. 23

Çarlz Darvin

səh. 28

Əgər onlar sizi ala keçirsələr, sizə düşmən kəsilər, əlləri və dilləri ilə sizə pislik edər və sizin kafir olmanızı istəyərlər. (Mumtəhinə surəsi, 2)

səh. 30

“GÖZÜ DÜŞÜNMƏK MƏNİ NƏZƏRİYYƏMDƏN SOYUTDU!”

–Çarlz Darvin–

Təkamül nəzəriyyəsinin ən böyük çıxılmaz vəziyyətlərindan biri canlılardakı kompleks strukturlardır. Məsələn təkamülçülər, təxminən 40 ayrı hissədən ibarət olan gözün təsadüfən meydana gəldiyini iddia edərlər, amma bunun necə olduğunu əsla açıqlaya bilməzlər. Necə ki, belə möhtəşəm bir quruluşun şüursuz təsadüflərlə meydana gəlməsi mümkün deyil. Aşağıdakı sxemdə gözü meydana gətirən hissələrdən bəziləri görülməkdədir.

Torlu qişanın optik hissəsi

Koroid

Koroidi əhatə edən boşluq

Sklera

Tenon kapsulu

Episkleral boşluq

Sarı xaldakı nov

Optik sinirin xarici örtüyü

Aracknoidaltı boşluğu

Yan rektus əzələ tendonu

Torlu qişanın siliyal hissəsi

Siliyal quruluş və siliyal əzələsi

Schlemm kanalı

Skleral sümük

Mərcəyin asıcı bağı

İris

Mərcək

Mərcək kapsulası

Kornea

Ön kamera

Arxa kamera

İridokorneal bucaq

Siliyal əməliyyatlar

Dişli xətt

Daxili yan rektus əzələsi

Skleradakı dəliklə bölgə

Mərkəzi retinal arteriya və vena

Optik sinir (II)

Şüşə kanal

Şüşə cisim

səh. 31

Çarlz Darvin

səh. 32

Çarlz Darvin, canlılardakı kompleks sistemlərdən biri olan gözü düşündüyündə nəzəriyyəsindəki çıxılmaz vəziyyətləri fərq etmiş və **"gözü düşünmək məni nəzəriyyəmdən soyutdu"** şəklində etiraf etmişdi.

səh. 35

Prof. Owen Gingerich

Prof. Carl Friedrich von Weizsacker

Prof. Dr. Donald Chittick

Prof. Robert Matthews

Prof. Michael j. Behe

Prof. David Menton

Yaradılış həqiqətini qəbul edən elm adamlarından bəziləri (soldan sağa): Harvard Universitetində astronomiya və elm tarixi professoru olan prof. Owen Gingerich, Almaniya Max-Planck-Gesellschaft Universitetində fizika

professoru prof. Carl Friedrich von Weizsacker, Oreqon Universitetində kimya professoru prof. Dr. Donald Chittick, Oksford Universiteti fizika professorlarından prof. Robert Matthews, Lehigh Universitetində biologiya professoru Michael j. Behe, Vaşinqton Universitetindən anatomiya professoru David Menton.

səh. 37

Göylərdə və yerdə nə varsa, Onundur. Həqiqətən, Allah Zəngindir, Tərifəlayiqdir. (Həcc surəsi, 64)

səh. 40

Yunanlı filosof Thales

səh. 41

Thalesin su üzərində üzən düz dünya fikrini təmsil edən bir şəkil. Şəkildə yer üzünün üzərində 4 təməl elementdən ikisi olaraq qəbul edilən hava və atəş görülməkdədir.

səh. 42

Empedokles kimi bəzi filosoflər dünyanın, yer üzü, atəş, hava və su olmaq üzrə dörd elementdən meydana gəldiyini qarşıya qoyurdular. 17-ci əsrə aid bu illüstrasiyada, dörd elementin Günəş ətrafında meydana gətirdiyi dairələr simvollaşdırılır.

səh. 43

Heraklitos

səh. 44

Yunanlı filosof Aristo

səh. 47

Təkamülçülər ilk canlı hüceyrənin primitiv dünya şərtlərində, cansız maddələrdən, təbiət hadisələrinin təsadüfü təsirləriylə özbaşına meydana gəldiyi kimi ağıl və elmdən kənar bir fikri müdafiə edərlər. Ancaq bu iddia, müasir elmin tapıntılarıyla heç bir şəkildə uyğunlaşmamaqdadır.

səh. 48

Prof. Fred Hoyle

səh. 49

Təkamülçülərin, canlılığın təsadüflər nəticəsində cansız maddələrdən özbaşına meydana gəldiyini iddia etmələri, ABŞ-dakı Azadlıq abidəsinin, dənizə düşən ildırımlar nəticəsində təsadüfən bir yerə gələn qum və çınqıllardan meydana gəldiyini iddia etmək qədər ağıl və məntiqdən kənardır.

səh. 50

HÜCEYRƏDƏKİ QÜSURSUZ YARADILIŞ TƏSADÜF İDDİASINI ETİBARSIZ ETMƏKDƏDİR

Mikrotübül

Silə

Golgi cisimciyi

Hüceyrə pərdəsi

Nuklein

Kromatin

Nüvə örtüyü

Mitoxondri

Lizozom

Glikojen

Peroksizom

Mikrovillus

İfraz edici kisə

Sentriol

Sentrozom

Mikrotübül

Sitoplazma

Sərbəst ribozomlar

Düz endoplazmik retikulum

Mikro

Canlılığı meydana gətirən tək bir hüceyrə belə son dərəcə kompleks quruluşa malikdir. Yuxarıdakı şəkildə hüceyrəni meydana gətirən hissələrdən yalnız bir hissəsi görülməkdədir.

Bütün bu hissələr arasında son dərəcə kompleks və qüsursuzca planlanmış bir təşkilat var. Belə bir quruluşun təsadüfən meydana gəldiyini iddia etmək, ağla, məntiqə və elmi tapıntılara qəti olaraq ziddir.

səh. 52

Məməlilər

Quşlar

Sürünənlər

Amfibiyalar

Onurğasız balıq

Qığırdaqlı balıq

Çənəsiz balıq

Sefalopodlar

Ürosırtiplilər

Yarısırtiplilər

Dərisi tikanlılar

SAXTA

səh. 53

Təkamülçülərin xəyali şəcərəsi

Yumşaqcalar

Böcəklər

Qabıqlılar

Hörümçəkimilər

Onychophora

Anelidlər

Yastı qurdlar

Sölenterler

Porifera

səh. 55

İnsanın tək bir DNT molekulunda təxminən 1000 kitabı dolduracaq miqdarda məlumat mövcuddur. Edilən təsbitlərə görə, bu nəhəng ensiklopediya təxminən 3 milyard hərfdən meydana gəlməkdədir. DNT-dəki mükəmməl yaradılış, Allahın sonsuz güc və qüdrətinin dəlillərindən biridir.

səh. 56

Təbii seleksiyaya görə, güclü olan və yaşadığı ətrafa uyğunlaşma təmin edə bilən canlılar həyatda qalarlar, digərləri isə yox olarlar. Təkamülçülər isə təbii seleksiyanın canlıları təkamülləşdirdiyini, yeni növlər meydana gətirdiyini qarşıya qoyarlar. Halbuki təbii seleksiyanın belə bir nəticəsi yoxdur və bu iddianı təsdiqləyən tək bir dəlil də yoxdur.

səh. 58

Təsadüfi mutasiyalar insanlara və digər bütün canlılara hər zaman üçün zərər verərlər. Şəkillərdə görülən Çernobil qəzasının nəticələri, mutasiyaların dağıdıcı təsirlərini görmək baxımından ibrət vericidir.

(1) http://www.ecn.cz/private/c10/tmi.jpg

(2) http://www.ecn.cz/private/c10/child.jpg

(3) http://www.tmia.com/xtrarosebud.html

(4) http://www.adiccp.org/imagery/medical-aid.html

səh. 59

Cavanlardan biri o birilərinə dedi: "Bizim bu xalqımız Allahdan başqa məbudlar qəbul etdi. Bəs nə üçün onlar buna aid (bütlərə dair) bir dəlil gətirmədilər? Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?! (Kəhf surəsi, 15)

səh. 60

Qasırğa bir şəhəri necə inkişaf etdirməz və o şəhəri yalnız dağıdarsa, təsadüfi mutasiyalar da canlıları inkişaf etdirməz, onları ancaq məhv edər, xəstəlik, şikəstlik gətirər.

səh. 62

Təkamülçülər, məsələn bir dəniz ulduzunun milyonlarla il ərzində, addım-addım inkişaf edərək balıqlara təkamülləşdiyini iddia edərlər. Bu iddiaya görə, dəniz ulduzu ilə balıqlar arasında bir çox "ara-keçid forması" tapılmalıdır. Ancaq bu günə qədər, hər hansı ara keçid formasına aid tək bir fosil belə tapılmamışdır. Fosil qeydlərində dəniz ulduzları vardır, balıqlar vardır, amma ikisi arasında bir ara forma yoxdur.

səh. 63

Təkamülçülərin iddia etdikləri ara-keçid formalarına aid qalıqların birinə belə fosil qeydlərində rast gəlinməmişdir. Tarix boyunca balıqlar hər zaman balıq, quşlar hər zaman quş, insanlar isə hər zaman insan olaraq var olmuşlar.

XƏYALİ ŞƏKİL

səh. 66

Henry Geenin *"In Search of Deep Time"* adlı kitabı

səh. 73

Darvinist tarixçi Gertrude Himmelfarbın *"Darvin and Darwinian Revolution"* (Darvin və Darvinçi inqilab) adlı kitabı

səh. 75

"...Beləcə inancsızlıq yavaş-yavaş məni əhatə etdi və nəticədə tamamlandı."

Çarlz Darvin

səh. 76

Çarlz Darvinin həyat yoldaşı Emma Darvin

səh. 77

Darvin bəzi məktublarında və avtobiyoqrafiyasında dinsiz olduğunu açıqlamışdır.

səh. 80

Georgi Valentinovich Plekhanov

səh. 81

Lenin

Stalin

Mao

Mussolini

Franco

Hitler

səh. 82

Hitlerin **“Savaşım”** kitabı

səh. 83

Marks, kitabı **“Das Kapital”**ı Darvinə ithaf etmək istəmişdi.

səh. 84

Kommunizmin fikir atalarından Friedrich Engels

səh. 85

Darvinizmə adi bir nəzəriyyə gözü ilə baxanlar bu nəzəriyyədən bir zərər ümid etməyə bilərlər. Lakin yaxın keçmişdə yüz milyonlarla insan bu ideologiyanın zülmünə məruz qalmışlar. Gərək öz cəmiyyətlərinə, gərəksə işğal etdikləri digər ölkələrin xalqlarına zülm edən diktatorlar, Darvinizmdən ilham almışlar və darvinist təlimləri özlərinə örtük əldə etmişlər.

səh. 88

Darvinin məktublarının və Türk Milləti haqqındakı sayıqlamalarının bəhs etdiyi ***“Çarlz Darvinin həyatı və məktubları”*** adlı kitab.

səh. 89

“Hürriyyət” qəzeti, 29.08.2001

“Zaman” qəzeti, 31.10.2000

Dövrümüzdə türklərə istiqamətli irqçi hücumların qaynağında Darvinin irqçi fikirləri var. Məsələn neo-nazilər, internet səhifələrində Darvinin Türk milləti haqqındakı sayıqlama dolu sözlərini yayımlamaqdadırlar.

səh. 96

Bir çiçəyin meydana gəlməsinin hər mərhələsində Allahın sonsuz qüdrətinin və sonsuz ağılının təcəlliləri vardır. Bir toxumu, canlı rənglərilə son dərəcə estetik bir çiçəyə çevirən aləmlərin Rəbbi olan Allahdır.

səh. 98

Gözlə görülməyəcək qədər kiçik bir hüceyrəni, düşünən, danışan, nəfəs alan bir insana çevirən Allahın sonsuz elmi və qüdrətidir.

İlk insandan etibarən bütün insanlar Allahın qüsursuz yaradılışı ilə yaradılmışlar. Tarix boyunca hər insan dünyaya, Allahın təqdir etdiyi mərhələlərdən keçərək gəlmişdir. Bu, təkamül deyil, yaradılışdakı mükəmməllikdir.

səh. 113

Quranda bildirildiyi kimi Allah hz. Süleymana, qarışqaların danışıqlarını anlaya biləcək bir elm vermişdi.

səh. 124

XƏYALİ

Təkamülçü elm adamları, bəzi müsəlmanların düşündükləri kimi elmi dəlillərdən deyil, saxtakarlıqlardan, təhrif etmələrdən və xəyal məhsulu

dəlillərdən güc alırlar. Yenidən bərpalar da bu təhrif etmələrin bir nümunəsidir.

Təkamülçülər, burun və dodaqların quruluşu, saçların şəkli, qaş forması və ətlər kimi fosil izi buraxmayan xüsusiyyətləri qərəzli olaraq təkamülü dəstəkləyici xüsusiyyətdə şəkilləndirərlər. Ortaya çıxardıqları xəyali varlıqları, ailələriylə gedərkən, ovlanarkən və ya gündəlik həyatın başqa bir kəsiyində göstərən ətraflı şəkillər hazırlayarlar. Halbuki bu dizaynlar tamamilə xəyal məhsuludur və həqiqətdə heç bir qalıqla dəstəklənilməməkdədir.

səh. 164

Darvinist təhsilin gətirdiyi fəlakət: Uşaq qatillər

Məktəblərində gənclərə Darvinizmi elmi həqiqət kimi izah edən bəzi ölkələr, bu gənclərə təcavüzkarlığı, **"həyat mübarizəsi"**ndə həyatda qalmaq üçün mübarizə aparmaq lazım olduğu yalanını da təlqin etməkdədirlər.

Bu səhv təhsilə görə öz əllərilə terrorist yetişdirən ölkələr, sonra da istehsal etdikləri bu ölüm maşınlarını bir-bir yığmağa çalışmaqdadırlar. Halbuki qəti həll əvvəlcə bu gənclərə darvinist xurafatlardan təmizlənmiş təhsil verməkdir.

səh. 173

Fransız bioloq Luis Pasteur

səh. 175

Rus bioloq Aleksandr Oparin

səh. 176

Ən son təkamülçü qaynaqların da qəbul etdiyi kimi, həyatın mənşəyi, hələ də təkamül nəzəriyyəsi üçün son dərəcə böyük çıxılmaz vəziyyətdir.

səh. 177

Təkamül nəzəriyyəsini etibarsız edən həqiqətlərdən biri, canlılığın inanılmaz dərəcədəki kompleks quruluşudur. Canlı hüceyrələrinin nüvəsində var olan DNT molekulu, bunun bir nümunəsidir. DNT, dörd ayrı molekulun fərqli düzülməsindən yaranan bir növ məlumat bankıdır. Bu məlumat bankında canlıyla əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri mövcuddur. İnsan DNT-si kağıza yazıldığında, ortaya təxminən 900 cildlik ensiklopediya çıxacağı hesablanmaqdadır. Əlbəttə bu cür fövqəladə məlumat, təsadüf anlayışını qəti şəkildə etibarsız etməkdədir.

səh. 181

antena

gözlər

ağız

ayaq

Təkamülçülər əsrin əvvəlindən bəri milçəklərin mutasiyaya uğradaraq, faydalı mutasiya nümunəsi meydana gətirməyə çalışdılar. Ancaq on illərlə sürən bu səylərin nəticəsində əldə edilən tək nəticə, şikəst, xəstə və qüsurlu milçəklər oldu. Ən solda, normal meyvə milçəyinin başı və sağda mutasiyaya uğramış digər meyvə milçəyi.

səh. 184

Dəniz ulduzu

Dövr: Paleozoy erası, Ordovik dövrü

Yaş: 490-443 milyon il

Ağcaqayın ağacı yarpağı

Dövr: Kaynozoy erası, Eosen dövrü

Yaş: 50 milyon il

Sekoiya yarpağı

Dövr: Kaynazoy erası, Eosen dövrü

Yaş: 50 milyon il

Fosil qeydləri, təkamül nəzəriyyəsinin qarşısında çox böyük maneədir. Çünki bu qeydlər, canlı növlərinin, aralarında heç bir təkamüllü keçid forması tapılmadan, bir anda və əksiksiz quruluşları ilə ortaya çıxdıqlarını göstərər. Bu həqiqət, növlərin ayrı-ayrı yaradıldıqlarının isbatıdır.

səh. 186

Təbaşir dövrünə aid bu timsah qalığı 65 milyon illikdir. Dövrümüzdə yaşayan timsahlardan heç bir fərqi yoxdur.

İtaliyada çıxarılmış mene balığı fosili 54-37 milyon illikdir.

Bu 50 milyon illik çinar yarpağı fosili ABŞ-da çıxarılmışdır. 50 milyon ildir çinar yarpaqları heç dəyişməmiş təkamül keçirməmişdir.

səh. 187

Oliqosen dövrünə aid bu xərçəng fosili 37-23 milyon illikdir. Dövrümüzdə yaşayan xərçənglərdən heç bir fərqi yoxdur.

Təbaşir dövrünə aid bu cırcırama fosili 125 milyon illikdir. Dövrümüzdə yaşayan cırcıramalardan heç bir fərqi yoxdur.

səh. 191

SAXTA

İnsanın təkamülü nağılını dəstəkləyən heç bir fosil qalığı yoxdur. Əksinə, fosil qeydləri insanlar ilə meymunlar arasında aşıla bilməz bir sərhəd olduğunu

göstərməkdədir. Bu həqiqət qarşısında təkamülçülər, həqiqətdən kənar bəzi şəkil və maketlərə ümid bağlamışlar. Fosil qeydlərinin üzərinə dilədikləri maskaları keçirər və xəyali yarı meymun, yarı insan üzlər meydana gətirərlər.

səh. 192

Əgər darvinistlərin mutasiyalarla dəyişim və inkişaf iddiası doğru olsaydı, fosil qeydlərində üç beyinli, cüt onurğalı, çox gözlü, iki burunlu, 6-7 barmaqlı kimi görünüşü son dərəcə qəribə canlıların izlərinə rast gəlinməsi lazım idi. Ancaq 150 ildir aparılan araşdırmalar nəticəsində belə qəribə bir varlığın qalığına heç vaxt rast gəlinməmişdir.

XƏYALİ ARA FORMA

səh. 193

XƏYALİ ARA FORMA

səh. 199

Təkamülçülərin istədikləri bütün şərtlər təmin edilsə bir canlı meydana gələ bilərmi? Əlbəttə ki xeyr. Bunu daha yaxşı anlamaq üçün belə bir təcrübə edək. Yuxardakına bənzər vedrəyə canlıların meydana gəlməsi üçün lazımlı olan bütün atomları, fermentləri, hormonları, zülalları qısacası təkamülçülərin istədikləri, lazımlı gördükləri bütün elementləri qoyaq. Mümkün olan hər cür kimyəvi və fiziki üsulu istifadə edərək bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilirsə edilsin, nə qədər gözlənilsə gözlənilsin bu vedrədən canlı tək bir varlıq belə çıxara bilməyəcəklər.

səh. 201

Gözü və qulağı, kamera və səs qeyd cihazları ilə müqayisə etdiyimizdə bu orqanlarımızın bəhs edilən texnologiya məhsullarından daha kompleks və qüsursuz strukturlara sahib olduqlarını görərik.

səh. 202

Bir cisimdən gələn xəbərdarlıqlar elektrik siqnalına çevrilərək beyində təsir meydana gətirərlər. Görürəm deyərkən, əslində zehnimizdəki elektrik siqnallarının təsirini seyr edərik. Beyin işığa bağlıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər girə bilməz. Görüntü mərkəzi deyilən yer qapqaranlıq, işığın əsla girmədiyi, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edərsiniz.

səh. 205

Pəncərədən çöldəki mənzərəyə baxan bir insan, həqiqətdə, çöldəki deyil, beynindəki mənzərəyə aid görünüşü seyr edər.

İŞIQ

ELEKTRİK SİQNALI

ELEKTRİK SİQNALINDAN İBARƏT OLAN MƏNZƏRƏ GÖRÜNTÜSÜ

İnsanın gözünə gələn işıq, gözdəki hüceyrələr tərəfindən elektrik siqnalına çevrilərək, beynin arxasındakı görmə mərkəzinə gəlir. Beynimizin içindəki **“bir şüur”**, beyinə gələn elektrik siqnallarını mənzərə hesab edər.

səh. 209

Keçmiş zamanlarda timsaha tapınan insanların inancları nə dərəcə qəribə və ağla sığmazdırsa, dövrümüzdə darvinistlərin inancları da eyni dərəcədə ağla sığmazdır. Darvinistlər təsadüfləri və cansız şüursuz atomları cahil bir şəkildə sanki yaradıcı güc olaraq qəbul edərlər hətta bu batil inancı bir dinə bağlanmış kimi bağlanarlar.

ARXA CİLD

Təkamül nəzəriyyəsi deyildiyi zaman insanların ağlına fərqli anlayışlar gələ bilər. Bəzi insanlar (ümumiyyətlə materialist insanlar) təkamül nəzəriyyəsinin elm tərəfindən isbat edilmiş bir həqiqət olduğunu sanarlar. Halbuki həqiqət bunun tam tərsidir, elm yüzlərlə dəlil təkamül nəzəriyyəsinin etibarsızlığını gözlər önünə sərmişdir. Ancaq yenə də bəhs etdiyimiz insanlar təkamül nəzəriyyəsini şiddətlə müdafiə edər, bu nəzəriyyəyə əleyhinə hər fikri şiddətlə rədd edərlər.

İnanc sahibi insanların da bir hissəsi materialist təlqin və təbliğatlar nəticəsində təkamül nəzəriyyəsini elmi həqiqət zənn edərlər. Bu nəzəriyyə ilə Allaha iman arasında **"orta yol"** axtarmağa çalışarlar.

Halbuki təkamül nəzəriyyəsinin ideologiya olaraq arxa planı olan, ateizmi sağlamlaştırmaq məqsədiylə ortaya atılmış və materialist düşüncəyə sahib kütlələr tərəfindən şiddətlə sahiblənilmiş dindən kənar düşüncədir. Ortaya atıldığından bu yana insanlığa qarşıdurma, müharibə və degenerasiyadan başqa bir şey gətirməmişdir.

Bu kitab, təkamül nəzəriyyəsiylə yaradılış həqiqəti arasında ortaq nöqtələr tapmağa, hətta Qurandan təkamül nəzəriyyəsinə dəlil gətirməyə çalışan insanlara cavab xüsusiyyətindədir. Məqsədimiz, təkamül nəzəriyyəsi ilə uzlaşma səylərinin, elmi və ictimai baxımdan səhv olduğunu izah edərək, bu yanılmaya düşənlərə doğru dünyagörüşü qazandırmağa vəsilə olmaqdır.

YAZIÇI HAQQINDA: Harun Yəhya təxəllüsünü istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada doğuldu. 1980-ci illərdən bu yana, imani, elmi və siyasi mövzularda bir çox əsər hazırladı. Bunlarla yanaşı, yazarın təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və Darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Yazıçının bütün çalışmalarındakı ortaq hədəf, Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və azğın tətbiqlərini gözlər önünə sərməkdir. Necə ki, yazıçının, bu

günə qədər 73 ayrı dilə çevrilən 300-dən çox əsəri, dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən izlənilməkdədir.

Harun Yəhya Külliyyatı, (Allahın icazəsi ilə) 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, düzgünlük və ədalətə, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.